# Xalq qəzeti

Xalqın qəzeti!

№ 223 (30917) 17 oktyabr 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# BMT Azərbaycanın qlobal təşəbbüslərə fəal dəstəyini yüksək dəyərləndirir

## Prezident İlham Əliyev BMT-nin Məskunlaşma Proqramının icraçı direktorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbaxı qəbul edib.**

Söhbət zamanı qonağın Xankəndi şəhərində keçirilən III Azərbaycan Milli Şəhərsalma Forumunda iştirakının önəminə toxunuldu.

Anaklaudia Rossbax forumun yüksək səviyyədə təşkil edildiyini deyərək, həmin tədbirdə şəhərsalma məsələləri ilə bağlı çox aktual müzakirələrin aparıldığını vurğuladı.

Azərbaycan-UN-Habitat tərəfdaşlığı çərçivəsində ölkəmizdə indiyədək bir neçə milli şəhərsalma forumunun keçirildiyi məmnunluqla qeyd edildi.

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan irimiqyaslı bərpa-yenidənqurma işlərinə toxunuldu, işğaldan azad edilmiş ərazilərimizdə şəhər və kəndlərimizin inşasında yeni müasir şəhərsalma modelinin tətbiq olunduğu bildirildi.

Qonaq Azərbaycanın BMT-nin Məskunlaşma Proqramına könüllü maliyyə töhfələrinə və onun fəaliyyətini dəstəklədiyinə görə təşəkkürünü bildirdi. O, COP29-un ölkəmizdə uğurla keçirildiyini vurğulayaraq, bu tədbirdə iqlim gündəliyi ilə urbanizasiya fəaliyyətinin bir araya gətirildiyini və bu xüsusda Azərbaycanın təşəbbüslərlə çıxış etdiyini məmnunluqla vurğuladı.

Görüşdə 2026-cı ildə ölkəmizdə keçiriləcək Birləşmiş Millətlər Təşkilatının ən nüfuzlu tədbirlərindən biri – Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına hazırlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Digər mötəbər beynəlxalq tədbirlər kimi bunun da yüksək səviyyədə keçiriləcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı Azərbaycanla BMT-nin Məskunlaşma Proqramı arasında əməkdaşlığın perspektivləri müzakirə edildi.

## Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Müqəddəs Taxt-Taca rəsmi səfəri





Səhifə ⇨ 3




## Dərslik yeni nəslin bilik nizamnaməsidir

Səhifə ⇨ 14

## "Bizə diplom deyil, təcrübə lazımdır"



Səhifə ⇨ 14

## Prezident İlham Əliyev Füzuli Şəhəri Günü münasibətilə paylaşım edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında Füzuli şəhərinin azad olunmasının 5-ci ildönümü və Füzuli Şəhəri Günü münasibətilə paylaşım edib.**

**Paylaşımda "Zəfər Tariximiz: 17 Oktyabr 2020-ci il Füzuli" sözləri yer alıb.**

## Yaxın Şərq Sülh Sammiti: **Dəyişən dünya və sabit Azərbaycan**



Səhifə ⇨ 6

## Xankəndidə çağdaş şəhər modeli axtarışı



Səhifə ⇨ 6

## Bakının sülh və sabitlik strategiyası



Səhifə ⇨ 7

## Reallığın sülh diktəsi



Səhifə ⇨ 8

## Qeyri-dövlət sektorunun sənayedə payı artıb



Səhifə ⇨ 11

# Prezident İlham Əliyev Niderland səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Marian de Yonqun etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.**



Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu dedi. Kopenhagendə Niderland Krallığının Baş naziri Dik Sxof ilə görüşünü xatırladan Prezident İlham Əliyev həmin görüş əsnasında tərəfdaşlığımızın müxtəlif aspektlərinin müzakirə olunduğunu vurğuladı, bir çox sahədə əməkdaşlığı gücləndirmək barədə razılığın əldə edildiyini bildirdi. Hazırda Niderland şirkətlərinin ölkəmizdə müxtəlif istiqamətlər üzrə fəaliyyət göstərdiyini deyən dövlətimizin başçısı gələcəkdə onların sayının çoxalacağına ümidvar olduğunu ifadə etdi.

Qəbula görə minnətdarlığını bildirən səfir Niderlandın Kralı Villem-Aleksandrın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Niderlandın Kralı və Baş nazirinə çatdırmağı xahiş etdi.

Marian de Yonq ölkəsinin Azərbaycanla siyasi və iqtisadi sahədə güclü əməkdaşlıq etmək niyyətində olduğunu dedi, bunun qarşılıqlı fayda verəcəyinə əminliyini vurğuladı.

# Avropa İttifaqının nümayəndəliyinə yeni rəhbər təyin edilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Mariyana Kuyundziçin etimadnaməsini qəbul edib.**



Mariyana Kuyundziç etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı Tirana və Kopenhagendə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşlərini məmnunluqla xatırlayaraq, həmin görüşlər əsnasında əməkdaşlığımızın inkişaf perspektivlərinə dair ətraflı müzakirələrin aparıldığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin son dinamikasını vurğulayaraq, bir il ərzində Avropa İttifaqının 3 komissarının Azərbaycana səfərinə toxundu.

Mariyana Kuyundziç Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdırdı. Azərbaycanın fəal regional diplomatiya siyasəti yürütdüyünü deyən Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni rəhbəri Mariyana Kuyundziç Prezident İlham Əliyevin son dövrlərdəki səfərlərinin və iştirak etdiyi beynəlxalq Zirvə toplantılarının bunun bariz nümunəsi olduğunu vurğuladı.

O, Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin daha da inkişafı üçün əlverişli imkanların olduğunu deyərək, enerji, nəqliyyat sahələrində uğurlu əməkdaşlığa toxundu, Avropa İttifaqının regional nəqliyyat bağlantılarının yaradılması layihələrini yaxından dəstəklədiyini qeyd etdi.

Mariyana Kuyundziç Avropa İttifaqının ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana dəstəyini davam etdirəcəyini bildirdi.

Görüşdə Azərbaycan-Avropa İttifaqı əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Misir səfiri etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Houssam-Eldine Redanın etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.**



Prezident İlham Əliyev, ilk növbədə, Şarm-əl-Şeyxdə Yaxın Şərq Sülh Sammitinin yüksək səviyyədə təşkilinə görə Misir Ərəb Respublikasına təbriklərini çatdırdı. ABŞ Prezidenti Donald Tramp və Misir Prezidenti Əbdülfəttah əs-Sisi tərəfindən Azərbaycanın bu tədbirə dəvətini yüksək qiymətləndirən dövlətimizin başçısı bunu ölkələrimiz arasında mövcud olan etimadın və dostluğun nümunəsi kimi dəyərləndirdi.

Əbdülfəttah əs-Sisinin Azərbaycana səfərini, özünün isə Misirə rəsmi səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu səfərlər çərçivəsində müzakirə olunmuş mövzuların həyata keçirilməsi ilə bağlı məsələlərə toxundu.

Səfir Misir Prezidenti Əbdülfəttah əs-Sisinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Əbdülfəttah əs-Sisiyə çatdırmağı xahiş etdi.

Görüşdə Hökumətlərarası Komissiyanın əhəmiyyətinə toxunuldu, yaxın vaxtlarda onun növbəti iclasının keçiriləcəyi qeyd olundu. Bakı ilə Şarm-əl-Şeyx və Qahirə şəhərləri arasında birbaşa uçuşların olduğu və bunun turizm sahəsində əməkdaşlığa ciddi təkan verdiyi vurğulandı.

Söhbət zamanı mədəni və humanitar sahələrdə əməkdaşlığımızın perspektivləri müzakirə olundu.

# Fransanın yeni səfiri fəaliyyətə başlayıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Fransa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sofi Laqutun etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.**



Prezident İlham Əliyev Kopenhagendə Fransa Prezidenti Emmanuel Makronla görüşünü xatırladaraq, həmin görüşün nəticəsində ölkələrimiz arasında anlaşılmazlığa səbəb olan məsələlərin keçmişdə qaldığını dedi. İkitərəfli gündəlikdə yeni dövrün başladığını vurğulayan dövlətimizin başçısı, ilk növbədə, insanlararası və biznes nümayəndələrinin təmaslarının, mədəni, humanitar sahələrdə əməkdaşlığın bərpasının və inkişaf etdirilməsinin önəminə toxundu.

Səfir də öz növbəsində Azərbaycanla Fransa arasında münasibətlərdə yeni səhifənin açıldığını deyərək, əlaqələrimizin inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Görüşdə Azərbaycanla Fransa arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən yüksək texnologiyalar və aerokosmik sahələrdə uğurlu inkişafına toxunuldu. Hökumətlərarası Komissiyanın fəaliyyətinin bərpasının əhəmiyyəti vurğulandı, qardaşlaşmış şəhərlər arasında əlaqələr qeyd edildi, biznes nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkili və müxtəlif layihələrdə Fransa şirkətlərinin iştirakı məsələləri müzakirə olundu.

Azərbaycanla Fransanın enerji sahəsində uğurlu tərəfdaşlığı və bu xüsusda ölkəmizlə "Total" şirkəti arasında əməkdaşlığın önəmi qeyd edildi.

Söhbət zamanı bir çox sahədə münasibətlərimizin perspektivlərinə dair fikir mübadiləsi aparıldı, əməkdaşlığın davam etdirilməsinin vacibliyi vurğulandı.

***AZƏRTAC***

# Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Müqəddəs Taxt-Taca rəsmi səfəri

## Vatikanda Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılışı olub

### *Birinci vitse-prezident Mehriban Əliyeva açılış mərasimində iştirak edib*















**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Müqəddəs Taxt-Taca – Vatikana rəsmi səfərə gəlib.**

Oktyabrın 16-da səfər çərçivəsində Birinci vitse-prezident və ailə üzvləri Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılış mərasimində iştirak edib və həyata keçirilmiş bərpa işləri ilə tanış olublar.

Vatikanın Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskuale Yakobone, Mədəniyyət və Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının sabiq prezidenti kardinal Canfranko Ravazi və Roma şəhərinin VIII bələdiyyəsinin prezidenti Amedeo Çakkeri Birinci vitse-prezident Mehriban Əliyevanı qarşıladılar.

Vatikanın Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskuale Yakobone Birinci vitse-prezident Mehriban Əliyevanın uzun illərdir başçılıq etdiyi komissiya ilə çox yaxından və səmərəli əməkdaşlıq etdiyini bildirib. Paskuale Yakobone Kommodilla katakombalarının açılışında iştirakına görə Birinci vitse-prezident Mehriban Əliyevaya dərin təşəkkürünü ifadə edib.

Bu layihə həyata keçirilməzdən əvvəl Azərbaycan tərəfi ilə iki digər mühüm layihənin icra olunduğunu vurğulayan Komissiyanın prezidenti Müqəddəs Marçelino və Pietro, həmçinin Müqəddəs Sebastian katakombalarının bərpasına Heydər Əliyev Fondunun səyləri nəticəsində nail olduqlarını vurğulayıb.

"Heydər Əliyev Fondunun dəstəyi ilə bir tərəfdən mürəkkəb, lakin digər tərəfdən bizi çox ilhamlandıran, böyük enerji verən bərpa işlərini birgə həyata keçirdik", - deyə o əlavə edib.

Paskuale Yakobone layihə çərçivəsində Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının üzvlərinin 2024-cü ilin iyulunda Azərbaycana yaddaqalan səfərini xatırladıb. O, bu işin yüksək səviyyədə başa çatdırılmasına görə Heydər Əliyev Fonduna dərin təşəkkürünü bildirib.

Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının sabiq prezidenti kardinal Canfranko Ravazi ölkəmizə səmimi və dərin dostluq telləri ilə bağlı olduğunu vurğulayaraq, Azərbaycana üç dəfə səfər etdiyini diqqətə çatdırıb, səfərlər çərçivəsində Prezident İlham Əliyev tərəfindən qəbul olunduğunu və məhz onun qərarı ilə Azərbaycan dövlətinin ən yüksək mükafatlarından birinə - "Dostluq" ordeninə layiq görüldüyünü qeyd edib. Canfranko Ravazi Birinci vitse-prezident Mehriban Əliyeva ilə səmimi dostluq və qarşılıqlı hörmət münasibətlərindən söz açaraq deyib: "Bu münasibətlər uzun illər ərzində formalaşıb, şəxsən mənə böyük və dərin təəssürat bağışlayıb. Təşkil etdiyimiz səfərlərdə Birinci vitse-prezidentin arxeologiya sahəsinə xüsusi bağlılığının şahidi olduq. Çünki səfərlər çərçivəsində bərpa olunan yerləri şəxsən özü ziyarət edirdi. Əlbəttə ki, onun dəstəyi sayəsində, Heydər Əliyev Fondunun göstərdiyi yardım nəticəsində bu gün katakombaların açılışında əməkdaşlığımızın yeni bir səhifəsini yazırıq. Görülmüş işlərə görə Birinci vitse-prezidentə dərin təşəkkürümü bildirirəm".




O, hər iki tərəfin bu sahədə ahəngdarlıq nümayiş etdirdiyini qeyd edib.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Müqəddəs Taxt-Taca növbəti səfərindən böyük şərəf hissi duyduğunu bildirib. Heydər Əliyev Fondunun prezidenti bunun son 14 ildə Vatikana altıncı səfəri olduğunu diqqətə çatdırıb.

"Mən çox şadam ki, biz bu illər ərzində çox gözəl əməkdaşlıq yaratmışıq. Buraya hər gəlişimizdə bizim dostlarımızın sayı artır", - deyə Birinci vitse-prezident qeyd edib.

Azərbaycanın əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələrinin birgə sülh, qarşılıqlı hörmət, tolerantlıq və harmoniya şəraitində yaşayan bir məkan olduğunu vurğulayan Mehriban Əliyeva deyib: "Bu gün bu prinsiplər həm bizim dövlət siyasətimizin əsasıdır, həm də həyat tərzimizdir. Əminəm ki, bugünkü mürəkkəb dünyada dövlətlərimiz arasında genişlənən əməkdaşlıq, dostluq əlaqələri bir nümunədir".

Birinci vitse-prezident həm Vatikanda, həm də Azərbaycanda bu layihələrdə əməyi olan şəxslərə dərin minnətdarlığını ifadə edərək bildirib: "Heydər Əliyev Fondu olaraq gələcəkdə əməkdaşlığımızı davam etdirməyə maraqlıyıq və hazırıq. İnanıram ki, bu fəaliyyət davamlı olacaq. Sonda katolik dünyası üçün böyük mənəvi dəyərlər daşıyan "Yubiley İli" münasibətilə hər birinizi təbrik edirəm. Fürsətdən istifadə edərək, sizi Azərbaycana səfərə dəvət edirəm".



Roma şəhərinin VIII bələdiyyəsinin prezidenti Amedeo Çakkeri Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında çalışan insanlara burada görülmüş işlərə görə təşəkkürünü bildirib. Bu layihə üzərində bir neçə il çalışdığını deyən bələdiyyə prezidenti Azərbaycan səfirliyi ilə sıx əməkdaşlıq etdiklərini diqqətə çatdırıb.

Sonra Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Müqəddəs Kommodilla katakombalarının açılışı olub.

Qeyd edilib ki, Heydər Əliyev Fondunun və Azərbaycandakı dini icmaların təmsilçilərinin Vatikana səfəri zamanı 2021-ci il martın 4-də Fond və Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyası arasında Kommodilla katakombalarının bərpası ilə bağlı müqavilə imzalanıb. Bildirilib ki, katakombaların yerləşdiyi məkan XVIII əsrdə aşkar olunub, ilkin tədqiqatlar 1900-cü ildən başlanıb. Erkən xristianlıq dövrünə aid ilk artefaktların mövcud olduğu katakomba Felisio və Adauktus adlı xristian əzabkeşlərinin dəfn olunduğu məkan kimi də tanınır və orta əsrlərdə möminlərin ziyarətgahı olub. Katakombada ilk xristian əzabkeşi San Stefano, İsa peyğəmbərin həvari Pietroya Cənnətin açarlarını təqdim etməsi və digər mövzularda freskalar müstəsna dini və tarixi əhəmiyyət daşıyır. Ötən əsrin 50-ci illərində bu ərazidə yaşayış binalarının tikintisi katakombanın statikasına mənfi təsir göstərib. Heydər Əliyev Fondunun göstərdiyi dəstək katakombanın böyük arxeoloji dəyərə malik olan bu hissəsini uçmaq təhlükəsindən qoruyub.

Bərpa prosesi zamanı işçilərin sağlamlığı üçün təhlükəsiz, ekoloji cəhətdən təmiz materialların istifadəsi də daxil olmaqla, müasir metod və texnologiyalar tətbiq edilib. Məhsulların möhkəmləndirilməsi prosesində nanotexnologiyadan və boyalı səthlərin emalı üçün lazer texnologiyasından istifadə olunub. Bütün materiallar yeraltı mühitlə yüksək uyğunluq nəzərə alınmaqla seçilib.

Qeyd edək ki, Heydər Əliyev Fondu Vatikanda genişmiqyaslı bərpa işlərini fəal şəkildə maliyyələşdirməklə dünya mədəni irsinin qorunmasına mühüm töhfə verir. Bu təşəbbüslər Müqəddəs Taxt-Tac tərəfindən səmərəli əməkdaşlıq və mədəniyyətlərarası əlaqələrin möhkəmləndirilməsi nümunəsi kimi yüksək qiymətləndirilir.

# Birinci vitse-prezident Mehriban Əliyeva Vatikanda Müqəddəs Pavel Bazilikasının baş keşişi ilə görüşüb





**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Müqəddəs Taxt-Taca – Vatikana rəsmi səfəri çərçivəsində oktyabrın 16-da Müqəddəs Pavel Bazilikasının baş keşişi, kardinal Ceyms Harvi ilə görüşüb.**

Müqəddəs Taxt-Taca son 14 il ərzində altıncı dəfə səfər etdiyini xatırladan Birinci vitse-prezident Mehriban Əliyeva bu illər ərzində dövlətlərarası əlaqələrin çox möhkəm təməl, qarşılıqlı hörmət və dostluq əsasında inkişaf etdiyini bildirib. Birinci vitse-prezident bu illər ərzində bir sıra mühüm layihələrin bərpasında Heydər Əliyev Fondunun dəstəyini diqqətə çatdıraraq, gələcəkdə də bu fəaliyyəti davam etdirəcəklərini vurğulayıb.

Bu gün Müqəddəs Kommodilla katakombalarının açılışında birgə iştirak etdiklərini deyən Mehriban Əliyeva bunun Heydər Əliyev Fondunun böyük layihələrindən biri olduğunu diqqətə çatdıraraq deyib: “Roma elə şəhərdir ki, həm yerin altı, həm də üstü demək olar səma altında açıq muzeydir. Bizim fəaliyyətimiz elə qurulub ki, bəzi layihələr sona çatan kimi yeni layihələrə start veririk. Bu, çox davamlı əməkdaşlıqdır və mən onu yüksək dəyərləndirirəm”.



Baş keşiş kardinal Ceyms Harvi bu cür mühüm layihələri həyata keçirdiklərinə və görülmüş işlərə görə Müqəddəs Taxt-Tac adından Azərbaycan dövlətinə və Heydər Əliyev Fonduna təşəkkürünü bildirib.

Kardinal qeyd edib ki, bütün katolik və xristian icmalarının əsaslarının qoyulmasında Müqəddəs Pavel çox böyük rol oynayıb. O, Müqəddəs Pavel Bazilikasında indi və gələcəkdə silsilə tədbirlərin keçiriləcəyini vurğulayaraq deyib: “Gördüyünüz bu nəcib işlər Sizin ölkənizi daha yaxından tanımaq üçün yaxşı fürsətdir”.

Heydər Əliyev Fondunun Müqəddəs Pavel Bazilikasının örtüklərinin bərpasında iştirak etdiyini vurğulayan baş keşiş bu işin başa çatdırılmasında xeyli zəhmət çəkildiyini söyləyib. O, Romaya gələn zəvvarların sayını nəzərə alaraq, həmin bazilikada təhlükəsizliyin təmin edilməsi üçün Azərbaycanın dəstəyi ilə görülmüş işlərin müstəsna əhəmiyyətə malik olduğunu bildirib.

Sonra Müqəddəs Pavel Bazilikasının baş keşişi, kardinal Ceyms Harviyə xatirə hədiyyəsi təqdim olunub.

## Azərbaycanın Birinci vitse-prezidenti Vatikanda Müqəddəs Pavel Bazilikasında həyata keçirilən bərpa işləri ilə tanış olub







**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 16-da Vatikanda Müqəddəs Pavel Bazilikasının baş keşişi kardinal Ceyms Harvinin müşayiəti ilə bazilikada Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən bərpa və tikinti işləri ilə tanış olub.**

Keşiş Don Lodoviko Turrisi və arxitektor Marko Çiriaki Birinci vitse-prezident Mehriban Əliyevaya kilsə və burada görülən işlər barədə məlumat veriblər.

Diqqətə çatdırılıb ki, Müqəddəs Pavel Bazilikası Müqəddəs Pyotr Bazilikasından sonra Vatikanın ikinci ən böyük kilsəsidir və 1980-ci ildə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Bildirilib ki, Müqəddəs Həvari Pavelin dəfn olunduğu yer üzərində inşa edilən bu kilsə Romada yerləşən dörd əsas papal bazilikadan biridir, Roma Katolik Kilsəsinin ən müqəddəs və tarixi məkanlarından sayılır. Bazilikanın daxili hissəsində I Pyotrdan başlayaraq indiyədək bütün papaların mozaika portretləri yerləşdirilib. Vatikanın gur səs-küylü mühitindən uzaqda yerləşdiyi üçün bazilika sakit və ruhani atmosferi ilə seçilir.

Xatırladaq ki, 2024-cü il sentyabrın 11-də 25 ildən bir təşkil olunan və Müqəddəs Taxt-Tac tərəfindən qeyd edilən “Yubiley İli” çərçivəsində Vatikan Şəhər Dövlətinin Qubernatorluğu ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasının mərmər örtüklərinin və dekorativ elementlərinin təhlükəsizliyinin təmin olunmasını və təmirini nəzərdə tutan sənəd imzalanıb. Sənədi Qubernatorluğun sabiq prezidenti kardinal Fernando Vergez Alzaqa və Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov imzalayıblar.

## Birinci vitse-prezident Mehriban Əliyeva Avropanın ən böyük pediatrik “Bambino Gesu” xəstəxanasında olub



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 16-da Avropanın ən böyük pediatrik “Bambino Gesu” xəstəxanasında olub.**

Birinci vitse-prezident burada molekulyar-genetika və klinik diaqnostika laboratoriyaları ilə tanış olub.

“Bambino Gesu” pediatrik xəstəxanasının prezidenti Titsiano Onesti Birinci vitse-prezident Mehriban Əliyevaya laboratoriyalar haqqında məlumat verib.

Bildirilib ki, 1869-cu ildə Salviati ailəsi tərəfindən əsası qoyulmuş, Roma şəhərində yerləşən, Müqəddəs Taxt-Tacın ekstraterritorial ərazisi hesab olunan “Bambino Gesu” pediatrik xəstəxanası ilkin olaraq özəl xəstəxana kimi yaradılıb. Bu tibb müəssisəsi uşaq müalicəsi üçün nəzərdə tutulmuş ilk strukturlar arasındadır.

Diqqətə çatdırılıb ki, “Bambino Gesu” pediatrik xəstəxanası İtaliya dövləti tərəfindən maliyyələşdirilən və dövlət xəstəxanası kimi fəaliyyət göstərən qurum olmasına baxmayaraq, Müqəddəs Taxt-Tacın bir müəssisəsidir və birbaşa ona hesabat verir, onun rəhbərliyinə tabedir. 2006-cı ildə xəstəxana “Joint Commission International” tərəfindən akademik xəstəxana kimi akkreditə olunub və hazırda Avropanın ən böyük uşaq xəstəxanası və tədqiqat mərkəzidir.

Qeyd olunub ki, San Paolo filialı xəstəxananın genetik və hüceyrə tədqiqatları üçün ən müasir texnologiyalarla təchiz edilmiş böyük tədqiqat laboratoriyalarının, o cümlədən qabaqcıl müalicə üsullarının tətbiq olunduğu əczaçılıq emalatxanasının mərkəzidir. Burada klinik diaqnozların nəticələri bir daha təsdiqlənmək üçün genetik analizlərlə qarşılaşdırılır, habelə metabolik analizlər sayəsində pasiyentlərə fərdi tibbi yanaşma tətbiq olunur.

Bu il sentyabrın 10-da Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Müqəddəs Taxt-Tacın “Bambino Gesu” pediatrik xəstəxanası arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

“Bambino Gesu” xəstəxanası ilə qurulan əməkdaşlıq nadir xəstəliklər, molekulyar genetika, klinik diaqnostika və digər müvafiq sahələrin Azərbaycanda inkişafına mühüm töhfə verəcək. Bu tərəfdaşlıq azərbaycanlı alim və tədqiqatçılara qabaqcıl elmi yanaşmalara yiyələnmək və müasir texnologiyalarla təchiz olunmuş laboratoriyalarda araşdırmalar aparmaq imkanı yaradacaq. Nəticədə ölkəmizdə bu sahələrdə müstəqil elmi tədqiqatlar aparmağa qadir kadr potensialı formalaşacaq, beynəlxalq standartlara cavab verən yeni laboratoriyaların təsis olunması üçün şərait yaranacaq. Həmçinin əməkdaşlıq çərçivəsində səhiyyə mütəxəssislərimizin təlim və mübadilə proqramlarında iştirakı nəzərdə tutulub.

*AZƏRTAC*

# Milli Məclisdə ICAPP heyəti ilə görüş



**Dünən Milli Məclisin sədri Sahibə Qafarova Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının Daimi Komitəsinin sədri Çunq Eu-yonqun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Azərbaycanın Asiya ölkələri ilə siyasi əlaqələrin inkişafına xüsusi önəm verdiyini deyən Sahibə Qafarova ICAPP-ın regionda çoxtərəfliliyin, həmrəyliyin mühüm mexanizmi kimi çıxış etdiyini, Asiyada sülhü, təhlükəsizliyi və əməkdaşlığı təşviq edən mühüm platforma olduğunu bildirib.

Söhbət zamanı ulu öndər Heydər Əliyevin qurucusu, Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının ölkəmizin hakim partiyası kimi rolu, fəal beynəlxalq əlaqələri haqqında məlumat verilib. YAP-ın Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransında fəal və uğurla təmsil olunmasından məmnunluq ifadə olunaraq, tərəflər arasında əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlərin əhəmiyyəti qeyd edilib.

ICAPP Daimi Komitəsinin sədri Çunq Eu-yonq təmsil etdiyi təşkilatın Azərbaycanla münasibətlərə xüsusi önəm verdiyini deyib və ölkəmizin hakim partiyası ilə mövcud əlaqələrin inkişafını qeyd edib.

Söhbətdə Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan və hazırda Azərbaycan Milli Məclisinin sədrlik etdiyi Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə ICAPP arasında əməkdaşlığın inkişaf perspektivləri, Asiya regionunda parlamentlərarası əlaqələrin genişləndirilməsi, qarşılıqlı anlayışın dərinləşdirilməsi və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Azərbaycan Qoşulmama Hərəkatının Kampala Nazirlər İclasında



**Oktyabrın 15-16-da Uqandanın paytaxtı Kampala şəhərində Qoşulmama Hərəkatının (QH) 19-cu Nazirlər İclası keçirilib.**

Kampala Nazirlər İclası çərçivəsində beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi, davamlı inkişafın təşviqi, Hərəkatın institusional potensialının artırılması, eləcə də Yaxın Şərqdə vəziyyət və digər aktual gündəm məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

İclasda Azərbaycan xarici işlər nazirinin müavini Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub.

Samir Şərifov toplantının açılış seqmentində çıxış edərək ölkəmizin sədrlik dövründə həyata keçirdiyi təşəbbüslər, o cümlədən Hərəkatın institusional inkişafına verdiyi töhfələrə toxunub, habelə üzv ölkələr arasında həmrəyliyin və birliyin gücləndirilməsinin əhəmiyyətini vurğulayıb. Nazir müavini Azərbaycan-Ermənistan normallaşma gündəliyi üzrə son irəliləyişlər və işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri barədə iştirakçılara məlumat verib.

Hərəkatın keçmiş Sədri və hazırkı Troyka üzvü qismində ölkəmiz, həmçinin QH-nin Fələstin üzrə Nazirlər Komitəsinin iclasında təmsil olunub.

İclas çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirilib, Azərbaycan və Uqanda hökumətləri arasında diplomatik və xidməti pasport sahibləri, Azərbaycan və Somali hökumətləri arasında diplomatik pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında sazişlər imzalanıb.

***XQ***

*Xuntaçıların məhkəməsi*

# Ermənistanın vurduğu iqtisadi və ekoloji ziyan sübuta yetirilir

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə, müharibə və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 16-da davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında zərərçəkmiş İlham Məmmədov yenidən məhkəməyə çağırılıb. O, təqsirləndirilən şəxslər tərəfindən ünvanlanmış sualları cavablandırıb.

L.Mnatsakanyanla yanaşı, David Babayanın, David Manukyanın da suallarını cavablandıran İ.Məmmədov bildirib ki, Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən əsir götürülərkən ona verilən işgəncələr barədə bu il oktyabrın 2-də keçirilmiş məhkəmə iclasında deyib ki, 2002-ci il mayın 10-da hərbi xidmətdə olarkən posta gedən zaman yolu azıb və Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən əsir götürülüb, işgəncəyə məruz qalıb. L.Mnatsakanyan növbəti məhkəmə iclasında həmin vaxt baş verənlər barədə ətraflı danışacağını söyləyib.

Dövlət ittihamçısı Fuad Musayev diqqətə çatdırıb ki, L.Mnatsakanyan bir tərəfdən İ.Məmmədovu görmədiyini deyir. Digər tərəfdən də bu barədə ətraflı danışacağını söyləyir. Əgər İ.Məmmədovu tanımırsa, o zaman haradan bilir ki, həmin vaxt orada nə baş verib? L.Mnatsakanyan isə qeyd edib ki, o, İ.Məmmədovu tanımır, həmin vaxt orada baş verən hadisələrlə bağlı isə danışacaq.

Sonra iqtisadiyyata vurulmuş zərər və iqtisadi itkilərlə bağlı sənəd elan edilib. Qeyd olunub ki, Ermənistanın hərbi təcavüzü nəticəsində müharibənin birbaşa təsirinə və işğala məruz qalmış Azərbaycan ərazilərində ölkənin təsərrüfat subyektlərinin iqtisadi fəaliyyəti tamamilə dayanıb, bölgənin iqtisadi resursları Ermənistan tərəfindən qanunsuz olaraq istismar edilib (o cümlədən təbii resurslar üzərində istismar hüquqlarının xarici şirkətlərə satılması yolu ilə), Azərbaycan iqtisadiyyatı - əhali, müəssisələr və dövlət böyük zərər və itkilərlə üzləşib.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və ərazilərin işğal edilməsi nəticəsində 30 ilə yaxın müddətdə həmin torpaqlarda yerləşən mineral xammal ehtiyatları Ermənistan tərəfindən qanunsuz istismar edilib, böyük məbləğdə qeyri-qanuni gəlir əldə olunub, Azərbaycana böyük iqtisadi zərər vurulub. İşğal dövründə filiz və qeyri-filiz yataqlarında qanunsuz istismar işləri aparılıb, həmçinin bütün növ yeraltı su ehtiyatlarından qanunsuz istifadə edilib.

Sənədlərdə göstərilib ki, Ermənistanın işğal etdiyi ərazilərdə Azərbaycana məxsus su elektrik stansiyaları işğalçı qüvvələr tərəfindən qeyri-qanuni şəkildə, heç bir ekoloji qaydaya əməl olunmadan istismar edilməklə elektrik enerjisi istehsal olunub. Bununla yanaşı, tikilməkdə olan elektrik stansiyalarının tamamlanması mümkün olmayıb. Nəticədə Azərbaycan hidroenerji istehsalı sahəsində böyük iqtisadi itkilərə məruz qalıb.

Bundan başqa, Ermənistanın hərbi təcavüzü nəticəsində işğal edilmiş Azərbaycan ərazilərində əhalinin kənd təsərrüfatı ilə məşğul olması mümkün olmayıb, bu səbəbdən həm əhali, həm də dövlət böyük məbləğdə iqtisadi itkilərlə üzləşib.

"Minalar və partlamamış sursatlarla çirkləndirmənin vurduğu zərər" başlıqlı sənəddə qeyd olunub ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və ərazilərinin işğalı zamanı işğal olunmuş torpaqlarda yüz minlərlə mina basdırılıb, geniş ərazilər partlamamış hərbi sursatlar ilə çirkləndirilib.

Ətraf mühitə vurulmuş zərərlə bağlı sənəddə bildirilib ki, Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində meşələr, qoruqlar, qədim ağaclar məhv edilib, Azərbaycanın fauna və florasına, su hövzələrinə böyük zərər vurulub.

Sonra cinayətkar dəstələr barədə sənədlər tədqiq edilib. Materiallarda göstərilir ki, cinayətkar dəstə olan "Yerkrapa" ("Könüllülər") 1990-cı illərdə yaradılıb və Ermənistanın ilk qanunsuz silahlı dəstələrindən biridir. Həmin dəstə 1993-cü ildə Ermənistanın müdafiə naziri Vazgen Sarkisyan tərəfindən yaradılıb. Bu dəstə Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması zamanı döyüşlərdə fəal iştirak edib.

Bundan başqa, məhkəmə prosesində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın suveren ərazilərinin işğalında iştirak etmiş "Xaçlılar", "Malatiya könüllü", "Muş", "Arabo", "Sasna Tsrer", "Sasuntsi Davit", "Müstəqillik ordusunun könüllü milis hərbi-siyasi birliyi" və digər cinayətkar dəstələr barədə məlumatlar açıqlanıb.

Məhkəmə iclasında bir sıra internet resurslarında, o cümlədən sosial şəbəkələrdə yer alan informasiyalar əsasında sənədlər də tədqiq olunub. Eyni zamanda, tədqiq olunan sənədlərə aid fotolar nümayiş etdirilib.

Məhkəmə prosesi oktyabrın 17-də davam etdiriləcək.

***XQ***

# Azərbaycanda ilk robotik cərrahiyyə əməliyyatı

**Oktyabrın 16-da "Texnologiya sərhəd tanımır: sağlamlıq naminə birləşirik" devizi altında keçirilən "Robotik Cərrahiyyə Körpüsü-2025" beynəlxalq tədbiri çərçivəsində Azərbaycan səhiyyəsi tarixində misilsiz innovativ hadisə yaşanıb. Belə ki, ilk dəfə olaraq Azərbaycan və Çin cərrahları bir xəstə üzərində məsafədən və eyni anda robotik cərrahiyyə əməliyyatı həyata keçiriblər.**



Əməliyyat Azərbaycan Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzində real xəstə üzərində aparılıb. Əməliyyat Bakıda icra edilib, lakin eyni vaxtda həm Azərbaycan, həm də Çin cərrahi komandaları əməliyyata qoşularaq beynəlxalq bir texnoloji körpü vasitəsilə birgə müdaxilə ediblər.

Əməliyyatdan əvvəl keçirilən tədbirdə çıxış edən Milli Onkologiya Mərkəzinin onkoginekologiya şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Şəmistan Alıyev bildirib ki, Onkologiya Mərkəzində bir araya gəlməyimiz tibb tariximiz üçün çox tarixi və əlamətdar hadisədir. Mərkəzin baş direktoru akademik Cəmil Əliyevin rəhbərliyi altında bu gün dünyanın qabaqcıl tibb mərkəzləri ilə beynəlxalq səviyyədə əməkdaşlıqlar qurulur.



Milli Onkologiya Mərkəzinin Baş-boyun şişləri şöbəsinin aparıcı cərrah-onkoloqu, Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı Filialının (Seçenov Universiteti) rektoru professor Əziz Əliyev Milli Onkologiya Mərkəzinin fəaliyyətindən bəhs edən təqdimatla çıxış edib.

Çinin "Harbin Sagebot Intelligent Medical Equipment" şirkətinin vitse-prezidenti və direktorlar şurasının üzvü Pinqçuan Vu təmsil etdiyi şirkətin əsasən robotlar və müasir texnologiya sistemləri üzərində fəaliyyətə başlayandan bir neçə il sonra qlobal laporoskopiya üzrə yüksək nailiyyətlər əldə etməyə başladığını diqqətə çatdırıb.

Çunçin Tibb Universitetinin Birinci Klinik Xəstəxanasının Doğum və ginekologiya şöbəsinin müdiri, Da Vinçi cərrahiyyə robotu üzrə Çin Ginekoloji Klinik Cərrahiyyə Tədris və Nümayiş Mərkəzinin rəhbəri, tibb elmləri doktoru Tan Czünyin müasir robotik cərrahiyyə sistemlərinin texniki imkanları və Çində tətbiqindən bəhs edən təqdimatla çıxış edib.

Daha sonra cərrahi əməliyyat başlayıb. Azərbaycan tərəfindən əməliyyata Milli Onkologiya Mərkəzinin Onkoginekologiya şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Şəmistan Alıyev, Çin tərəfindən isə Harbin Tibb Universitetinin Onkologiya Xəstəxanasının professoru Liuyan Go rəhbərlik edib. Əməliyyat xüsusi robotik cərrahiyyə sistemi və yüksəksürətli kommunikasiya infrastrukturu vasitəsilə həyata keçirilib. Həmin sistem iki ölkədən olan mütəxəssislərə real vaxt rejimində əlaqə saxlayaraq, bir xəstə üzərində sinxronlaşdırılmış şəkildə robotik əməliyyat aparmağa imkan verib.

Milli Onkologiya Mərkəzinin baş həkimi, Səhiyyə Nazirliyinin baş onkoloqu Azad Kərimli jurnalistlərə açıqlamasında 7 min kilometr məsafədən birgə icra olunan əməliyyatın təkcə ölkə səhiyyəsi üçün deyil, bütövlükdə region üçün ilk və tarixi bir hadisə olduğunu diqqətə çatdırıb.

Qeyd edək ki, tədbirin təşkilatçıları Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzi, "Harbin Sagebot Intelligent Medical Equipment Co. Ltd." (Çin Xalq Respublikası) və Qazaxıstanın "Medical Technologies Ltd." MMC şirkətidir.

***XQ***

# Naxçıvanda yeni Hemodializ Mərkəzi

**Muxtar respublikada xroniki böyrək çatışmazlığından əziyyət çəkən insanlara göstərilən tibbi xidmətin vahid mərkəzdən və müasir səviyyədə təşkili məqsədilə Naxçıvan Muxtar Respublikası Hemodializ Mərkəzi yaradılıb.**



Dünən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli yeni mərkəzdə yaradılan şəraitlə tanış olub.

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Samiq Sadıxov məlumat verib ki, bundan əvvəl hemodializ xidməti Muxtar Respublika Xəstəxanası, Sağlamlıq Mərkəzi və onun şöbələrində fəaliyyət göstərirdi. Bu da xidmətin hamı üçün əlçatanlığına və keyfiyyətinə mənfi təsir edirdi. Yeni yaradılan mərkəz dializ müalicələrinin vahid mərkəzdən idarə olunmasını və xidmətin operativ təşkilinə imkan verir. Növbəti mərhələlərdə muxtar respublikanın digər bölgələrində də vahid mərkəzə tabe olan hemodializ mərkəzləri istifadəyə veriləcək.

Yeni binada uşaq dializ otağı, 31 çarpayılıq müalicə zalı, intensiv terapiya şöbəsi, reanimasiya, həkim, dərman, laboratoriya və digər otaqlar fəaliyyət göstərir. Mərkəz xidmətin müasir standartlara uyğun təşkili məqsədilə 53 ən son texnologiyaya malik hemodializ aparatı, 68 HD monitorlu, 3 mühərrikli, Wi-Fi və qulaqlıq girişli hemodializ kreslosu ilə təchiz edilib. Bundan başqa, Şərur, Kəngərli, Culfa və Ordubad rayonlarında da müvafiq səhiyyə müəssisələrinə yeni alınan hemodializ cihazı və kresloları verilib.

Fuad Nəcəfli həmin gün Muxtar Respublika Xəstəxanasında şəhid ailələrinin və qazilərin sosial və psixoloji rifahının gücləndirilməsi, onların psixoloji reabilitasiyasına sistemli dəstək göstərilməsi məqsədilə yaradılmış Psixoloji Sağlamlıq Mərkəzi ilə tanış olub.

***Səbuhi HƏSƏNOV***
***XQ***

# Yaxın Şərq Sülh Sammiti: Dəyişən dünya və sabit Azərbaycan

## *Prezident İlham Əliyev obrazı və yeni liderlik*



**Prezident İlham Əliyevin Misirin Şarm əl-Şeyx şəhərində keçirilmiş Yaxın Şərq Sülh Sammitinə dəvət olunması və mühüm toplantıda iştirakı Azərbaycan amilini ön plana çıxarır. Bu barədə ötən saylarımızda da söz açmışıq. Doğrudur, Ermənistanın baş naziri Nikol Paşinyan da sammitin iştirakçıları sırasında idi və bu, Bakı ilə sülhə gəlməkdən başqa yolu qalmayan İrəvana edilmiş jestdir. O jest ki, daha çox Ermənistanın daxili ictimai rəyində Paşinyanı yüksək tutmağa hesablanmışdı. Yəni demək olmaz ki, Nikolun mötəbər tədbirdə iştirakı onun nüfuz göstəricisi baxımından dəyərləndirilə bilən hadisədir.**

Bəli, Prezident İlham Əliyevin Yaxın Şərq üzrə sülh sammitinə dəvət olunması Azərbaycanın xarici siyasət strategiyasının müstəsna uğurudur. Bu iştirak o deməkdir ki, ölkəmiz kifayət qədər mürəkkəb sayılan siyasi coğrafiyada önəmli faktordur. Elə bir faktordur ki, regionla bağlı qərarların qəbulunda iştirakçılıq payına malikdir. Yəni sammitə qatılma diplomatik forumda iştirak diapazonunu aşan hadisədir. Bu hadisə, eyni zamanda, Azərbaycanın beynəlxalq siyasətdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunun da sübutudur. Çünki...

Axı gözlərimiz önündə dünyanın sürətlə dəyişdiyini görürük. Görürük ki, beynəlxalq aləm nəinki tədricən, hətta çox böyük sürətlə əvvəlki siyasi trend olan qloballaşmadan imtina edir. Mühafizəkar baxışların dominant rol oynamağa başladığını da, liderlik anlayışına baxışların dəyişdiyini də həmçinin. Artıq ənənəvi ABŞ–Rusiya rəqabəti fonunda hər iki ölkənin liderlərinin hakim rol oynaması kimi baxışlar əhəmiyyətini itirməkdədir.

Belə bir durumda dünyanın iti nəzərlərlə müşahidə etdiyi İlham Əliyev obrazı canlanmaqdadır. Bu obraz nəhəng güclər üçün etibarlı tərəfdaş və müttəfiqdir. Ən əsası isə o, regional balansın saxlanmasında məsuliyyət sahibidir, ayrıca qərarverici statusdadır. Mövcud status İlham Əliyev liderliyinə bərabərtərəfli siyasət aparmaq ampluası qazandırır. Fikrimizin təsdiqi üçün Yaxın Şərq Sülh Sammitində çəkilmiş fotolara diqqət yetirmək kifayətdir. Nəzərə alaq ki, bu fotolar heç də adi nəzakət nümayişi yox, beynəlxalq münasibətlərin yeni arxitekturasının formalaşdığının sübutlardır. O fotolar ki, özündə konkret mesaj təbiətini daşıyır və onlarda Prezident İlham Əliyevin əsl lider xarizması parlaqlığı ilə özünü göstərir. Bu, Azərbaycan adına misli görünməmiş uğurdur, tariximiz üçün böyük mirasdır.

Azərbaycan, Prezident İlham Əliyevin şəxsində dünyada yeni liderlik paradiqmasını müəyyənləşdirən ölkədir. Bu liderlik ənənəvi güc mərkəzlərinin öz aralarındakı mübarizə kontekstindən uzaq təbiətə malikdir və bu cəhət ona öz oyun qaydalarını müəyyənləşdirmək imkanı verir. Bu liderlik, həmçinin, digər konfrontasiyaların diskomfortundan sığorta təmayülünü daşımaq üstünlüyüdür. Nəticə etibarilə Azərbaycanı "Orta güc"ə çevirən üstünlük. Elə bir gücə ki, regional miqyaslı qərarların qəbulunda sərbəstdir. Həm də ona görə sərbəstdir ki, qəbul etdiyi qərarlar ümumi oyun qaydalarının axarına zidd deyil. Əksinə, praqmatizm və rasionallıq keyfiyyətləri həmin qaydaların özünün məzmununa müsbət təsir göstərir. Deməli, tam əminliklə deyə bilərik ki, cənab İlham Əliyevin rasional və praqmatik keyfiyyətləri, yüksək səriştəsi, habelə qətiyyəti və iradəsi özündə beynəlxalq axara təsiretmə immunitetini daşıyır. Dünya üzrə qərarların qəbulunda iştirakçılıq da elə bu immunitetin nəticəsindədir.

Azərbaycanın son onilliklərdə ən mühüm diplomatik nailiyyətləri əldə etməsində məntiq və qanunauyğunluq var. Qanunauyğun və məntiqli siyasət ölkəmizə regional proseslərə təsir potensiallı dayanıqlı dividend qazandırır, Azərbaycanın etibarlı neytral tərəfdaş mövqeyi isə onu məxsusi aktora çevirir. Bu aktorluq ölkəmizi Suriyanın bərpasında, habelə, enerji təchizatı və infrastruktur layihələrində, investisiya qoyuluşlarında mərkəzi fiqur kimi vurğulayır, uzunmüddətli nəticələr üçün təminat formalaşdırır. Əlbəttə, ən böyük təminat aktorluğun konstruktiv oyunçu imicidir və o Prezident İlham Əliyevə inam və etimaddan qaynaqlanır.

Dövlətimizin başçısına məhz böyük inam və etimadın nəticəsidir ki, Azərbaycan Yaxın Şərqin iki barışmaz tərəfi olan İsrail və Fələtsinlə balanslaşdırılmış xətti tutur. Ən başlıcası, rəsmi Bakının bu mövqeyi bir-biri ilə ədavətdə olan qütblər tərəfindən təbii qarşılanır. Məsələyə regional arxitektura nöqteyi-nəzərdən yanaşsaq, ölkəmiz sabitləşdirici rol oynayır. Digər tərəfdən, Azərbaycanı dünya üçün əhəmiyyətli mövqeyə qaldıran xüsusiyyətlərdən biri də balanslaşdırılmış siyasət xəttindəki məxsusi diferensiallıqdır. Məxsusililik həmin siyasi xəttin daxili strukturunu geniş götürür. Nəzərə alaq ki, ölkəmiz postsovet məkanında, ərəb dünyasında, Asiya siyasi coğrafiyasında və Amerikada eyni şəkildə qəbul edilən nadir ölkədir. Üstəlik, rəsmi Bakının siyasi yanaşmaları Rusiya tərəfindən də qəbul olunur. Baxmayaraq ki, mövcud sahədə müəyyən problemlərin olduğunu da demək mümkündür.

Azərbaycanın etibarlılıq imici ölkəmizə bir-birilərinə zidd qüvvələr arasında vasitəçilik statusu da qazandırmaqdadır. İndiyədək bununla əlaqədar bir sıra nümunələr var. Əlbəttə, etibarlı tərəfdaş imicini şərtləndirən mühüm xüsusiyyətlərdən biri də tərəfdaşlığın faydalı əməkdaşlıq kazusunu rəhbər tutmasıdır. Axı iqtisadi fayda konfrontasiyaların ənənəvi mahiyyətini heçə endirir. Daha doğrusu, qarşıduran qütblərin bir-birilərinə kəskin münasibətlərini yumşaldır. Qəti şəkildə onu da demək mümkündür ki, Prezident İlham Əliyevin şəxsində Azərbaycan dövlətinin səmərəli, qarşılıqlı əlaqə qurmaq bacarığı mürəkkəb, çoxqatlı regional balans sisteminə inteqrasiyanın mühüm indikatoru rolunda çıxış edir. Hesab edirik ki, məhz bu rolun özü də ötən onillikdəki ən böyük diplomatik uğurdur.

Sonda ümumiləşdirmə apararaq deyək ki, Azərbaycanın Misirin Şarm əl-Şeyx şəhərində keçirilmiş Yaxın Şərq Sülh Sammiti kimi mühüm toplantıdakı təmsilçiliyi ölkəmizin yeni dünya düzənindəki yeri və rolunun yüksək notlarla vurğulanmasıdır. Yazımızda bununla əlaqədar xarici aspektləri diqqətə çatdırdıq və Prezident İlham Əliyevin beynəlxalq siyasi proseslərə yüksək bələdçilik bacarığının ayrı-ayrı nüansları üzərində dayandıq. Ancaq bir məqam ayrıca qeyd edilməlidir. Xaricdəki uğurlar daxildəki nizamdan asılıdır. Əgər ikinci olmasa, birinci barədə danışmaq mümkünsüzdür. Bu günün Azərbaycanı isə daxili sabitliyin təmin olunduğu, vətəndaş rifahının qərarlaşdığı, daimi iqtisadi inkişafı hədəf seçən məmləkətdir. Başqa sözlə desək, ölkəmizin daxili vəziyyəti ilə xarici durumu bir-biri ilə harmoniyadadır. Bu harmoniyanın qorunması gələcək uğurlar üçün etibarlı təminatdır. Dəyişən dünyada müstəqil Azərbaycan Respublikasının əbədiyyət təminatı!

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Xankəndidə çağdaş şəhər modeli axtarışı

## *Qarabağda BMT bayrağı altında qlobal müzakirələr*

**Hər bir millətin gələcəyə baxışı onun təməlini qoyduğu yeni şəhərlərin memarlığında, ruhunda və funksionallığında aydın şəkildə təcəssüm edir. Şəhərlər milli iradənin, innovativ təfəkkürün və sivilizasiya iddialarının canlı salnaməsidir. Bu kontekstdə mürəkkəb tarixi keçmişi ilə yadda qalan Xankəndi şəhərinin bu gün qlobal şəhərsalma dialoqunun mərkəzinə çevrilməsi ölkəmizin strateji planlama gücünün və gələcəyə yönəlik aydın baxışının təntənəsidir.**

Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin və Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramının (UN-Habitat) birgə təşkilatçılığı ilə III Azərbaycan Milli Şəhərsalma Forumunun məhz Xankəndidə keçirilməsi quruculuğun və beynəlxalq əməkdaşlığın sülhün ən möhkəm təməli olduğunu bütün dünyaya bəyan edən tarixi andır.

Uzun illər beynəlxalq mediada və bəzi siyasi dairələrdə adı münaqişə və separatizmlə paralel çəkilən Xankəndi şəhəri indi BMT kimi qlobal qurumun rəsmi tərəfdaşlığı ilə beynəlxalq əhəmiyyətli tədbirə ev sahibliyi edir. Bu, hüquqi və siyasi reallığın praktiki təzahürüdür. Beynəlxalq münasibətlər sistemində bir tədbirin keçirildiyi məkan onun məzmunu qədər, bəzən isə ondan daha çox əhəmiyyət kəsb edir. Dünyanın 60-dan çox ölkəsinin nümayəndəsinin Xankəndiyə səfər etməsi həmin hökumətlərin bu şəhərin Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu qəbul etməsi deməkdir. Bu, BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan qətnamələrinin real həyatda, beynəlxalq iştirakla və konstruktiv gündəmlə həyata keçirilməsinin əyani sübutudur. Beləliklə, Bakı heç bir bəyanat vermədən, heç bir siyasi nota göndərmədən, sadəcə, bir şəhərsalma forumu təşkil etməklə suverenliyinə qarşı yönəlmiş bütün sual işarələrini beynəlxalq legitimlik möhürü ilə silmiş olur.

Forumun siyasi təsirinin ikinci mühüm qatı Azərbaycanın beynəlxalq gündəmi formalaşdırmaq və narrativi tamamilə dəyişdirmək bacarığının nümayişidir. Tədbirin mövzusu – "İqlimədavamlı və sağlam şəhərlər naminə: regional tərəfdaşlıqlar və innovativ həllər" – təsadüfən seçilməyib. Bakı Qarabağın bərpasını təkcə dağıdılmış ərazilərin yenidən tikilməsi kimi yox, XXI əsrin ən qlobal problemlərinə cavab verən gələcək laboratoriyası kimi təqdim edir. Azərbaycan "postmünaqişə bərpası" kimi dar çərçivədən çıxaraq, məsələni "iqlim dəyişikliyi", "yaşıl enerji", "ağıllı şəhər" və "davamlı inkişaf" kimi universal və pozitiv anlayışlar müstəvisinə keçirməklə bütün dünyaya mesaj verir: Biz keçmişin yaralarını sağaltmaqla yanaşı, bütün bəşəriyyət üçün gələcək modeli qururuq. Bu, həm də ölkənin beynəlxalq imicinin yenidən qurulması üçün son dərəcə uğurlu strategiyadır. Bu yanaşma Azərbaycanı regional münaqişənin tərəfi olmaqdan çıxarır, onu qlobal həllər axtarışında olan məsuliyyətli və innovativ beynəlxalq liderə çevirir. Xankəndi forumu yeni imicin beynəlxalq səhnədə təqdimat mərasimi rolunu oynayır.



Bu strategiyanın zirvəsi isə Xankəndi forumunun gələn il Bakıda keçiriləcək 13-cü Dünya Şəhər Forumuna (WUF13) hazırlıq mərhələsi kimi təqdim edilməsidir. Bu proses Azərbaycanın uzunmüddətli və bir-birini tamamlayan strateji diplomatik kampaniya apardığını göstərir. Gələn il Bakının dünyanın urbanistika paytaxtına çevriləcəyi bir vaxtda, bu məqamın məhz Xankəndidən başlaması dərin simvolik məna daşıyır. BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Anaklaudiya Rossbaxın Xankəndi forumunun 2026-cı ildə keçiriləcək WUF13 ilə birlikdə qlobal şəhər siyasətində dönüş nöqtəsinə çevriləcəyinə əminliyini ifadə etməsi strategiyanın beynəlxalq səviyyədə necə dəstək qazandığının göstəricisidir. Həmçinin gələn il Dayanıqlı İnkişaf Məqsədləri üzrə 11-ci məqsədin ("Davamlı şəhərlər və icmalar") Qlobal İcmalının da təqdim ediləcəyi bir vaxtda Azərbaycan həmin prosesin mərkəzində yer alaraq təcrübəsini bütün dünyaya uğur hekayəsi kimi təqdim etmək üçün unikal platforma qazanır.

Forumun beynəlxalq təsirinin digər aspekti onun Azərbaycanın son illərdə yürütdüyü aktiv və çoxşaxəli xarici siyasətin məntiqi davamı olmasıdır. Qoşulmama Hərəkatına sədrliyi, COP29 kimi dünyanın ən böyük iqlim sammitinə ev sahibliyi etməsi, indi də Dünya Şəhər Forumu kimi mötəbər tədbirin təşkilatçısı olması dövlətimizin qlobal proseslərə təsir etmək əzminə malik dövlətə çevrildiyini göstərir. Xankəndi forumu qlobal ambisiyaların Cənubi Qafqazdakı yeni reallıqlarla necə sintez edildiyini nümayiş etdirir. Bu, bəzi Qərb paytaxtlarından Azərbaycana qarşı yönələn təzyiq və təcrid cəhdlərinə verilən ən təsirli cavabdır. Bir tərəfdən bəzi dairələr Azərbaycana qarşı qərəzli qətnamələr qəbul etməyə çalışarkən, digər tərəfdən dünyanın 60-dan çox ölkəsi və BMT-nin özü Azərbaycanın suveren ərazisində onunla birlikdə gələcəyi qurmaq üçün bir araya gəlir. Bu mənzərə beynəlxalq münasibətlərdə kimin reallıqdan qopduğunu, kimin isə real siyasət yürütdüyünü açıq şəkildə ortaya qoyur. Xankəndi forumu Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirən və ona qarşı yönəlmiş hər hansı təzyiq cəhdini neytrallaşdıran güclü diplomatik qalxan rolunu oynayır.

Forumun Cənubi Qafqaz regionu üçün də mühüm mesajlar daşıdığını açıq-aşkar görmək olar. Azərbaycan Qarabağda apardığı irimiqyaslı bərpa və quruculuq işlərini beynəlxalq ictimaiyyətə nümayiş etdirməklə regionda yeni əməkdaşlıq modelinin mümkünlüyünü göstərir. Bu, dağıdıcılıq və revanşizm ritorikasına qarşı quruculuq və gələcəyə baxış fəlsəfəsinin qoyulmasıdır. Xankəndiyə dünyanın hər yerindən insanların gəlməsi, bu torpaqların artıq münaqişə ocağı yox, beynəlxalq əməkdaşlıq və dialoq məkanına çevrilə biləcəyinin isbatıdır.

Xankəndidə keçirilən III Milli Şəhərsalma Forumu texniki çərçivəsini aşaraq, Azərbaycanın müasir tarixində mühüm siyasi və diplomatik hadisəyə çevrilir. Bu tədbir Azərbaycanın suverenliyinin beynəlxalq səviyyədə təntənəli təsdiqi, postmünaqişə dövrü üçün pozitiv və qlobal əhəmiyyətli narrativin formalaşdırılması, ölkənin beynəlxalq aləmdə artan nüfuzunun və yumşaq gücünün nümayişi, ona qarşı yönələn təzyiqlərə verilən effektiv cavab və bütün region üçün yeni inkişaf modelinin təqdimatıdır. UN-Habitat kimi mötəbər qurumla əməkdaşlıq prosesə beynəlxalq legitmlik qazandırır və Azərbaycanın təşəbbüslərinin qlobal səviyyədə dəstəkləndiyini göstərir. Xankəndi forumu ilə dövlətimiz beynəlxalq münasibətlərin arxitekturasını, regionun gələcək nizamını və Azərbaycanın dünya xəritəsindəki yerini yenidən, daha güclü və daha parlaq şəkildə inşa edir. Bu, sözün əsl mənasında, diplomatiyanın şəhərsalmasıdır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

### *Ekspert rəyi*



**Kamran BAYRAMOV,**
**Milli Məclisin deputatı**

Xankəndidə keçirilən III Azərbaycan Milli Şəhərsalma Forumu ölkəmizin yeni inkişaf fəlsəfəsinin, iqlimədavamlı gələcəyə baxışının parlaq nümayişidir. Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən birgə təşkil olunan bu mötəbər tədbirə 60-dan çox ölkədən nümayəndənin qatılması ölkəmizin beynəlxalq səviyyədə artan nüfuzunu aydın göstərir. "İqlimədavamlı və sağlam şəhərlər naminə: regional tərəfdaşlıqlar və innovativ həllər" mövzusu bugünün reallığının diktəsidir. İqlim dəyişmələri artıq uzaq gələcəyin problemi olmaqdan çıxıb, bu gün şəhərlərdə yaşayan insanların həyat keyfiyyətinə birbaşa təsir göstərən qlobal çağırışdır. Xankəndi–Bakı formatında keçirilən bu forum gələn il Bakının ev sahibliyi edəcəyi 13-cü Dünya Şəhər Forumuna aparan yolun strateji mərhələsi kimi dəyərləndirilə bilər.

Azərbaycanın mövqeyi həm praktik, həm də simvolik baxımdan mühümdür. Praktik tərəfi ondadır ki, azad edilmiş Qarabağ torpaqlarında sıfırdan inşa olunan şəhərlər artıq müasir urban inkişaf modellərinin tətbiq olunduğu ərazilərə çevrilib. Simvolik tərəfi isə budur ki, uzun illər dağıntılara səhnə olmuş bu torpaqlar indi sülhün, bərpanın və innovasiyanın rəmzi kimi çıxış edir.

Xankəndidə keçirilən forum beynəlxalq əməkdaşlığın gücləndirilməsi, "yaşıl enerji" və dayanıqlı inkişaf prinsiplərinin müzakirəsi baxımından strateji əhəmiyyət daşıyır. UNEP və IOM ilə birgə həyata keçirilən 10 milyon dollarlıq Uyğunlaşma Fondu layihəsi çərçivəsində Xəzəryanı ərazilərdə iqlimədavamlı şəhər və icmaların yaradılmasına dəstək göstərilməsi Azərbaycanın regional liderliyə doğru irəliləyişini təsdiqləyir. Son 22 ildə həyata keçirilən strateji siyasət nəticəsində Azərbaycan siyasi, iqtisadi və mədəni mərkəzə çevrilib. Bu prosesin mərkəzində Prezident İlham Əliyevin iradəsi və tarazlaşdırılmış siyasət kursu dayanır. Ölkəmizin beynəlxalq aləmdə etibarlı tərəfdaş imici möhkəmlənib, şəhərsalma sahəsində qabaqcıl ideyaların müzakirə olunduğu platformalar yaradılıb.

# Bakının sülh və sabitlik strategiyası

## *Azərbaycanın müdafiə doktrinası gücə deyil, humanist dəyərlərə əsaslanır*

**XXI əsrin ikinci onilliyinin sonu dünyada “soyuq sülh” dövrünü xatırladır. Rəqəmlər göstərir ki, iqtisadi artımın mənbəyi kimi silah sənayesi yenidən legitimləşir. Qlobal sistem “təhlükəsizlik istehsalı”nı gəlir modelinə çevirib, bu isə beynəlxalq münasibətləri sıfır nəticəli oyuna sürükləyir.**



Əslində, problem təkcə hərbi büdcələrin həcmi deyil, təhlükəsizliyin konseptual təhrifidir. Güc balansına əsaslanan düşüncə insan mərkəzli təhlükəsizlik anlayışını sıxışdırır. Qlobal sistemdə dövlətlər dialoqun institusional mexanizmlərini zəiflədərək özlərini müdafiə etməyə çalışırlar.

Azərbaycanın sülh strategiyası hərbi güc balansına söykənən köhnə təhlükəsizlik anlayışının əksi kimi, beynəlxalq münasibətlərdə yeni fəlsəfi xətt formalaşdırır. Bu kurs qlobal miqyasda təhlükəsizliyin konseptual əsaslarını yenidən düşünməyi tələb edir. Azərbaycanın son illər yürütdüyü siyasət qarşılıqlı etimadın və diplomatik davranışın təhlükəsizlik müstəvisi yarada biləcəyini göstərir. Əslində, Bakı üçün sülh anlayışı müxtəlif maraqların uzlaşdırıldığı, qarşılıqlı asılılığın sülhün əsas şərtinə çevrildiyi siyasi mühitin yaradılması kimi dərk olunur.

İlham Əliyevin “ədalətli beynəlxalq nizam” ideyası bu doktrinanın intellektual təməlini təşkil edir. Burada söhbət real güc münasibətlərinin ədalətli paylanmasından, beynəlxalq qərarvermə mexanizmlərinin daha inklüziv olmasından gedir. Azərbaycanın diplomatik fəallığı – Qoşulmama Hərəkatına sədrlik, BMT tribunasından səslənən islahat çağırışları və regionda yeni dialoq modellərinin təşəbbüskarı kimi çıxış etməsi – onun təhlükəsizliyə yanaşmasının mahiyyətini açır: Bakı güc nümayiş etdirmir, gücün məntiqini dəyişməyə çalışır.

Postmünaqişə dövründə formalaşan bu yanaşma Azərbaycan diplomatiyasında yeni mərhələ açdı. Müharibədən sonra qazanılan hərbi üstünlük revanşist ritorikaya çevrilmədən sülh diplomatiyasına təkan verdi. Məhz bu amil geosiyasi praqmatizmlə normativ siyasətin sintezidir. Yəni Azərbaycan sülhü həm milli təhlükəsizliyin davamlılığı, həm də regional sabitliyin strateji infrastruktur elementi kimi görür. Burada “qələbədənsonra diplomatiya” ideyası münaqişə sonrası siyasi modelin reallığa çevrilməsi deməkdir. Bakı bu model vasitəsilə göstərdi ki, sülh yalnız psixoloji və iqtisadi qarşılıqlı etimadın bərpası ilə mümkündür.

Azərbaycanın enerji siyasəti də bu doktrinanın ayrılmaz hissəsidir. Əgər bir çox dövlətlər enerji potensialını geosiyasi təzyiq aləti kimi istifadə edirsə, Bakı onu sabitlik təminatına çevirib. Cənub Qaz Dəhlizi kimi layihələr, əslində, enerji diplomatiyasının sülh diplomatiyasına transformasiyasıdır. Azərbaycan bu yanaşma ilə sübut edir ki, resurslar sabitliyi stimullaşdırmaq üçün istifadə oluna bilər. Beləliklə, Azərbaycanın Sülh Doktrinası regional güc siyasətinin klassik modellərini təkzib edir. Bakı silahlanma yarışının iştirakçısı deyil, onun mənəvi və siyasi alternatividir. Rəsmi Bakının yanaşması postmilitarist düşüncəyə əsaslanan yeni liderlik arxitekturasıdır.

* * *

BMT-nin son hesabatında səslənən “sərhədləri deyil, insanı qoruyan təhlükəsizlik” çağırışı, əslində, Azərbaycanın beynəlxalq münasibətlərdə son illər formalaşdırdığı siyasi fəlsəfənin məğzi ilə səsləşir. Azərbaycan diplomatiyası artıq uzun müddətdir ki, təhlükəsizlik anlayışını insan rifahı, qarşılıqlı asılılıq və inklüziv inkişaf kontekstində şərh edir. Bakı modeli, mahiyyət etibarilə, BMT-nin “insan təhlükəsizliyi” ideyasının regional praktik təcəssümüdür. Azərbaycan üçün sülh ədalətli, qarşılıqlı maraqlara əsaslanan beynəlxalq sistemin qurulması prosesidir.

İlham Əliyevin çoxqütblü dünya reallığında ədalətli təmsilçilik və yeni diplomatik arxitektura barədə irəli sürdüyü ideyalar bu modelin siyasi konturlarını müəyyənləşdirir. O, faktiki olaraq qlobal sistemdəki asimmetriyaları – qərarverməd əki qeyri-bərabərliyi, böyük güclərin hegemon davranışını və BMT Təhlükəsizlik Şurasının struktur ədalətsizliyini – açıq şəkildə gündəmə gətirərək, sülhün ədalətsizlik üzərində qurula bilməyəcəyini göstərir. Azərbaycanın mövqeyi burada konstruktiv xarakter daşıyır: o, beynəlxalq sistemi balanslı təmsilçiliyə və yeni nizamlı əməkdaşlığa yönəltmək istəyir.

Bakı bu məqsədi yumşaq güc diplomatiyasının sistemli tətbiqi ilə reallaşdırır. Qoşulmama Hərəkatındakı fəallıq, xüsusilə COVID-19 dövründə qlobal həmrəyliyə dair təşəbbüslər Azərbaycanın beynəlxalq dialoq mədəniyyətinə verdiyi töhfəni nümayiş etdirdi. “Bakı Prosesi” isə multikulturalizmin və dinlərarası anlaşmanın siyasi diskursdan real diplomatik alətə çevrilməsi baxımından unikaldır.

BMT hesabatında qeyd olunan “təhlükəsizlik xərclərini azaltmaq və dayanıqlı inkişaf xərclərini artırmaq” çağırışı da Azərbaycanın praktikasında real qarşılığını tapır. Azərbaycanın xarici siyasət fəlsəfəsində təhlükəsizliklə inkişaf bir-birindən ayrılmır – çünki Bakı üçün dayanıqlı sülh yalnız sosial və iqtisadi rifah üzərində bərqərar ola bilər. Azərbaycanın humanitar diplomatiyası bu baxımdan “inkişaf vasitəsilə təhlükəsizlik” yanaşmasının reallığa çevrilmiş formasıdır. Xarici siyasətin sosial ölçüsü – təhsil, mədəniyyət, enerji sabitliyi və humanitar əməkdaşlıq sahələrində atılan addımlar – Azərbaycanın beynəlxalq səhnədə özünü sülh istehsal edən güc kimi təqdim etməsini təmin edir.

Beləliklə, Bakı modeli qlobal silahlanma meylinin və hərbi yarışın fonunda insan mərkəzli təhlükəsizlik arxitekturasının mümkünlüyünü sübut edən nadir nümunədir. O, dünyaya göstərir ki, XXI əsrin təhlükəsizliyi etimadın dərinliyi və əməkdaşlığın davamlılığı ilə ölçülməlidir.

* * *

Müasir beynəlxalq münasibətlər sistemində güc balansı uzun illər ərzində təhlükəsizlik arxitekturasının mərkəzi elementi hesab olunurdu. Ancaq XXI əsrin ikinci onilliyindən etibarən bu yanaşma legitimliyini itirməyə başlayıb. Hərbi büdcələrin rekord səviyyədə artması nə sülhü təmin edir, nə də qarşılıqlı etimadı gücləndirir. Əksinə, təhlükəsizlik artdıqca inamsızlıq dərinləşir, çünki silahlanma artıq siyasi təzyiq aləti kimi qavranılır. Belə reallıq fonunda Azərbaycanın diplomatik modeli həm regional, həm də qlobal səviyyədə fərqli istiqamət göstərir.

Azərbaycanın siyasəti postmilitarist təfəkkürə əsaslanır. Bakı hərbi qüdrəti milli təhlükəsizliyin təminat aləti kimi qoruyur, amma onun tətbiq məntiqini dəyişir: güc yalnız qoruma funksiyası daşıyır, təhdid funksiyası yox. Beləliklə, Azərbaycan regional siyasətdə “hərbi çəkindirmə” konsepsiyasını “diplomatik çəkindirmə” modeli ilə əvəzləyir.

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan revanşizm ritorikasına uymadı, əksinə, diplomatik realizm və praqmatik barış yanaşması ilə regionda yeni nizamın əsasını qoydu. Məhz bu kontekstdə Azərbaycanın təcrübəsi BMT-nin hesabatında səslənən “silahlanma sülh yaratmır” çağırışının praktik təsdiqinə çevrilir. Bakı,



əslində, bu çağırışın empirik sübutunu təqdim edir: sülh yaratmaq üçün etik və institusional iradə lazımdır. Qlobal güclər balans siyasətinə qapılıb bir-birini çəkindirməyə çalışdığı halda, Azərbaycan müasir beynəlxalq münasibətlərin dəyərlər mərhələsinə keçidi təklif edir.

Azərbaycanın Sülh Doktrinası bu baxımdan qlobal ideya daşıyıcısıdır. Onun əsas prinsipi aydındır: təhlükəsizliyin ən dayanıqlı forması qarşılıqlı asılılıq və qarşılıqlı rifah üzərində qurulandır.

Beləliklə, dünya militarizmin köhnə ritmində hərəkət edərkən, Azərbaycan dəyərlər üzərində qurulan yeni təhlükəsizlik fəlsəfəsinin konturlarını çəkir. Azərbaycanın təcrübəsi göstərir ki, gücün davamlılığı dəyərlərin dərinliyində, sülhün əsası isə inamın və qarşılıqlı anlayışın gücündədir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Kilsə həyətindən siyasət meydanına “özəl yol”

## *Karapetyan iqtisadi gücünü siyasi təsirə çevirməklə sabitliyi pozmağa çalışır*

**Ermənistanda daxili siyasi sabitliyi pozmağa yönələn proseslərin arxasında dayanan əsas fiqurlardan biri də “Taşir” şirkətlər qrupunun yaradıcısı və prezidenti Samvel Karapetyandır. Bu ilin iyununda həbs edilməsi və avqust ayında “Öz yolumuzla” adlı hərəkat yaratması onun adının erməni mediasında daha çox hallanmasına səbəb olub.**



İqtisadi imkanlarını siyasi məqsədlərə yönəltməsi Samvelin təkcə iş adamı deyil, həm də kölgədə fəaliyyət göstərən siyasi oyunçu olduğunu göstərir.

Karapetyan bir neçə ildir ki, revanşist dairələrin maliyyə qaynağı kimi çıxış edir və bu qüvvələrin yenidən hakimiyyətə qayıtması üçün hər cür dəstək verir. Onun idarə etdiyi biznes imperiyası faktiki olaraq siyasi intriqaların maliyyə mənbəyinə çevrilib. Bu dəstəyin arxasında Paşinyan hökumətinə qarşı planlı şəkildə aparılan təxribat və qarayaxma kampaniyaları dayanır. Xüsusilə də Azərbaycanla münasibətlər məsələsi ətrafında ictimai rəyin yönləndirilməsində Karapetyanın təsir alətləri açıq şəkildə hiss olunur. O, özünü milli maraqların müdafiəçisi kimi təqdim etsə də, əslində, ölkəni yenidən xaosa sürükləyən köhnə sistemin bərpası üçün çalışır. Bu baxımdan onun fəaliyyəti təkcə siyasi deyil, həm də təhlükəsizlik aspektindən Ermənistana ciddi təhdid yaradır.

Oktyabrın 16-da Ermənistanın Antikorrupsiya Məhkəməsi S.Karapetyanın həbs müddətini 30 gün müddətinə – noyabrın 17-dək uzadıb. Hakim Vahe Dolmazyan məhkəmə iclasında qərarı elan edib. Karapetyanın ailə üzvləri, silahdaşları, həmçinin təsis etdiyi “Öz yolumuzla” hərəkatının nümayəndələri onun azadlığa buraxılmasını tələb edərək məhkəmə binasının qarşısında olublar.

Bundan bir neçə gün əvvəl isə Karapetyanın vəkilləri ona qarşı əlavə ittihamlar irəli sürüldüyünü açıqlayıblar. Konkret olaraq, Ermənistan Cinayət Məcəlləsinin 296-cı maddəsinin 3-cü hissəsinin 2-ci və 3-cü bəndləri (hakimiyyət və ya vəzifə səlahiyyətlərindən və ya buna əsaslanan təsirdən istifadə etməklə xüsusilə külli miqdarda çirkli pulların yuyulması) Karapetyanın işinə əlavə edilib.

Xatırladaq ki, Karapetyan iyunun 17-də Erməni Apostol Kilsəsinə dəstəyini açıq şəkildə ifadə edən video yayımlayıb. Kilsənin həyətində çəkilən videoda Samvel “bir qrup insanın erməni xalqının və kilsəsinin min illik tarixini (?) unudaraq, kilsəyə və erməni xalqının özünə hücum etdiyini” bildirib. Bundan sonra onun evində axtarış aparılıb. Karapetyan iyunun 18-də iki ay müddətinə həbs edilib. Ona qarşı hakimiyyəti ələ keçirməyə açıq çağırış ittihamı irəli sürülüb. Avqustun 15-də Antikorrupsiya Məhkəməsi həbs müddətini daha iki ay uzadıb. Oktyabrın 11-də isə müstəntiq onun barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddətinin uzadılması ilə bağlı yenidən vəsatət vermişdi. Biznesmen özü ittihamları rədd edir və Ermənistan rəhbərliyini səriştəsiz adlandırır.

S.Karapetyanın “Öz yolumuzla” hərəkatının qeydiyyata alınması ilə bağlı dünən jurnalistlərin suallarını cavablandıran baş nazir Nikol Paşinyan deyib: “Mən bu məsələlərlə məşğul olmuram, çünki bu, hüquqi prosesdir. Mən bu qüvvənin qeydiyyatdan keçməli olub-olmaması ilə bağlı fikirlərlə tanış deyiləm, çünki bu, mənimlə heç bir əlaqəsi olmayan mövzudur. Prosedurlar var, qanunlar var. Bu, hüquqi məsələdir, qoy bu suallara hüquqşünaslar cavab versin”.

Bu arada Karapetyanın təsis etdiyi “Öz yolumuzla” hərəkatının koordinatoru Alik Aleksanyan oktyabrın 18-də İrəvanın “Azadlıq” meydanında mitinq keçiriləcəyini açıqlayıb. O, Antikorrupsiya Məhkəməsinin qarşısında deyib: “Birgə mitinqimiz saat 16:30-da baş tutacaq. Biz səsimizi ucaltmaq və siyasi məhbuslar – din xadimlərimiz və Samvel Karapetyan üçün ədalət və azadlıq tələb etmək üçün toplaşırıq”.

* * *

Əlbəttə, S.Karapetyanın həbs müddətinin növbəti dəfə uzadılması ölkənin siyasi səhnəsində baş verənlərin əsl mahiyyətini bir daha üzə çıxardı. Qərar təsadüfi deyil, çünki Karapetyan təkcə biznesmen deyil, həm də, qeyd etdiyimiz kimi, revanşist qüvvələrin iqtisadi dayağına çevrilmiş fiqurdur. O, özünü xeyriyyəçi və milli dəyərlərin müdafiəçisi kimi təqdim etsə də, əslində məqsədi Paşinyan hökumətini zəiflətmək və keçmiş rejimin maraqlarını dirçəltməkdir.

Əslində, bu cür addımlar yeni deyil. Çünki Ermənistan cəmiyyətində kilsə uzun illər siyasi məqsədlərin alətinə çevrilib. Lakin Karapetyanın təşəbbüsü bu prosesin yeni mərhələsidir. O, dini ritorikanı millətçiliklə birləşdirərək özünü “xalqın səsi” kimi təqdim etməyə cəhd edir. Bu yolla həm daxildəki narazı təbəqəni, həm də xaricdəki erməni diasporunu bir araya gətirmək istəyir. Amma bu “vahidlik” ideyası əslində, parçalanma üzərində qurulub. Çünki o, ölkədəki siyasi institutlara, məhkəməyə və hökumətə qarşı etimadsızlıq yaratmaqla cəmiyyətin təməl prinsiplərini sarsıdır.

Karapetyanın böyük iqtisadi resurslara malik olması onun siyasi ambisiyalarını daha da təhlükəli edir. Antikorrupsiya Məhkəməsinin istintaq materiallarında yer alan “çirkli pulların yuyulması” epizodu təsadüfi deyil. Bu, illər boyu kölgədə toplanmış və indi siyasətə yönəlmiş vəsaitlərin izidir. Ermənistan kimi iqtisadi cəhətdən zəif ölkədə belə fiqurların ortaya çıxması təkcə siyasi deyil, həm də milli təhlükəsizlik məsələsidir. Bu baxımdan Karapetyan tərəfdarlarının məhkəmə qarşısında keçirdiyi aksiyalar da spontan deyil. “Azadlıq”, “Ədalət” kimi populist şüarlarla çıxış edən bu qruplar, əslində, ölkəni yenidən xaosa sürükləməyə hesablanmış ssenarinin bir hissəsidir. Onlar “siyasi məhbus” obrazı yaratmaqla cəmiyyətin simpatiyasını qazanmaq, eyni zamanda, dövlət və hakimiyyət orqanlarının çıxardıqları qərarların legitimliyinə kölgə salmaq istəyirlər.

Samvel özünü xalqın və kilsənin müdafiəçisi kimi göstərsə də, onun fəaliyyəti ölkədə dini təsirlə siyasi revanşizmin birləşməsinə xidmət edir. Bu, həm ideoloji, həm də praktiki baxımdan təhlükəli tendensiyadır. Belə şəxslərin yürütdükləri siyasət üzündən Ermənistan bir neçə dəfə fəlakətə sürüklənib və indi eyni ssenarinin başqa bir versiyası hazırlanır. Məhz buna görə Karapetyanın işi təkcə hüquqi proses deyil, həm də siyasi təmizlənmə mərhələsi kimi dəyərləndirilməlidir. Cəmiyyət anlamalıdır ki, demokratiya və azadlıq yalnız şəffaf institutlar üzərində qurulur, kilsə həyətində deyil. Və əgər bir ölkənin iş adamı dini simvollarla silahlanıb hakimiyyətə yürüyürsə, bu, sadəcə ambisiya deyil. Bu, dövlətin təməlini sarsıdan bir təhlükədir.

***Səxavət HƏMİD***
***XQ***

### *Ekspert rəyi*



**Rizvan HÜSEYNOV,**
**siyasi şərhçi**

Ermənistanda son aylarda yaşanan hadisələr, xüsusən də Samvel Karapetyan ətrafında cərəyan edən proseslər bir daha göstərir ki, bəzi oliqarxlar hələ də siyasəti şəxsi maraqlarının davamı kimi görürlər. Antikorrupsiya Məhkəməsinin onun həbs müddətini növbəti dəfə uzatması bu fiqurun fəaliyyətinə hüquqi qiymət verilməsinin qaçılmaz olduğunu sübut edir. Karapetyanın “milli dəyərlər” pərdəsi altında qurduğu fəaliyyət əslində, hakimiyyətə qarşı məqsədli təxribatın tərkib hissəsidir. Karapetyan uzun müddətdir ki, iqtisadi gücünü siyasi təsir vasitəsinə çevirərək revanşist qüvvələri bir araya gətirməyə çalışır. O, “Öz yolumuzla” hərəkatını formal olaraq ictimai təşəbbüs kimi təqdim etsə də, bu qurumun real məqsədi hazırkı hökumətə qarşı narazılıq dalğası yaratmaqdır. Cəmiyyətin bəzi təbəqələrində yaranan sosial gərginlikdən faydalanmaq cəhdləri Karapetyanın planının əsasını təşkil edir.

Diqqəti cəlb edən məqamlardan biri də onun dini institutlardan siyasi məqsədlər naminə istifadə etməsidir. Kilsənin həyətində yayımladığı video bunun açıq göstəricisidir. Bu, sadəcə, dini duyğuların istismarı deyil, həm də dövlətlə kilsə münasibətlərinin zədələnməsi riskini artıran təhlükəli tendensiyadır. Karapetyan bu üsulla özünə “mənəvi legitimlik” qazandırmaq, eyni zamanda, hökuməti milli dəyərlərə qarşı çıxan qüvvə kimi göstərmək istəyir. Ancaq onun fəaliyyəti təkcə hüquqi məsuliyyət doğuran əməl deyil, həm də siyasi manipulyasiya formasıdır. Ermənistanın sabitliyi belə fiqurların siyasət meydanından kənarlaşdırılmasından keçir.

# Avropa “rəqəmsal feodalizm”ə niyə və necə qayıdır?

## *Təhlükəsizlik adı altında şəxsi həyata müdaxilə güclənir*

**Artıq bir neçə müddətdir Fransa hökuməti ilə ulduzu heç cür barışmayan, dünyaca məşhur “Telegram” sosial şəbəkəsinin qurucusu Pavel Durov yenə eyni hədəfi nişan alıb. Onun sözlərinə görə, Avropa İttifaqı (Aİ) istifadəçilərin şəxsi yazışmalarını skan etməyi məcburi sayan qanun layihəsini qəbul etməyə hazırlaşır. Bu məsələdə təşəbbüskar rəsmi Parisdir. Ölkənin həm keçmiş, həm də hazırkı daxili işlər nazirləri olan Bruno Retayu və Loren Nunez bu təklifi dəstəkləyiblər. Pavel Durov hesab edir ki, layihə formal olaraq cinayətkarlığa qarşı mübarizə məqsədi daşısa da, əslində, yalnız adi istifadəçilərə sirayət edir. Çünki hökumət və polis əməkdaşlarının xidməti yazışmaları qanun layihəsinə əsasən məcburi nəzarətdən azaddır.**



Aİ-nin öz vətəndaşlarını nəzarətdə saxlamaq istəyi son zamanlar maraqlı xarakter daşıyıb. XQ-nin ötən saylarında dərc olunmuş “Avropa qanunları sərtləşdirir” sərlövhəli məqalədə qeyd olunurdu ki, qitə yeni rəqəmsal nəzarət sistemi olan "Entry/Exit System"ə (EES) artıq başlayıb. Məqsəd İttifaqa daxil olan ölkələrə giriş zamanı skan prosesinin həyata keçirilməsidir. Yəni, artıq Avrozonaya ayaq basıldığı andan etibarən insanlar öz şəxsi məlumatları ilə birlikdə hökumətin aktiv radarına düşürlər. “Telegram”ın qurucusu Pavel Durovun bəhs etdiyi son qanun layihəsi bu məsələnin ikinci dalğasıdır. Yelisey sarayının bu məsələdə təşəbbüskar mövqeyi isə heç də təəccüblü görünməməlidir. Çünki hökumətləri və nazirləri tez-tez dəyişən Makron hakimiyyəti digər tərəfdən ölkədə hələ ki, episentri məhdud əraziləri əhatə edən etirazlardan sonra vətəndaşları “daha yaxından” izləməyə qərar verib.

Durovun tənqid etdiyi qanun layihəsi oktyabrın 14-də müzakirə edilən Uşaqların Cinsi İstismarının Qarşısının Alınması və Mübarizə Qaydası (CSAR) ətrafında idi. Təəssüf ki, son illərdə azyaşlıların istismarı halları getdikcə artıb. Son statistikaya görə, uşaq istismarı materiallarının 62 faizi məhz Avrozona daxilindəki serverlərdə yerləşir. Lakin qeyd edilən nüans Avropa Aİ-yə üzv ölkələrin öz vətəndaşlarını bu qədər yaxından izləməyə səlahiyyət verirmi? Bəlkə qanun layihəsindən kənarda qalan hökumət üzvləri və polislər bu kimi əməllərə qəti şəkildə yol vermirlər?!.

“Telegram”ın qurucusunun fikrincə, kağız üzərində uşaqlara qarşı cinayətlərin qarşısını almaq olan bu layihənin əsas məqsədi fərqlidir. Layihə bütün mesajlaşma tətbiqlərində – “WhatsApp”, “Signal”, “Telegram” və digərlərində – istifadəçilərin mesajlarını avtomatik şəkildə nəzarətə icazə verir. Lakin bir neçə gün əvvəl müzakirə olunan qanun layihəsi Aİ-yə üzv ölkələr arasında fikir ayrılığına yol açdı və yenidən müzakirəsi gələn il aprelin 3-nə qədər təxirə salındı. Əsas təşəbbüskar Fransa CSAR-ın qəbuluna “okey” desə də, Almaniya başda olmaqla, Danimarka kimi ölkələr bu layihənin narahatedici olduğunu qeyd ediblər.

Elə qanun layihəsinin müzakirə olunduğu gün “Telegram” fransız istifadəçilərə bildirişlər göndərməyə başlayıb. Qeyd edilib ki, Fransa şəxsən bu qanuna təkan verir və ona təşəbbüs göstərir. Daha sonra göndərilən mesajlarda qanun layihəsinin qəbuluna “can atanlardan” iki nazirin kimliyi göstərilib və ifşa edilib. Üstəlik, hər iki nazir “Telegram”ın qurucusu tərəfindən kəskin tənqid edilib. “Telegram”la bərabər digər məşhur sosial şəbəkələr də bu layihəni tənqid atəşinə tutublar. Məşhur iş adamı İlon Mask özünün sosial media platforması “X”də məlum təklifi “təhlükəli” adlandırıb. “Signal” mesajlaşma proqramı təklifini tənqid edərək, onu “Avropada məxfilik hüququnun sonu” olaraq dəyərləndirib və təklif təsdiqlənərsə, çamadanlarını yığıb Aİ-ni tərk etməklə hədələyib. “WhatsApp” mesencerinin ana şirkəti olan “Meta” layihənin məxfiliyi, azadlığı və rəqəmsal təhlükəsizliyi təhlükə altına atdığını söyləyib.

* * *

Aİ-də hər hansı bir qanun layihəsinin qəbul olunması üçün, ən azı, qurumun 15 üzv ölkəsinin və bu ölkələrin ümumi əhalisinin 65 faizinin dəstəyi tələb olunur. Almaniya təklifi açıq şəkildə tənqid etdi. Ölkənin ədliyyə naziri Stefan Hubiq birmənalı olaraq bəyan etdi ki, şəxsi yazışmaların ümumi şübhə altında izlənilməsi demokratik hüquqlarla uzlaşmır. Lakin qanun layihəsini tənqid edən Almaniyanın özü “meta-data” izləmə praktikasına malikdir. Bu isə paradoks yaradır. Yəni Berlinin bu addımı idealist deyil, geosiyasi balansın hesablamasıdır. Fransa Avroməkanda liderliyə can atır, Almaniya isə bu hökmranlığı əngəlləmək istəyir. Uzun sözün qısası, Avropa qitəsinin sakinlərinin şəxsi azadlıqları artıq müzakirə mövzusuna çevrilib.

Durov paylaşımında qeyd edir ki, başda Yelisey sarayı olmaqla bəzi qüvvələr bu layihədən öz məqsədləri üçün yararlanmağa çalışırlar. Fransa hökuməti bu təşəbbüsü “ictimai təhlükəsizliyin müdafiəsi” kimi təqdim edir. Lakin bu qanun layihəsi, sadəcə olaraq, sıravi vətəndaşları əhatə edir. Çünki uşaq zorakılığı ilə məşğul olan və bunu sosial şəbəkələrə ötürən cinayətkarlar çox vaxt VPN-lərdən (Virtual şəxsi şəbəkə) və gizli serverlərdən istifadə edir ki, bu da onlara nəzarəti çətinləşdirir. Bu zaman sözügedən qanun layihəsinin icrası, necə deyərlər, “havada qalır”.

Yeni qanun layihəsinə görə, məmurların və polis əməkdaşlarının mesajları skan prosesindən azad edilir. Yəni “müdafiə” yalnız yuxarı təbəqə üçün nəzərdə tutulur. Adi vətəndaş isə dövlətin elektron “lupası” altında yaşamağa məcbur edilir. Bu, bir növ “rəqəmsal feodalizm” adlana bilər: məlumat axını sərbəst deyil, mərkəzləşdirilmiş qaydadadır. Özəl sektor və hökumət arasında informasiya sərhədləri silinir. Avropa azadlığını tənzimləyən qanunlar indi azadlığın özünü tənzimləməyə başlayır.

Məxfilik təkcə şəxsi həyat deyil, həm də ictimai güvənin əsas sütunudur. Əgər insanlar öz yazışmalarında səmimi ola bilmirsə, o, tədricən öz fikrini senzura etməyə başlayır. Beləcə, daxili senzura formalaşır – bu, hər hansı dövlət təzyiqindən daha dərin və təhlükəlidir. Sosioloqlar qeyd edirlər ki, insanın öz mesajına belə etibar etmədiyi cəmiyyətlərdə yaradıcılıq, fikir azadlığı və sosial dinamika geriləyir. “Chat Control” bu mənada texnoloji nəzarət kapitalizminin Avropadakı ilk rəsmi forması ola bilər. Aİ son illər “Digital Services Act”, “AI Regulation”, “Online Safety Framework” kimi qanunlarla rəqəmsal məkanı sıx nəzarətə alır. Hər biri “təhlükəsizlik” bəhanəsi daşıyır, amma nəticədə azadlıq məkanı daralır.

***Tacir SADIQOV***
***XQ***

# NATO-da nüvə ssenarili təlimlər

**NATO-nun döyüş qabiliyyətinin qorunması məqsədilə keçirilən ən mühüm tədbirlərdən biri – “Steadfast Noon” (“Sabit Günorta”) adlı illik təlimlər bu həftə başlayıb. Təlimlər zamanı alyansa üzv ölkələrin hərbçiləri nüvə silahının real tətbiq edilmədən istifadəsi ssenarisini məşq edirlər. NATO rəhbərliyi bildirib ki, bu təlimlər planlı xarakter daşıyır və mövcud beynəlxalq vəziyyətlə birbaşa əlaqəli deyil. Bununla belə, builki təlimlərdə diqqətçəkən məqam ondan ibarətdir ki, Rusiya ilə sərhədləri olan və NATO-ya yeni qoşulmuş Finlandiya ikinci dəfə bu manevrlərdə iştirak edir.**



Təlimlər 13–24 oktyabr tarixlərində keçirilir. Əsas baza kimi Niderlandın “Volkel” aviabazası seçilib. Bundan başqa, Belçikanın “Kleine-Brogel”, Böyük Britaniyanın “Lakenheath” və Danimarkanın “Skrydstrup” hərbi aerodromları da prosesə cəlb olunub. Sonuncu baza yaxınlığında bu ilin əvvəlində naməlum pilotsuz uçuş aparatlarının görünməsi barədə xəbərlər yayılmışdı. Danimarka hakimiyyəti həmin dronların mənşəyini təsdiqləməmişdi. “Kleine-Brogel” və “Volkel” bazaları Avropada yerləşən altı NATO obyektindən ikisidir (yeddinci baza Türkiyənin Asiya hissəsindəki “İncirlik” bazasıdır) ki, burada ABŞ-ın taktiki nüvə bombaları B61 saxlanılır. Mütəxəssislərin qiymətləndirməsinə görə, bu anbarlarda ən azı 100 ədəd belə silah mövcuddur.

Cari təlimlərdə keçənilki kimi təxminən 14 ölkədən 2000 hərbçi və 70 təyyarə iştirak edir. Təlimlərdə Almaniya Hərbi Hava Qüvvələrinin “Tornado” qırıcı-bombardmançıları da yer alır. Bu təyyarələr nüvə silahı daşımaq qabiliyyətinə malikdir. Eyni məqsədlə “Eurofighter Typhoon” çoxfunksiyalı qırıcıları da istifadə olunur. NATO-nun Baş katibi Mark Rütte təlimlər ərəfəsində bildirib ki, “Steadfast Noon” heç bir cari siyasi və ya hərbi hadisə ilə əlaqəli deyil.

Bu il təlimlərdə Finlandiya yenidən iştirak edir. Ölkənin müdafiə naziri Antti Hakkanen bildirib ki, manevrlərə F/A-18 Hornet tipli döyüş təyyarələri və qərargah zabitləri göndərilib. Müşahidəçilər qeyd edirlər ki, bu, ya davamlı hərbi əməkdaşlıq tendensiyası, ya da Avropa səmasında müşahidə edilən naməlum dron hadisələrinə reaksiya ola bilər. Qeyd olunur ki, Finlandiya əvvəllər də öz ərazisində ABŞ-ın nüvə daşıyıcı təyyarələrinin yerləşdirilməsində maraqlı olduğunu bildirib.

Təlimlərin konkret ssenarisi açıqlanmır – məlumatlar məxfi xarakter daşıyır. NATO mətbuat xidməti yalnız onu bildirir ki, uçuşların əsas hissəsi Şimal dənizi üzərində keçiriləcək. Baş katib Mark Rüttenin sözlərinə görə, bu kimi tədbirlər “alyansın nüvə çəkindirmə potensialının təhlükəsiz, etibarlı və effektiv qalmasını təmin edir”.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

*Köşə*

**Narahat dövrdə yaşayırıq. Dünyanın, demək olar ki, bütün qitələrində hərbi və siyasi qarşıdurmaların, sosial-iqtisadi kataklizmlərin artdığı indiki zamanda sülh daha çox aktuallıq kəsb edir. Hərb və sülh. Hər ikisi insan amili ilə bağlıdır və hazırda bu dilemma bəşəriyyəti ciddi şəkildə əndişələndirir. Müharibənin qalibinin heç də həmişə sülhün təminatçısı olmadığı tezisini tarix təsdiqləsə də, ölkələrin heç də hamısı yeni reallığı başa düşmək istəmir. Mütərəqqi fikirli siyasi xadimlər, nüfuzlu beynəlxalq təşkilatlar, beyin mərkəzləri vəziyyətdən çıxış yolu tapmaq üçün cəhdlər edir, kütləvi qırğınların qarşısını almaq yönündə səy göstərirlər.**

# Reallığın sülh diktəsi



*İmran BƏDİRXANLI*
imranbedirxanli01@gmail.com

Amma sülh gəlişigözəl sözlərlə hasil olan nəticə deyil, onu əməldə, konkret addımlarla sübuta yetirmək, hamının qəbul etdiyi reallığa çevirmək lazımdır. Bundan ötrü praqmatik yanaşma və siyasi iradə ön plana çıxır. Beş il bundan əvvəl müharibədən qalib ayrılmış Azərbaycan məhz sülh gündəmini irəli sürməklə yeni nümunə, presedent yaratdı. Məsələyə bu kontekstdən yanaşaraq nümunəni şərtləndirən 3 yöndə nəzər yetirək.

### Birinci yön

İkinci Qarabağ müharibəsinin məntiqi sonluğu, sadəcə, Azərbaycanın hərbi qalibiyyəti deyil, həm də regionda siyasi və hüquqi nizamın tamamilə yenidən formalaşmasının başlanğıcı oldu. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə təkcə işğala son qoymadı, həm də 30 il dondurulmuş münaqişənin beynəlxalq hüquqa əsaslanan həll variantını təkbaşına reallaşdırdı. Bu prosesin ən üstün cəhəti Azərbaycanın ardıcıl prinsipial mövqeyi və sülhün haqq və ədalət üzərində qurulması oldu. Qalibin hərbin deyil, sülhün dili ilə danışması modelini də ilk dəfə Azərbaycan Prezidenti İlham Əliyev nümayiş etdirdi – desək, yəqin yanılmarıq. İlkin mərhələdə bu gerçəyi təkcə uduzan tərəfin – Ermənistanın deyil, Avropanın, dünyanın qəbul edə bilməməsi təəccüblü deyildi. Çünki ən azı, son yüz ildə dünya hərb tarixində buna bənzər diplomatiyaya rast gəlinməmişdi.

Ən ədalətli hakim sayılan zaman öz missiyasını yerinə yetirdi və bu gün Ermənistanla Azərbaycan arasında suverenliyin və ərazi bütövlüyünün qarşılıqlı tanınması, sərhədlərin toxunulmazlığı, daxili işlərə qarışmama və gücdən istifadə etməmə kimi prinsiplər sülh sazişinin hüquqi çərçivəsini təşkil edir. Postmünaqişə dövründə tərəflər arasında münasibətlərin yeni mərhələyə keçməsini təmin edən sülh sazişinin mətninə ümumi nəzər salsaq, görərik ki, burada öz əksini tapmış müddəalar mövcud reallığa və qarşılıqlı anlaşmaya söykənir.



İrəvan Bakının 5 il bundan əvvəl – müharibə bitəndən dərhal sonra irəli sürdüyü sülh gündəliyinin optimallıq dərəcəsini, gec də olsa, anladı və qəbul etdi. Sülhün qalibdən daha çox özlərinə fayda gətirəcəyini Ermənistan cəmiyytinin şüuruna yeriməyə başlamasını proqres, təqdirəlayiq hal kimi dəyərləndirə bilərik.

### İkinci yön

Tarix hadisələrin zənciri və həmin hadisələrə yön verən şəxsiyyətlərin xidmətləri müqabilində salnaməyə dönür. Bəzi hallarda cəmiyyət tarixə öz möhrünü vuran lider şəxsiyyətin gördüyü işin miqyasını və əhəmiyyətini üstündən xeyli müddət keçəndən sonra anlayır. Tarix yaradan şəxsiyyətlər, siyasət formalaşdıran liderlər bu cəhətlərinə görə də xarakterizə oluna bilərlər. Konkret misallara müraciət edək. MDB Dövlət Başçılarının Düşənbə Sammitində Azərbaycan liderinin səsləndirdiyi “sülh reallıqdır” fikri dünyada ədalətli nizama əsaslanan siyasi mövqeyin dəyişməzliyinə vurulan işarə, ölkəmizin dostlarına və bədxahlarına ünvanlanan ismarış idi. Yəni İlham Əliyev növbəti dəfə qətiyyətlə bəyan etdi ki Bakı üçün vacib olan söz deyil, əməl və nəticədir. Əgər Ermənistan qonşuluq, əməkdaşlıq, qarşılıqlı ticarət, kommunikasiyaların açılması istiqamətində konkret addımlar atsa, bu, regionda sülhün və sabitliyin bərqərar olmasına gətirib çıxarar. Əks təqdirdə, sülh ritorikası İrəvanın ifasında daxili və beynəlxalq auditoriyaya hesablanmış formal mesaj olaraq qalacaq. Oktyabrın 1-2-də Kopenhagendə “Avropa Siyasi Birliyi”nin sammiti, oktyabrın 6-7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının Zirvə Görüşü və oktyabrın 9-10-da Düşənbədə MDB sammiti. Dövlətimizin başçısının Qərbdən Şərqə doğru uzanan bu diplomatik marşrutunun əsas devizi sülh idi. Həmin tribunalarda sülhü yüksək səslə bəyan edən məhz İlham Əliyev oldu. Oktyabrın 13-də Misirin Şarm əl-Şeyx şəhərində keçirilən Yaxın Şərq Sülh Sammitinin bizim üçün əlamətdar məqamı dünyaya təqdim edilən yeni sülh modeli qismində Azərbaycan təcrübəsinin örnək kimi göstərilməsi idi. ABŞ Prezidenti Donald Tramp və Misir Prezidenti Əbdülfəttah əs-Sisinin tədbirə qatılmaq üçün Azərbaycan Prezidenti İlham Əliyevə xüsusi dəvət göndərmələri təsadüfi deyildi. Azərbaycan liderinin artıq beynəlxalq miqyasda etiraf olunan “sülh yaradan güc” imici onun Şarm əl-Şeyx Sammitində iştirakını zərurətə çevirmişdi. Bəli, İlham Əliyev bu tədbirdə yeni sülh modelini yaratmış lider kimi iştirak etdi. Donald Trampın Azərbaycan liderini sammit iştirakçılarına “sülh quruculuğunun memarı” kimi təqdim etməsi dövlətimizin başçısının təşəbbüslərinin beynəlxalq səviyyədə legitimləşməsinin göstəricisidir. Prezident İlham Əliyev artıq Cənubi Qafqazın lideri olmaqla yanaşı, həm də beynəlxalq səviyyədə hüququn, ədalətin və sülhün təminatçısı kimi qəbul olunur. Bütün bunlar özündə Azərbaycanın statusunu, ölkəmizin beynəlxalq siyasətdə oynadığı rolun və İlham Əliyevin siyasi iradəsinin təsdiqini əks etdirir. Məhz şəxsiyyət amilinə görə bu gün Azərbaycan diplomatiyası özünün Qızıl dövrünü yaşamaqdadır.

### Üçüncü yön

İndi bu dili hamı başa düşməyə başlayıb. Söhbət reallığın gətirdiyi sülhdən və sülhün özünün reallığa çevrilməsinin sübutu kimi Bakının dünyaya təqdim etdiyi yeni paradiqmadan gedir. “Sülh reallıqdır” ifadəsi yalnız siyasi ritorika deyil, həm də Bakının Cənubi Qafqazda formalaşdırdığı yeni güc balansının ortaya çıxardığı siyasi tablo, aksiomdur. Bu siyasi-riyazi aksiomun memarının Azərbaycan olduğu artıq bütün dünyaya məlumdur. Prezident İlham Əliyevin fərqli coğrafiyalarda və çeşidli platformalarda nümayiş etdirdiyi virtuoz diplomatiya sayəsində Azərbaycanın qazandığı uğurlara bütün dünya şahidlik edir, qonşuluq və əməkdaşlıq münasibətləri qurmağı təklif etdiyimiz Ermənistan isə qibtə ilə baxır. Həm də anlayır ki, o, bu reallığa uyğunlaşmağa, revanşist, militarist düşüncəni bir kənara qoyub, sülh leksikonuna keçməyə məcburdur. Əgər İrəvan bu şansı düzgün dəyərləndirsə, Cənubi Qafqazda uzunmüddətli sabitlik və qarşılıqlı etimad mühiti yarana bilər. Əks təqdirdə, tarixin təkrarı qaçılmaz, bundan uduzan isə Ermənistan olacaq. Bu zaman sülhü reallığa güclə, ədalətlə və diplomatik uzaqgörənliklə çevirən Azərbaycanın mövqeyi daha da güclənəcək.

Hazırda regionda bütün sahələr üzrə istiqamətverici güc mərkəzi, diplomatik balans və strateji nizam qurucusu Azərbaycandır. Ölkəmiz üçün sülh reallığını şərtləndirən əsas amillərdən biri Zəfərimizdir. Məhz liderin iradəsi ilə reallaşan bu zəfər XXI əsrdə dövlətlərarası münasibətlərdə beynəlxalq hüquqa və ədalətə əsaslanan yanaşmanın, inklüziv sülh modelinin təməli kimi tarixə düşdü.

*20 Oktyabr Beynəlxalq Statistika Günüdür*

# Azərbaycan statistikası 105 yaşını Zəfər təntənələri ilə qeyd edir

## *Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun "Xalq qəzeti"nə müsahibəsi*

**– Tahir müəllim, bütün dünyada olduğu kimi, ölkəmizdə də Ümumdünya Statistika Günü təntənəli şəkildə qeyd edilir. Bu gün nə vaxt təsis edilib və keçirilmə qaydası necədir?**

– Bu günün təsis edilməsində əsas məqsəd cəmiyyətin bütün üzvlərinin, xüsusilə beynəlxalq təşkilatların, elmi dairələrin, medianın, rəsmi statistikanın bütün istehsalçı və istifadəçilərinin diqqətinin müasir dövrün problemlərinin həlli üçün adekvat informasiya təminatında mühüm rol oynayan statistikaya yönəldilməsidir. Bununla əlaqədar, Azərbaycanın da həmmüəllif kimi qoşulduğu BMT Baş Assambleyasının 2015-ci il 3 iyun tarixli, 69/282 nömrəli qətnaməsinə uyğun olaraq, 5 ildən bir keçirilən Ümumdünya Statistika Günü ölkəmizdə də təntənəli şəkildə qeyd edilir. BMT-nin Statistika Komissiyasının 2025-ci il 4-7 mart tarixlərində keçirilmiş 56-cı sessiyasında BMT Baş katibinin Ümumdünya Statistika Günü ilə bağlı təqdim olunmuş məruzəsinə əsasən bu əlamətdar gün cari ildə beynəlxalq, milli və regional səviyyədə "Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək" şüarı altında keçirilir.

Qeyd etmək istərdim ki, qlobal mütərəqqi təşəbbüslərə böyük önəm və töhfə verən Azərbaycanda Ümumdünya Statistika Günü ilk dəfə 2015-ci ildə təntənəli şəkildə qeyd olunmuşdur. Lakin 2020-ci ildə Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təcavüzündən sonra başlayan İkinci Qarabağ müharibəsi ilə əlaqədar Ümumdünya Statistika Gününün ölkəmizdə qeyd edilməsi mənəvi prinsiplər və etik normalar baxımından mümkünsüz hesab edilmiş və bununla bağlı Dövlət Statistika Komitəsi tərəfindən beynəlxalq təşkilatlara və dünya ölkələrinin statistika qurumlarına müraciət ünvanlanmışdır.

Bu il – Vətən müharibəsindəki möhtəşəm Zəfərimizin 5 illiyində Ümumdünya Statistika Gününün ölkəmizdə də yüksək səviyyədə, təntənəli şəkildə qeyd olunması üçün bir sıra tədbirlər müəyyən edilərək onların icrasına başlanılmışdır. Ümumdünya Statistika Günü ərəfəsində Bakı şəhərində "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda Beynəlxalq Statistika Forumunun keçirilməsi və iştirakçılara Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciət ünvanlaması, statistikləri bu gün münasibətilə təbrik etməsi beynəlxalq statistika cəmiyyəti tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Eyni zamanda, ölkə başçısının müraciətində statistikanın əhəmiyyətinin ildən-ilə artaraq cəmiyyətin tərəqqisini, dövlət siyasətinin effektivliyini və qlobal çağırışlara cavabvermə qabiliyyətini qiymətləndirmək üçün mühüm vasitələrdən birinə çevrildiyi vurğulanmış, Azərbaycanda milli statistika sisteminin ardıcıl şəkildə inkişaf etdirildiyi, rəsmi statistik məlumatların beynəlxalq standartlara uyğun, innovativ yanaşmalar əsasında istehsalının daim diqqət mərkəzində saxlanıldığı barədə dəyərli fikirlər bildirilmişdir.

Fürsətdən istifadə edərək mən də fəaliyyət göstərdiyi sahədən asılı olmayaraq rəsmi statistika istehsalı prosesinə öz töhfəsini verən hər bir şəxsi bu əlamətdar gün münasibətilə təbrik edir, onlara işlərində uğurlar arzulayıram.

**– Beynəlxalq səviyyədə baş verən qlobal dəyişikliklər və ölkədə həyata keçirilən islahatlar fonunda Azərbaycanın milli statistika sistemində son illərdə hansı yeniliklər baş verib?**

– İlk öncə vurğulamaq lazımdır ki, ölkələrin sosial-iqtisadi inkişaf prioritetlərinin müəyyən edilməsi üçün informasiya təminatında xüsusi rola malik olan milli statistika sistemləri təşəkkül tapdığı dövrdən etibarən beynəlxalq səviyyədə müəyyən edilmiş fundamental dəyərləri qoruyub saxlamış və böyük inkişaf yolu keçərək daim yeni perspektiv hədəflərə doğru irəliləmişdir.

Milli və qlobal çağırışlara layiqincə cavab verməyi özünün əsas hədəfi hesab etməklə qlobal statistika ailəsinin bir üzvü kimi Azərbaycanın milli statistika sistemi də son illər ərzində daim tərəqqiyə can atmış, ciddi islahatlar yolu ilə yeni tələblərə uyğun inkişaf etdirilmişdir.

Azərbaycanda milli statistika sisteminin inkişafı Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkədə onun rəhbərliyi ilə yaradılmış hüquqi baza əsasında bazar iqtisadiyyatı prinsiplərinə uyğun milli statistika sisteminin formalaşdırılması prosesinə başlanılmış, sonrakı illərdə uğurla davam etdirilən islahatlar rəsmi statistikanın inkişafına güclü təkan vermiş, bu sahədə ardıcıl qəbul olunmuş 6 dövlət proqramı uğurla icra edilmişdir. Bu proqramlar çərçivəsində köklü islahatlar həyata keçirilmiş, o cümlədən milli statistik təsnifatların, müasir metodologiyaların hazırlanması və tətbiqi, Milli Hesablar Sisteminin qurulması, yeni statistika sahələrinin yaradılması və təkmilləşdirilməsi, istifadəçilərin statistik məlumatlara



olan tələbatının ödənilməsi, elektron statistikanın inkişafı, sahibkarların üzərinə düşən statistik yükün azaldılması, rəsmi statistika istehsalı proseslərinin səmərəliliyinin yüksəldilməsi, keyfiyyəti idarəetmə sisteminin tətbiqi, metaməlumatların işlənilməsi, statistika orqanlarının maddi-texniki bazasının gücləndirilməsi və digər istiqamətlərdə mühüm tədbirlər görülmüşdür.

Bunun nəticəsidir ki, ixtisaslaşmış beynəlxalq təşkilatlar tərəfindən aparılmış qlobal qiymətləndirmədə xarici ekspertlər həyata keçirilən islahatları yüksək qiymətləndirərək Azərbaycanın milli statistika sisteminin beynəlxalq standartlara uyğun olduğunu qeyd etmiş, Dövlət Statistika Komitəsi "Rəsmi statistika məlumatlarının istehsalı və yayılması" sahəsində nüfuzlu beynəlxalq audit təşkilatları tərəfindən ISO 9001:2015 Keyfiyyəti İdarəetmə Sisteminə dair beynəlxalq uyğunluq sertifikatına layiq görülmüşdür. Dövlət Statistika Komitəsi Azərbaycanda bu uyğunluq sertifikatına layiq görülən ilk mərkəzi icra hakimiyyəti orqanı olmaqla yanaşı, MDB məkanında da bu sertifikatı əldə edən ilk statistika qurumudur. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinin "Dövlət Nəzarəti İnformasiya Sistemi" vasitəsilə qiymətləndirilməsinin nəticələrinə görə Dövlət Statistika Komitəsi son illərdə mərkəzi icra hakimiyyəti orqanları arasında 1-ci mövqedə qərarlaşmışdır.

Xüsusi vurğulamaq lazımdır ki, 2025-ci il 24-26 sentyabr tarixlərində Bakı şəhərində keçirilmiş "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda Beynəlxalq Statistika Forumunun iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ünvanlanmış müraciətdə cəmiyyətin tərəqqisini, dövlət siyasətinin effektivliyini və qlobal çağırışlara cavabvermə qabiliyyətini qiymətləndirmək üçün statistikanın ildən-ilə artan əhəmiyyəti qeyd olunaraq Azərbaycanda milli statistika sisteminin ardıcıl şəkildə inkişaf etdirildiyi, rəsmi statistik məlumatların beynəlxalq standartlara uyğun, innovativ yanaşmalar əsasında istehsalının daim diqqət mərkəzində saxlanıldığı vurğulanmışdır.

**– Azərbaycanın milli statistika sistemi ciddi islahatlar yolu ilə yeni tələblərə uyğun inkişaf etdirilib. Hansı uğurlar qazanılıb?**

– İlk növbədə institusional islahatları qeyd etmək istərdim. Belə ki, müstəqillik dövrünün ilk illərində bazar iqtisadiyyatına keçidlə bağlı ölkədə aparılmış köklü islahatlar çərçivəsində rəsmi statistika sisteminin inkişafı ilə bağlı bir sıra tədbirlərin görülməsinə, o cümlədən statistikaya dair qanunvericiliyin, milli statistika təcrübəsində istifadə olunan metodologiyaların və standartların beynəlxalq təcrübəyə uyğunlaşdırılması istiqamətində mühüm işlərin həyata keçirilməsinə, informasiya texnologiyalarının tətbiqinə başlansa da, dövlət statistika orqanlarının strukturunda adekvat dəyişikliklər aparılmamışdır. Bu isə, öz növbəsində, statistika məlumatlarının hazırlanması prosesinin müasir tələblərə uyğun təkmilləşdirilməsinə, statistika fəaliyyətində innovasiyaların tətbiqinə, beynəlxalq əməkdaşlığın yeni müstəvidə təşkilinə olan zərurət fonunda idarəetmənin optimallaşdırılmasını tələb edir, dövlət statistika sistemində əsaslı islahatların aparılmasını şərtləndirirdi.

Məhz buna görə də 2015-ci ildən statistika orqanlarının qarşısında duran yeni vəzifələrə uyğun institusional quruculuğa start verilmiş, ilkin mərhələdə Dövlət Statistika Komitəsinin təklifləri əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə statistika sistemində struktur islahatları həyata keçirilmişdir. Qısa zaman kəsiyində Dövlət Statistika Komitəsinin mərkəzi aparatının strukturu tamamilə yenilənmiş, hər bir struktur vahidinin vəzifə və funksiyaları müəyyən edilərək onların ştat sayı optimallaşdırılmış, Komitənin tabeliyində olan Baş Hesablama Mərkəzi və Tədris Mərkəzi ləğv edilmiş, Statistik Məlumatların Elmi-Tədqiqat və Layihə-Texnoloji Mərkəzinin bazasında isə Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzi (ETSİM) yaradılmışdır. Bu islahatı labüd edən amilləri daha detallı şəkildə aşağıdakı kimi səciyyələndirmək olar.

Birincisi, rəsmi statistika məlumatlarının istehsalı prosesinin məlumatların toplanması və işlənməsi kimi vacib mərhələlərinin Dövlət Statistika Komitəsinin strukturuna daxil olmayan tabeliyindəki Baş Hesablama Mərkəzində, layihələndirmə, məlumatların təhlili, yayılması kimi digər mərhələlərinin isə Komitənin aparatında həyata keçirilməsi statistika proseslərinin idarə edilməsinə və məlumatların keyfiyyətinə mənfi təsir göstərməklə statistik istehsal proseslərinin vahid sistem şəklində idarə olunması zəruriliyini ortaya qoymuşdur.

İkincisi, vaxtilə kadr çatışmazlığı şəraitində orta təhsilli kadrların hazırlığı ilə məşğul olan və Komitənin strukturuna daxil olmayan tabeliyindəki digər təsərrüfat hesablı müəssisə - Tədris Mərkəzi də "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun qəbulundan sonra öz əhəmiyyətini itirmişdir.

Üçüncüsü, statistik müayinələrin təşkilində əsas mərhələlərdən olan seçmənin layihələndirilməsi, seçmə şəbəkəsinin formalaşdırılması, təsviri statistika ilə bağlı yeni yanaşmaların tətbiqi, eləcə də standart proqram təminatı paketlərindən istifadənin genişlənməsi bu sahədə daha geniş innovativ tədbirlərin həyata keçirilməsini şərtləndirmişdir. Bu baxımdan elmi metodlara əsaslanan yeni istiqamətlərin, qabaqcıl statistik texnologiyaların tədqiq edilməsi və tətbiqi yollarının müəyyən olunması üçün kompleks tədbirlərin həyata keçirilməsinə, habelə statistika sistemində çalışan mütəxəssislərin elmi metodlar və innovasiyalarla bağlı bilik səviyyələrinin artırılması üçün mütəmadi təlimlərin keçirilməsinə ciddi ehtiyac yaranmışdır.

Dördüncüsü, həyata keçirilən islahatlar çərçivəsində Dövlət Statistika Komitəsi aparatının da strukturunun təkmilləşdirilməsi, yeni şöbələrin yaradılması günün tələbinə çevrilmişdir. Belə ki, beynəlxalq təşkilatlarla və xarici ölkələrin statistika qurumları ilə əməkdaşlığın genişlənməsinin zəruriliyi, beynəlxalq statistika təcrübəsinin ölkədə tətbiqinin sürətləndirilməsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən prioritet kimi müəyyən edilməsi Beynəlxalq əlaqələr şöbəsinin yaradılmasını şərtləndirmiş, beynəlxalq reytinq agentliklərinin ölkə ilə bağlı yaydıqları məlumatların araşdırılması, uzlaşdırılması, uyğunsuzluqların aşkara çıxarılması və aradan qaldırılması ilə əlaqədar fəaliyyət də bu şöbənin səlahiyyətinə aid edilmişdir.

Statistika sahəsində informasiya texnologiyalarının yüksək səviyyədə tətbiqi, 250-dən çox rəsmi statistika hesabatı formasının hüquqi və fiziki şəxslərdən elektron qaydada toplanması və emalı, proqram təminatlarının işlək vəziyyətdə saxlanılması, ölkənin mühüm əhəmiyyətli informasiya ehtiyatlarını özündə cəmləşdirən statistik məlumat bazalarının idarə edilməsi, bütün statistika proseslərinin elektronlaşdırılması, informasiya təhlükəsizliyinin təminatının yüksəldilməsi, qarşıya qoyulmuş yeni vəzifələrin icrasının təmin edilməsi məqsədilə İnformasiya texnologiyaları şöbəsi yaradılmışdır.

Həyata keçirilmiş islahatlar çərçivəsində Komitədə yeni bir şöbənin - Dayanıqlı inkişaf statistikası şöbəsinin yaradılması da vaxtında atılmış uğurlu addım kimi qiymətləndirilməlidir. Belə ki, dayanıqlı inkişafa təsir edən hadisələrin inkişaf qanunauyğunluqlarının, onların ölçülməsinin nəzəri və praktiki əsaslarının, ölkədə baş verən inkişaf proseslərinin öyrənilməsi, BMT Baş Assambleyasının 2015-ci ildə qəbul etdiyi və insan inkişafı üçün mühüm əhəmiyyət kəsb edən, planetimizi qorumağa yönəlmiş 17 məqsəd və 169 hədəfdən ibarət "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" üzrə rəsmi statistikanın istehsalı üçün struktur bölmənin təşkili zəruri idi və Azərbaycanın statistika sistemində belə bir şöbənin yaradılması beynəlxalq statistika ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanmış, BMT-nin müvafiq qurumları və Avropa İttifaqının Statistika Bürosu (Avrostat) tərəfindən digər ölkələr üçün yaxşı nümunə kimi göstərilmişdir.

Dövlət Statistika Komitəsi sistemində əsas institusional islahatların növbəti mərhələsi 2018-ci ildə həyata keçirilmişdir. Statistika fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi nəticəsində əmək resurslarından daha səmərəli istifadə etmək məqsədilə Komitənin Bakı Şəhər Statistika İdarəsinin və digər yerli statistika orqanlarının təşkilati strukturuna yenidən baxılmış, onların fəaliyyət mexanizmi təkmilləşdirilmiş, işçilərin üzərinə düşən yük nəzərə alınmaqla işçi sayı optimallaşdırılmışdır ki, bu da əməyin ödənişi ilə bağlı xərclərin azaldılmasına və əmək məhsuldarlığının yüksəldilməsinə xidmət etmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 21 dekabr tarixli 2621 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı"na əsasən Bakı Şəhər Statistika İdarəsi üçün yeni inzibati binanın inşa edilməsi İdarənin müxtəlif ünvanlarda yerləşən rayon şöbələrinin vahid təşkilati-struktur formasında fəaliyyət göstərməsinə və əməkdaşlarının iş şəraitinin köklü surətdə yaxşılaşdırılmasına xidmət etməklə yanaşı, statistika sistemində aparılan islahatların uğurla həyata keçirilməsinə imkan yaratmışdır.

**– Bəs digər islahatlardan hansılarını vurğulamaq istərdiniz?**

– Dövlət Statistika Komitəsinin əsas diqqət yetirdiyi məsələlərdən biri informasiya təminatının təşkili məqsədilə müşahidələrin aparılmasıdır və bununla əlaqədar ölkəmizdə milli statistik metodoloji bazanın yaradılması və möhkəmləndirilməsi daim diqqət mərkəzində olmuşdur. Ötən 10 il ərzində BMT, Avrostat, Beynəlxalq Valyuta Fondu (BVF), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT), Beynəlxalq Əmək Təşkilatı (BƏT) və digər beynəlxalq təşkilatların metodologiyalarına uyğunlaşdırılmaqla, habelə yerli qanunvericilikdə baş vermiş dəyişikliklər nəzərə alınmaqla 500-dən çox metodoloji material, bir çox rəsmi statistika hesabatı forması yenidən işlənilmiş, digərlərinə əlavə və dəyişikliklər edilmişdir.

Azərbaycan Respublikasında 2019-cu ildə əhali siyahıyaalınmasını, 2023-cü ildə Çoxgöstəricili Klaster Sorğusunu (MICS), 2025-ci ildə isə kənd təsərrüfatı siyahıyaalınmasını son 10 ildə həyata keçirilmiş ən irimiqyaslı işlər kimi qeyd etmək olar.

Dayanıqlı inkişaf məqsədləri (DİM) üzrə statistikanın təşkili üçün DİM göstəriciləri üzrə yüksək keyfiyyətli, əlçatan, etibarlı, vaxtlı-vaxtında verilən və müxtəlif əlamətlərə görə dezaqreqasiya olunan statistik məlumatların toplanması, emalı, yayımlanması, müvafiq statistik məlumat bazasının hazırlanması istiqamətində Dövlət Statistika Komitəsi tərəfindən həyata keçirilmiş kompleks tədbirlər öz nəticəsini vermişdir. 2030 Gündəliyi çərçivəsində Azərbaycan DİM üzrə milli statistika sistemini formalaşdırmağa, həm qlobal, həm də milli göstəricilər üzrə məlumatların müntəzəm hazırlanaraq nəşrinə, peyk müşahidə məlumatlarından istifadə kimi innovativ yanaşmaların tətbiqinə nail olmuşdur.

DİM üzrə müşahidəsi aparılan qlobal göstəricilərin sayı ildən-ilə artaraq 2017-ci ildəki 79-dan 2024-cü ildə 153-ə yüksəlmiş, milli prioritet göstəricilərin sayı isə 2019-cu ildəki 70-dən 2024-cü ildə 112-yə çatmışdır. Bunlara nail olmaq üçün DİM üzrə qlobal göstəricilərin Azərbaycanın rəsmi statistikasında mövcudluq və əhatəlilik vəziyyəti təhlil edilmiş, onların məlumat mənbəyi və hazırolma müddəti müəyyənləşdirilmiş, müxtəlif mövzularda müayinələr keçirilmiş, mövcud hesabat formalarında və sorğu anketlərində DİM-ə dair məlumatların əlyetərliliyi və dezaqreqasiyasının təmin edilməsi məqsədilə dəyişikliklər aparılaraq onlara yeni modul və suallar daxil edilmiş, rəsmi statistikada mövcud olmayan göstəricilər üzrə məlumatların aidiyyəti dövlət orqanları ilə birgə əldə edilməsi üçün işlər görülmüş, beynəlxalq təşkilatlarla birlikdə Çoxgöstəricili Klaster Sorğusu (MICS), "Azərbaycanda müqayisəli şəhər məlumatlarının əldə edilməsi üçün DEGURBA yanaşmasının tətbiqi" layihəsi və sair proqramlar icra olunmuş, dayanıqlı inkişaf statistikasının təşkili ilə bağlı digər tədbirlər həyata keçirilmişdir.

2018-ci ildən başlayaraq hər il "Dayanıqlı İnkişaf Məqsədləri: statistik icmal" adlı məcmuənin nəşr edilməsi, 2019-cu ildə BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisinin Ofisinin dəstəyi ilə DİM-ə nailolma vəziyyətinin monitorinqi və geniş istifadəçi auditoriyasının məlumatlandırılması məqsədilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Məlumatlandırma Portalının yaradılması, DİM göstəricilərinə dair qlobal metaməlumatların Azərbaycan dilinə tərcümə edilməsi, DİM statistikası sahəsində məlumatların hazırlanması və digər tədbirlər DİM sahəsində statistik potensialın artırılmasına güclü təkan vermişdir.

Bu illər ərzində turizm statistikası demək olar ki, yenidən qurulmuşdur. Ümumdünya Turizm Təşkilatının metodologiyası əsasında və ekspertlərin tövsiyələri nəzərə alınmaqla getmə və gəlmə turizmə dair statistik müayinə formaları və onların doldurulmasına dair göstərişlər hazırlanaraq təsdiq edilmiş, əldə olunan nəticələrə dair statistik bülletenlər hazırlanaraq aidiyyəti qurumlara göndərilmiş, onların elektron versiyası Komitənin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

Yeni çağırışlara uyğun olaraq "yaşıl inkişaf", "rəqəmsal inkişaf", "layiqli əmək" və digər aktual məsələlərə dair statistik göstəricilər sisteminin hazırlanması və bu istiqamətdə yeni məlumatların əldə edilməsini də yeni statistika sahələrinin yaradılmasının başlanğıcı kimi qiymətləndirmək olar.

Ümumiyyətlə, sosial-iqtisadi statistika sahəsində həyata keçirilən statistik müayinələr və digər işlər daha dolğun məlumatların əldə olunmasına imkan vermiş, müayinələrin nəticələri üzrə təhlili məruzələr, bülletenlər hazırlanmışdır.

**– Statistik istehsal proseslərinin düzgün planlaşdırılması, idarəetmədə keyfiyyətin təmin olunması üçün Dövlət Statistika Komitəsində hansı işlər görülmüşdür?**

– Bu istiqamətdə əsas diqqət beynəlxalq standartlara uyğunluğa yönəldilmiş və ISO 9001:2015 beynəlxalq standartının tələbləri əsas götürülmüşdür. Belə ki, Komitənin aparatında və yerli statistika orqanlarında qurulmuş Keyfiyyəti İdarəetmə Sisteminin (KİS) ISO 9001:2015 beynəlxalq standartının tələblərinə uyğun təkmilləşdirilməsi məqsədilə statistika proseslərinin təşkilinin və məlumatların keyfiyyətinin təmin olunması üçün ümumi qayda və standartlar müəyyənləşdirilmiş, onların tətbiqi və icrasına nəzarət mexanizmləri hazırlanmış, sənədləşdirmənin KİS-in beynəlxalq standartlarına uyğun həyata keçirilməsi istiqamətində əsaslı işlər görülmüşdür.

Qeyd olunanlarla yanaşı ISO 9001:2015 beynəlxalq standartının tələblərinə uyğun olaraq sənədlərin tərtibatının, təsdiqinin, tətbiqinin, qeydiyyatının, onlarda dəyişikliklərin edilməsinin, daxili auditlərin təşkilinin və nəticələrinin sənədləşdirilməsinin, uyğunsuzluqların aşkar edilməsinin, təhlilinin, onların aradan qaldırılması və təkrar baş verməməsi üçün təshihedici və qabaqlayıcı tədbirlərin görülməsinin, istifadəçi məmnunluğunun təmin edilməsinin və onlarla əks-əlaqələrin təşkilinin, KİS-in rəhbərlik tərəfindən təhlilinin qaydalarını müəyyənləşdirən müvafiq sənədləşdirilmiş prosedurlar, həmçinin "Keyfiyyət üzrə vəsait"in Komitənin aparatı ilə yanaşı, bütün yerli statistika orqanları tərəfindən hazırlanaraq istifadəsi təmin edilmişdir.

Bunların nəticəsidir ki, Dövlət Statistika Komitəsi aparatının struktur bölmələrində və keyfiyyəti idarəetmə sisteminin tətbiq edildiyi yerli statistika orqanlarında keçirilmiş növbəti sertifikatlaşma auditinin nəticələrinə əsasən Komitənin aparatı və 45 yerli statistika orqanı "Rəsmi statistika məlumatlarının istehsalı və yayılması" sahəsində ISO 9001:2015 beynəlxalq uyğunluq sertifikatına layiq görülmüşdür.

**– Müasir dövrdə statistikanın rəqəmsallaşdırılmasına, "Big data"dan istifadə ilə bağlı məsələlərə xüsusi önəm verilir. Dövlət Statistika Komitəsində bununla bağlı hansı işlər görülür?**

– Rəqəmsallaşma, elektron statistikanın inkişafı məqsədilə görülmüş işlər nəticəsində son 10 ildə elektron statistika xidmətlərinin çeşidi genişləndirilmiş və keyfiyyəti artırılmışdır. Respondentlərin yerli statistika orqanlarına gəlmədən hesabat məlumatlarını elektron formada təqdim etmələri üçün zəruri tədbirlər həyata keçirilmiş və nəticədə rəsmi statistika hesabatlarının onlayn rejimdə elektron formada qəbulu tam təmin olunaraq vətəndaş-məmur təmaslarının səviyyəsi minimuma endirilmiş, eyni zamanda statistik məlumatların işlənməsi və təhlili imkanları yüksəlmişdir. Statistik məlumat ehtiyatlarının formalaşdırılmasının bütün mərhələlərində istifadə olunan texnoloji sxemlərin vahid şəklə salınması hesabına ilkin məlumatın daxil edilməsi ilə bağlı əlavə yük statistika qurumlarının üzərindən götürülmüş və statistika sistemində mexaniki insan əməyinin həcmi azaldılmışdır.

*(davamı 10-cu səhifədə)*

# Azərbaycan statistikası 105 yaşını Zəfər təntənələri ilə qeyd edir

*(əvvəli 9-cu səhifədə)*

Hesabat təqdim edən müəssisələrə öz hesabatlarını birbaşa məlumat bazalarına daxil edib onları yoxlamaq, düzəliş etmək və çap etmək imkanı yaradılmışdır. Bundan başqa, Komitənin rəsmi internet səhifəsi (www.stat.gov.az) istifadəçilərin maraqlarının təmin edilməsi baxımından müntəzəm olaraq təkmilləşdirilmiş və yenilənmiş, məlumat bazaları əsas sosial-iqtisadi göstəricilər üzrə çoxsaylı cədvəlləri, təhlil və metodoloji materialları əhatə etmişdir. İnternet səhifədən, elektron xidmətlərdən istifadə vəziyyətinin, məlumatların əldə edilməsi ilə bağlı göstərilən xidmətlərin keyfiyyətinin, yayımlanan məlumatların dolğunluğunun, ümumiyyətlə, istifadəçilərin məmnunluq dərəcəsinin qiymətləndirilməsi məqsədilə sorğuların keçirilməsi təmin olunmuş, media subyektlərinin və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin də iştirak etdiyi bu sorğuların nəticələri ümumiləşdirilərək komitənin internet səhifəsində yerləşdirilmişdir.

İnzibati məlumat mənbələrindən və "Big data"dan istifadəyə gəlincə, hüquqi və fiziki şəxslər tərəfindən müxtəlif dövlət qurumlarına təqdim edilən məlumatlar üzrə təkrarçılığın aradan qaldırılmasına, inzibati vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar dövlət qurumları tərəfindən toplanan məlumatların rəsmi statistikada istifadəsinin genişləndirilməsinə, həmin məlumatların statistik məlumat bazalarına inteqrasiyası ilə bağlı zəruri tədbirlərin görülməsinə də xüsusi diqqət yetirilmişdir. Dövlət qurumlarının məlumat bazalarının statistik məlumat bazasına "Elektron hökumət" şlüzü vasitəsilə inteqrasiyasını təmin etmək üçün bir sıra razılaşmalar imzalanmışdır.

"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Koreya Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" əsasında Koreya Statistika Komitəsi ilə birgə həyata keçirilən "İnteqrasiya olunmuş inzibati məlumat bazalarının idarə olunması sisteminin yaradılması" layihəsi çərçivəsində Dövlət Statistika Komitəsində "İnzibati məlumatların idarə olunması sistemi - ADİS"in yaradılması bu sahədə yeni texniki imkanlar yaratmışdır.

Statistika sahəsində İKT-nin inkişafı və ticarət şəbəkələri ilə partnyor münasibətlərinin yeni müstəvidə qurulması istehlak qiymətlərinin qeydiyyatı prosesini daha da təkmilləşdirməyə imkan vermişdir. Belə ki, Bakı və ölkənin digər iri şəhərlərində fəaliyyət göstərən iri ticarət şəbəkələri ilə əldə olunmuş razılığa əsasən Dövlət Statistika Komitəsinə elektron formada təqdim olunan pərakəndə satış qiymətlərinə dair məlumatların istehlak qiymətləri indeksinin hesablanması üçün nəzərdə tutulan məlumat bazasına 2019-cu ildə baş tutmuş inteqrasiyası nəticəsində məlumatların mütəmadi olaraq ötürülməsi təmin edilmişdir.

Bu, istehlak qiymətləri indeksinin hesablanmasının keyfiyyətinin artırılmasına imkan yaratmaqla yanaşı, MDB məkanında irihəcmli məlumatlardan ("Big Data") istifadə sahəsində ilk təcrübə olmuşdur. 2020-ci ilin birinci yarısından başlayaraq iri ticarət şəbəkələrindən elektron formada əldə olunan pərakəndə satış qiymətlərinə dair məlumatların əhatə dairəsi genişləndirilmiş, Bakı şəhəri ilə yanaşı, ölkənin digər bölgələrində fəaliyyət göstərən ticarət obyektlərindən də məlumatların elektron formada qəbul edilməsinə başlanmışdır.

**– İstifadəçilərin rəsmi statistika məlumatlarına əlçatanlığının, statistik savadlılığın artırılması ilə bağlı hansı addımlar atılmışdır?**

– Statistik istehsal prosesinin təkmilləşdirilməsi, məlumatların keyfiyyətinin yüksəldilməsi və beynəlxalq müqayisəliliyinin təmin edilməsi informasiya texnologiyalarının verdiyi imkanlardan daha geniş istifadəni şərtləndirir. İnnovativ texnologiyalar əsasında statistik potensialın gücləndirilməsi üçün həyata keçirilməsi tələb olunan belə fəaliyyətlərdən biri də rəsmi statistika sistemində vahid platforma üzərində metaməlumatlarla müşayiət olunan məlumat bazalarının yaradılması, onların müasir yayım standartlarına uyğun istifadəçilərə təqdim olunmasıdır ki, bu məqsədlə də Dövlət Statistika Komitəsi tərəfindən zəruri addımlar atılmış, qabaqcıl ölkələrdə tətbiq edilən innovativ yanaşmalar və ən yeni standartlar öyrənilərək onların milli statistika sisteminə inteqrasiyası həyata keçirilmişdir.

Koreya Statistika Komitəsi ilə birgə həyata keçirilmiş "Azərbaycan Respublikasında Statistik Potensialın Gücləndirilməsi" layihəsi çərçivəsində "Azərbaycanın Statistik İnformasiya Xidməti – ASİS" statistik məlumatların yayım sistemi hazırlanmış və istismara qəbul edilmişdir. ASİS-in əsas üstünlüyü onun sadə strukturda, məlumatların yayımı sahəsində beynəlxalq səviyyədə tətbiq olunan standartlara uyğun üslubda hazırlanması və istifadəçiyönümlü olmasıdır ki, hər bir istifadəçi bu imkandan yararlanmaqla məlumat bazasında yerləşdirilmiş rəsmi statistika məlumatları əsasında öz istəyinə uyğun real vaxt rejimində cədvəllər, dinamika sıraları tərtib edə, məlumatları qrafiklər vasitəsilə vizuallaşdıra, çap edə və ya öz kompüterinə yükləyə bilər. Bunlardan başqa, Komitənin rəsmi internet səhifəsi daim yenilənmiş, regional bölgüdə statistik məlumatların vizuallaşdırılması məqsədilə "Regionların portretləri" portalı yaradılmış, hasilat sənayesində şəffaflıq üzrə hesabatların toplanması və açıqlanması ilə bağlı "Hasilat Sənayesində Şəffaflıq" Portalı hazırlanaraq ictimaiyyətə təqdim edilmişdir.



Elektron xidmətlərin "Elektron hökumət" portalı vasitəsilə təqdimatına dair vətəndaşlar arasında ictimai maarifləndirmə tədbirlərinin həyata keçirilməsi məqsədilə Komitənin rəsmi internet səhifəsinin "E-xidmətlər" bölməsində bu xidmətlər haqqında ətraflı məlumatlar yerləşdirilmiş, "Facebook", "Youtube", "X" və "Instagram" sosial şəbəkələrində Komitənin səhifəsinin aktiv fəaliyyəti təmin edilmiş və ölkənin sosial, iqtisadi göstəricilərini əks etdirən infoqrafikalar və videoçarxlar hazırlanaraq yayımlanmışdır.

Statistika elminin nailiyyətlərinin, iqtisadi-statistik təhlillərin, mühüm statistik göstəricilərin və onların hesablanma metodologiyalarının, statistikaya dair beynəlxalq aləmdə baş verən yeniliklərin geniş ictimaiyyətə çatdırılması məqsədilə "Statistika xəbərləri" elmi-praktik jurnalı təsis edilərək Azərbaycan Respublikası Ədliyyə Nazirliyində Mətbu nəşrlərin reyestrinə daxil edilmiş və Beynəlxalq Standart Seriya Mərkəzində qeydə alınmışdır. 2015-ci ilin oktyabr ayında "Statistika xəbərləri" elmi-praktik jurnalının ilk nömrəsi nəşr olunmuş, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 31.03.2017-ci il tarixli qərarı ilə qeydiyyata alınmışdır.

Məktəblilər üçün "Azərbaycanı öyrənirik" məcmuəsi hazırlanaraq Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmış və çoxaldılaraq, ölkə üzrə hər məktəbə 2 nüsxədə təqdim edilmişdir. 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar "Heydər Əliyev – 100: Bir Ömrün Əbədiyyəti" adlı statistik məcmuə hazırlanmış, ilk dəfə olaraq yuxarı sinif şagirdləri və ali məktəb tələbələri arasında Statistik olimpiada keçirilmişdir. Ümumdünya Statistika Günü ilə əlaqədar cari ildə də yuxarı sinif şagirdləri və ali məktəb tələbələri arasında növbəti dəfə statistik olimpiadanın təşkili, Bakı şəhərində "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda 3-cü Beynəlxalq Statistika Forumunun keçirilməsi həm dövlətimizin beynəlxalq imicinin möhkəmlənməsi, qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi, Azərbaycanın sosial-iqtisadi, mədəni və siyasi sahələrdə əldə etdiyi nailiyyətlərin nümayiş etdirilməsi, həm də statistikanın populyarlaşması baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

**– Tahir müəllim, Dövlət Statistika Komitəsi hansı xarici ölkələrin və beynəlxalq təşkilatların statistika qurumları ilə əməkdaşlıq edir? Bu, milli kadr potensialının möhkəmləndirilməsinə necə təsir edir?**

– Beynəlxalq təcrübədən bəhrələnməklə milli statistika potensialının gücləndirilməsi, qabaqcıl milli təcrübə əsasında beynəlxalq metodoloji bazanın təkmilləşdirilməsinə töhfə verilməsi, müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə statistik innovasiyaların tətbiqinə dair təcrübə mübadiləsi daim Dövlət Statistika Komitəsinin əsas prioritetlərindən biri olmuşdur. Milli statistika sisteminin daha da təkmilləşdirilməsi, statistik kadr potensialının gücləndirilməsi, statistika sahəsində müasir metodologiya və beynəlxalq standartların mənimsənilməsi məqsədilə BMT və onun regional iqtisadi komissiyaları, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO), BMT-nin Uşaq Fondu (UNICEF), BMT-nin Sənaye İnkişaf Təşkilatı (UNİDO), Avrostat, BVF, BƏT, Dünya Bankı, Asiya İnkişaf Bankı, İƏİT, İqtisadi Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Nəqliyyat Forumu, Beynəlxalq Miqrasiya Təşkilatı, Ümumdünya Ticarət Təşkilatı, Beynəlxalq Yol Federasiyası, TRASECA, Beynəlxalq Energetika Agentliyi, MDB-nin Dövlətlərarası Statistika Komitəsi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. kimi beynəlxalq təşkilatların və bir çox ölkənin statistika orqanları ilə əməkdaşlıq təşkil edilmiş və məlumat mübadiləsi aparılmışdır.

Dövlət Statistika Komitəsi ilə 17 ölkənin statistika orqanı, Avrostat və İslam Əməkdaşlıq Təşkilatının İslam ölkələri üçün Statistik, İqtisadi və Sosial Tədqiqat və Təlim Mərkəzi (SESRIC) arasında statistika sahəsində əməkdaşlığa dair sazişlər, anlaşma memorandumları, birgə niyyət bəyannamələri və əməkdaşlıq proqramları imzalanmışdır.

Dövlət Statistika Komitəsinin kadr potensialının gücləndirilməsi, modul tipli milli statistik təlim proqramlarının hazırlanması, müasir statistik təlim proqramlarının və innovativ texnologiyaların tətbiqi ilə sosial, iqtisadi statistika və ev təsərrüfatları arasında seçmə statistik müayinələrin aparılması sahəsində milli mütəxəssislərin peşəkarlıq səviyyəsinin artırılması sahəsində Koreya Statistika Komitəsi (KOSTAT) ilə əməkdaşlıq xüsusi əhəmiyyət kəsb etmişdir. KOSTAT ilə tərəfdaşlıq çərçivəsində 2018-2022-ci illərdə "Azərbaycanın statistik potensialının gücləndirilməsi", "Kadr potensialının inkişafı", "Elektron təlim portalının yaradılması", "İnzibati məlumat bazalarının idarə olunması sisteminin tətbiqi" adlı layihələr uğurla icra olunmuşdur.

Qeyd olunanların nəticəsidir ki, Azərbaycanda ən yüksək tələblərə cavab verən "Azərbaycanın Statistik İnformasiya Xidməti – ASİS" statistik məlumatların yayım sistemi hazırlanmış, Komitədə müasir informasiya texnologiyaları avadanlıqları ilə təchiz edilmiş təlim otağı yaradılmış, statistik kadr potensialının gücləndirilməsi məqsədilə KOSTAT tərəfindən modul tipli statistik təlim proqramları hazırlanmışdır.

Milli statistika sisteminin inkişafı ilə bağlı Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi ilə əməkdaşlıq çərçivəsində "Avropa standartlarına çatmaq üçün Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə Aİ-nin dəstəyi" yeni texniki yardım layihəsi çərçivəsində Bolqarıstan, Niderland, Litva, Polşa, Ukrayna, Xorvatiya mütəxəssisləri tərəfindən Dövlət Statistika Komitəsinə ekspert missiyaları təşkil edilmiş, Komitənin əməkdaşları Niderland, Litva, Bolqarıstan, Portuqaliya və Rumıniyaya ezam olunaraq statistik təsnifatların tətbiqi, istehsalçı qiymət indeksləri, statistik keyfiyyətin idarə edilməsi sistemi və digər sahələrdə beynəlxalq təcrübəni öyrənmişlər.



Bütün bunların nəticəsidir ki, Dövlət Statistika Komitəsinin əməkdaşları artıq beynəlxalq ekspert qismində digər ölkələrin mütəxəssislərinin hazırlanmasına cəlb olunurlar. Belə ki, 2024-cü ildə Statistik Potensialın Artırılması Proqramı (StatCaB) çərçivəsində İslam Ölkələrinin Statistik, İqtisadi və Sosial Tədqiqatlar və Təlim Mərkəzinin (SESRIC) təşkilatçılığı ilə İƏT-ə üzv 25 ölkənin milli statistika qurumlarının 115 əməkdaşı üçün Komitənin mütəxəssisləri tərəfindən "Əmək bazarının monitorinqi: işçi qüvvəsi müayinələrinin aparılması və təhlili" mövzusunda onlayn təlim keçirilmişdir.

Ötən illər ərzində Dünya Bankı ilə əməkdaşlığa da xüsusi diqqət yetirilmişdir. İnstitusional inkişaf, kadr potensialının gücləndirilməsi və informasiya-kommunikasiya texnologiyalarının inkişafını əhatə edən layihə həyata keçirilmiş, milli statistika sisteminin kompleks diaqnostikası aparılmış və "Azərbaycan Respublikasında statistikanın inkişafına dair Milli Strategiya (2019–2030-cu illər)" hazırlanmışdır.

BMT-nin İnkişaf Proqramı (UNDP) ilə birlikdə DİM üzrə milli informasiya portalı yaradılmış, BMT-nin Əhali Fondu (UNFPA) tərəfindən əhalinin siyahıyaalınmasına hazırlıq prosesinə dəstək göstərilmiş, UNICEF ilə birlikdə Çoxgöstəricili Klaster Sorğusu (MICS), FAO-nun dəstəyi ilə kənd təsərrüfatı siyahıyaalınmasının rəqəmsallaşdırılması həyata keçirilmişdir.

Dövlət Statistika Komitəsi Beynəlxalq Müqayisələr Proqramında və "MDB ölkələrində statistikanın inkişafı" layihəsində fəal iştirak edir.

Azərbaycanın milli statistika sisteminə dair beynəlxalq əməkdaşlıqda BMT AİK, Avrostat və Avropa Azad Ticarət Assosiasiyası tərəfindən aparılmış qlobal qiymətləndirmə mühüm yer tutur. Qlobal qiymətləndirmə nəticəsində Azərbaycanın milli statistika sisteminin daha da təkmilləşdirilməsi üçün verilmiş tövsiyələrin icrası təmin edilmişdir. Hazırda növbəti qlobal qiymətləndirmənin keçirilməsi ilə bağlı hazırlıq işlərinə başlanılmışdır.

**– Son olaraq bilmək istərdik ki, Dövlət Statistika Komitəsinin qarşısında hansı hədəflər durur?**

– Hesab edirik ki, yuxarıda qeyd olunan nailiyyətlərin əldə olunmasına baxmayaraq, iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə statistik göstəricilər sisteminin, metodologiyaların hazırlanması və təkmilləşdirilməsi, müşahidələrin aparılması, əldə edilən statistik məlumatların yayımı, ümumilikdə rəsmi statistika qarşısında duran vəzifələrin vaxtında və keyfiyyətlə icrası statistik istehsalın hüquqi və informasiya təminatının, beynəlxalq əməkdaşlığın, statistika orqanlarının maddi-texniki bazasının və kadr potensialının daha da gücləndirilməsi, habelə milli statistika sisteminin növbəti çoxillik dövr üzrə strateji inkişaf prioritetlərinin müəyyənləşdirilməsini şərtləndirir.

Dövlət Statistika Komitəsi tərəfindən 2026-2030-cu illərdə rəsmi statistikanın inkişafına dair növbəti hədəflər müəyyən edilmişdir. Belə ki, BMT-nin Dayanıqlı İnkişaf Sammitində qəbul olunmuş "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də statistika potensialının gücləndirilməsini öhdəlik kimi qəbul etməklə yanaşı, üzv dövlətlər DİM ilə qarşıya qoyulmuş hədəflərə nailolma vəziyyətinin monitorinqi, müəyyən edilmiş sosial-iqtisadi siyasət kursuna uyğun çevik idarəetmənin təmin edilməsi üçün dəqiq və dolğun, dezaqreqasiya olunmuş rəsmi statistik məlumatları hazırlayaraq istifadəçilərə təqdim etməlidirlər.

Bununla əlaqədar BMT-nin Statistika Komissiyasının hər il keçirilən sessiyasında DİM üzrə göstəricilər, məqsədlərə nailolma vəziyyəti üzrə işlərin gedişatı və statistik potensialın gücləndirilməsi ilə bağlı mütəmadi olaraq məruzələr hazırlanaraq müzakirəyə çıxarılır, əldə olunmuş nailiyyətlərə və prioritetlərə baxılır, müvafiq qərarlar qəbul edilməklə dünya ölkələrinə bu sahədə fəaliyyətlərin gücləndirilməsi ilə bağlı tövsiyə və çağırışlar edilir.

Yeni hədəflərin icrası demoqrafiya və əhali sakinliyi, milli hesablar, kənd təsərrüfatı, sənaye, nəqliyyat və turizm, işçi qüvvəsi, ev təsərrüfatları büdcələri, əhalinin fasiləsiz təhsildə iştirakı, əlilliyi olan şəxslərin, peşə və orta ixtisas təhsili müəssisələrinin məzunlarının məşğulluğu ilə bağlı aktual statistik məlumatların əldə olunmasına, eləcə də statistikanın yeni sahələri kimi formalaşmaqda olan "yaşıl" inkişaf, rəqəmsal iqtisadiyyat, mədəni və yaradıcı sənaye sahələri, elm, texnologiya və innovasiyalarla bağlı yeni göstəricilər üzrə statistik istehsalın təşkilinə yönəldilib.

Nəzərdə tutulan tədbirlər inzibati məlumat mənbələrindən istifadəni genişləndirməklə respondentlərin üzərinə düşən statistik yükün azaldılmasına, beynəlxalq səviyyədə makroiqtisadi müqayisələr üçün ən mühüm beynəlxalq statistika standartı kimi qəbul olunan Milli Hesablar Sisteminin yenilənmiş 2025-ci il versiyasının (MHS-2025) tətbiqi ilə beynəlxalq müqayisəliliyi təmin etməklə informasiya təminatının yüksəldilməsinə, eləcə də statistik istehsalın hüquqi və informasiya təminatının, beynəlxalq əməkdaşlığın, statistika orqanlarının maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsinə, milli statistika sisteminin fəaliyyətini qiymətləndirməklə növbəti strateji inkişaf prioritetlərinin müəyyən olunmasına, ümumilikdə rəsmi statistikanın dayanıqlı inkişafına mühüm töhfə verəcəkdir.

**– Statistika sahəsində görülmüş işlər barədə ətraflı məlumat verdiyinizə görə təşəkkür edirik.**

*Müsahibəni qələmə aldı:*
*Tahir AYDINOĞLU*
*XQ*

# Azərbaycanın şəhərsalma modeli

**Dünən Xankəndi şəhərində keçirilən III Azərbaycan Milli Şəhərsalma Forumu öz işini davam etdirib.**

Forumun ikinci günündə çıxış edən BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) regional məsləhətçisi Katya Şefer şəhər və kənd arasında tarazlı inkişafın sosial rifah üçün əsas şərt olduğunu vurğulayaraq bildirib ki, şəhərsalma siyasətləri təkcə iri şəhərlərə deyil, həm də kənd və aralıq şəhərlərin inkişafına yönəlməlidir. Onun sözlərinə görə, kənd–şəhər əlaqələri insanların, malların, xidmətlərin və maliyyə axınlarının qarşılıqlı hərəkətinə əsaslanır və bu proses regionların iqtisadi və sosial inteqrasiyasını təmin edir.

BMT rəsmisi qeyd edib ki, urbanizasiya təzyiqləri Böyük Bakının ətrafında getdikcə artır, torpaq, su və tullantıların idarə olunması kimi məsələlər artıq sağlam yaşayışın əsas göstəricilərinə çevrilib. Rəqəmsallaşma və yeni texnologiyaların gənclərin məşğulluq imkanlarını artırmaqla, şəhər və kənd arasında sosial-iqtisadi körpü rolunu oynaya biləcəyini vurğulayan Katya Şefer onu da deyib ki, Azərbaycanın regional inkişaf siyasətində Gəncə, Şəmkir və Zəngilan kimi şəhərlərin funksional rolu müəyyən edilməlidir: "Qloballaşma proseslərini nəzərə alaraq, Azərbaycanın funksional ərazilərini düzgün müəyyənləşdirmək vacibdir. Sumqayıt və Gəncə kimi şəhərlərin bir-birinə nisbətdə hansı rola malik olduğunu aydınlaşdırmaq lazımdır".

Prezidentin Ağdam, Füzuli və Xocavənd rayonları üzrə xüsusi nümayəndəsi Emin Hüseynov çıxışında qeyd edib ki, Böyük Qayıdış Proqramı çərçivəsində gələn ay Ağdama ilk 900 ailənin qayıdışı gözlənilir. Onun sözlərinə görə, artıq bölgədə ümumi uzunluğu 600 kilometr təşkil edən 16 magistral yol və Bakı–Ağdam dəmir yolu yenidən qurulub, bir beynəlxalq hava limanı isə cəmi 8 ay ərzində istifadəyə verilib.

Xüsusi nümayəndə əlavə edib ki, Ağdamın 3 kəndində artıq məskunlaşma başa çatıb, təxminən, 4 min nəfər geri qayıdıb. Hazırda bölgədə iqtisadi cəhətdən fəal əhalinin 2 min 200 nəfər olduğunu bildirən E.Hüseynov Qırmızı Bazar, Sus və Hadrut qəsəbələrinə ilk köçlərin baş tutduğunu və bu prosesin ilin sonuna qədər davam edəcəyini diqqətə çatdırıb. Bundan əlavə, ilin sonuna qədər 1300-1500 ailənin Xocavənd rayonuna köçməsi də təmin olunacaq.

"SA Partners" şirkətinin təsisçi tərəfdaşı Dunya Kovar-Binqgeli çıxış edərək deyib ki, azad edilmiş ərazilərdə aparılan şəhərsalma işlərinin əsas məqsədi təbiət və insan arasında harmoniyanı qoruyan, iqlimədavamlı şəhərlər yaratmaqdır. Zəngilanın baş planının təhlükəsiz, yaşanılan




və dayanıqlı həyat üçün hazırlandığını vurğulayan şirkət rəsmisi bu yaşayış məntəqəsinin 15 dəqiqəlik şəhər modeli əsasında planlaşdırıldığını diqqətə çatdırıb.

Mütəxəssis vurğulayıb ki, Zəngilanın planlaşdırılması "yaşıl və mavi şəbəkə" konsepsiyası üzərində qurulub, şəhərdə parklar, təbii hava dəhlizləri və yaşıl zonalar yaradılacaq. O, həmçinin dairəvi məktəb binası və sıralı mənzillər kimi yeni memarlıq prototiplərinin Azərbaycanda ilk dəfə tətbiq olunduğunu bildirib. Bu yanaşmanın Kəlbəcərdə də tətbiq olunduğunu söyləyən Dunya Kovar-Binqgeli burada şəhərsalma layihələrinin dağlıq relyefə uyğunlaşdırıldığını və binaların yaşıl məkanlarla bir-birinə inteqrə edildiyini bildirib.

Azərbaycan Dövlət Mənzil İnşaatı Agentliyinin aparat rəhbəri Fərman Qurbanlı çıxışında Qarabağda həyata keçirilən mənzil layihələrinin Böyük Qayıdış prosesinin əsas istiqamətlərindən biri olduğunu xatırladıb. Qeyd olunub ki, Qarabağ bölgəsində üç layihə uğurla başa çatdırılıb, Füzuli, Cəbrayıl və Xocavənd rayonlarında, ümumilikdə, 1700-dən çox ailə yeni mənzillərə köçürülüb. Onun sözlərinə görə, layihələr çərçivəsində yalnız yaşayış binaları deyil, həm də sosial infrastruktur yaradılıb: "22 sosial obyektin tikintisinə başlanılıb, onların 16-sı artıq istifadəyə verilib – bunlar 5 məktəb, 9 uşaq bağçası və 2 tibb müəssisəsidir".

Son 9 ildə agentlik tərəfindən 18 layihənin icra edildiyini diqqətə çatdıran F.Qurbanlı onlardan 8-i üzrə 12 min mənzilin tam istifadəyə verildiyini, hazırda 4 layihə üzrə tikinti, 3 layihə üzrə isə layihələndirmənin davam edirildiyini bildirib.

Prezidentin Qubadlı, Cəbrayıl və Zəngilan rayonları üzrə xüsusi nümayəndəsi Vahid Hacıyev çıxış edərək bildirib ki, Qarabağda bütün şəhərlər sıfırdan, yaşıl və ağıllı konsepsiya ilə qurulur. Azərbaycan hökumətinin Böyük Qayıdış Dövlət Proqramı çərçivəsində azad edilmiş ərazilərdə tamamilə yeni urbanizasiya modelinin həyata keçirdiyini xatırladan xüsusi nümayəndənin sözlərinə görə, Qarabağda və Şərqi Zəngəzurda təkcə dağıdılmış şəhərlər bərpa edilmir, həm də sıfırdan dayanıqlı və ağıllı yaşayış mühitləri yaradılır: "Bütün şəhər və kəndlərin baş planları müasir şəhərsalma prinsipləri əsasında hazırlanıb. Yeni yaşayış məntəqələrində sakinlər xəstəxana, məktəb, uşaq bağçası və xidmət mərkəzlərinə 15 dəqiqə ərzində çata biləcəklər. Bu, yaşıl və səmərəli həyat tərzini təşviq edən "15 dəqiqəlik şəhər modeli"dir. Ağalı və Məmətbəyli kəndləri bu modelin nümunəsidir. Bu kəndlər bir-birinə yaxın salındığı üçün məktəb, bağça və xidmət mərkəzləri birgə istifadə olunur. Bu yanaşma həm büdcəyə qənaət, həm də sakinlər üçün rahatlıq təmin edir".

Türkiyənin Ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi nazirinin müavini Ömər Bulut isə çıxışında Azərbaycan hökumətinin müharibədən sonrakı bərpa prosesində nümunəvi şəhərsalma yanaşması nümayiş etdirməsinə diqqət çəkib: "Bütün dünyanın görməsi lazımdır ki, Azərbaycan şəhərlərini bərpa edərkən nə qədər həssas və insanlıq prinsiplərinə sadiq davranır. Qarabağda möhtəşəm işlər görülüb". Türkiyə rəsmisi əlavə edib ki, Azərbaycanın Bakıdan Qarabağa gedən yolları və çoxsaylı infrastruktur layihələri türk şirkətləri tərəfindən inşa olunub.

Qeyd edək ki, III Azərbaycan Milli Şəhərsalma Forumu bu gün öz işini başa çatdıracaq.

# Seysmik texnologiyalar yeniləşir

**BP-nin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Dövlət Neft Şirkəti (SOCAR) ilə əməkdaşlıqda keçirdiyi yüksək performanslı hesablama (HPC), hövzənin tədqiqi innovasiyaları, seysmik emal və məlumatların toplanması sahəsində irəliləyişlərə həsr olunmuş ikigünlük texniki seminarda bu qurumların mütəxəssisləri bilik və təcrübə mübadiləsi aparmış, gələcək əməkdaşlıq imkanlarını araşdırmışlar.**



Seminarda müzakirə edilən əsas mövzulardan biri Azərbaycanın HPC sahəsində imkanları ilə bağlı olub. İqtisadiyyat Nazirliyinin nümayəndələri ölkədə yeni yaradılmış superkompüter imkanını təqdim edərək onun enerji sektorunda innovasiyaların sürətləndirilməsinə töhfə verə biləcək potensialını vurğulayıblar. Qeyd olunub ki, belə bir imkanın yaradılması ölkənin öz rəqəmsal transformasiyasını dəstəkləmək üçün güclü HPC infrastrukturu qurmaq öhdəliyini əks etdirir.

BP-nin qlobal yüksək performanslı hesablama təcrübəsinin müzakirəsi zamanı qurumun mütəxəssisləri şirkətin Hyustonda yerləşən HPC mərkəzinin fəaliyyəti barədə məlumat veriblər. Bildirilib ki, bu mərkəz BP-nin texniki innovasiyalarını irəli aparmaqla yanaşı, lay simulyasiyası, rəqəmsal süxurlar, data elmi, seysmik görüntüləmə və hövzə modelləşdirilməsi sahələrində imkanlarını genişləndirir. Dövlət Neft Şirkətinin nümayəndələri isə Azərbaycanda seysmik məlumatların toplanması və emalı sahəsində gələcək planları təqdim edərək bu texnologiyaların region üçün strateji əhəmiyyətini vurğulayıblar.

Seminar çərçivəsində əməkdaşlıq layihələrinə də toxunulub. BP şirkəti texniki imkanların artırılması və innovasiyaların sürətləndirilməsi məqsədilə həyata keçirilən mövcud və planlaşdırılan əməkdaşlıq təşəbbüslərini təqdim edib. Sonda isə seysmik texnologiyalarda süni intellektin tətbiqi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Xəzər İnnovasiya Mərkəzinin mütəxəssisləri SOCAR-ın seysmik süni intellekt tətbiqləri sahəsində son nailiyyətlərini göstərərək süni intellektin lay görüntüləməsinə yeniliklər gətirdiyini və qərarların verilməsini sürətləndirdiyini nümayiş etdiriblər.

Seminarda sənaye ilə hökumət arasında davamlı əməkdaşlığın vacibliyini bir daha vurğulamaqla yanaşı, sağlam rəqabətin olmasının da regionun texnoloji irəliləyişində və Azərbaycanın qabaqcıl enerji texnologiyaları sahəsində regional lider mövqeyinin gücləndirilməsində əhəmiyyətli rol oynadığı da diqqətə çatdırılıb.

# "Araz Vadisi"ndə soyutma avadanlığı da buraxılacaq

**Bugünlərdə "Az Thermo King" MMC-yə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti statusu verilib. Bununla da parkın rezidentlərinin sayı 19-a çatıb.**

Yeni sahibkarlıq subyekti parkın ərazisində soyutma avadanlıqlarının istehsalı layihəsini həyata keçirəcək. Bu məqsədlə ərazidə il ərzində 5 növdə olmaqla 3,7 min soyutma avadanlıqları istehsal etmək gücündə olan müəssisə inşa ediləcək. İnvestisiya dəyəri 8 milyon manat təşkil edən layihə çərçivəsində istehsal olunacaq məhsulların daxili bazarda satışı ilə yanaşı, ixracı da planlaşdırılır.



**Ölkəmizdə iqtisadi və sosial tərəqqinin əsas göstəricisi sayılan ümumi daxili məhsul (ÜDM) istehsalında müşahidə olunan artım tendensiyası cari ilin ötən dövründə də davam edib. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2025-ci ilin yanvar-sentyabr aylarında Azərbaycanda 95,2 milyard və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,3 faiz çox ümumi daxili məhsul istehsal olunub. Bu dövrdə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər istehsalı 1,9 faiz azalsa da, qeyri neft-qaz sektorunda 2,9 faiz artım baş verib.**

# Qeyri-dövlət sektorunun sənayedə payı artıb

## *9 ayda ölkədə 47,3 milyard manatlıq sənaye məhsulu istehsal olunub*



Azərbaycanda ümumi iqtisadi artımın əsas hissəsi ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış neft strategiyasının uğurlu nəticələri hesabına təmin olunsa da, son illər qeyri-neft-qaz sektoru üzrə də xüsusi fəallıq nəzərə çarpır. Bu da Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin məntiqi nəticəsidir. Müqayisə üçün qeyd edək ki, 2010-cu ildə ölkəmizin qeyri-neft-qaz sektorunda 18,4 milyon manatlıq məhsul istehsal olunduğu halda, 2024-cü ildə bu göstərici 85 milyard 712,4 milyon manat təşkil edib. Bir mühüm fakt da ondan ibarətdir ki, Azərbaycanın qeyri-neft-qaz ÜDM-i 2022-2024-cü illərdə hər il orta hesabla 6,6 faiz, ümumilikdə isə, 1,2 dəfə artıb.

Ölkə iqtisadiyyatının qeyri-neft-qaz sektorunun inkişafında müşahidə olunan sürətli artım tendensiyası 2025-ci ilin yanvar-sentyabr aylarında da davam edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin 9 ayında qeyri-neft-qaz sahələri üzrə məhsul istehsalı 66 milyard 724,5 milyon manat təşkil edib ki, bu da əvvəlki ilin eyni dövrünə nisbətən 2,9 faiz artım deməkdir.

Bu ilin 9 ayında ölkə üzrə istehsal olunmuş ümumi daxili məhsulun 34,2 faizi iqtisadiyyatının əsas sahəsi sayılan sənayenin payına düşüb. Hesabat dövründə sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 47,3 milyard manatlıq məhsul istehsal edilib. Hesabat dövründə sənayenin neft-qaz sektorunda məhsul istehsalı azalsa da, qeyri-neft-qaz sektorunda 4,8 faiz artım qeydə alınıb.

Komitənin məlumatına əsasən, cari ilin 9 ayında istehsal olunmuş sənaye məhsulunun 60,9 faizi mədənçıxarma, 32,7 faizi emal, 5,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarının payına düşüb. Hesabat dövründə sənayedə qeyri-dövlət sektorunun payı 79,5 faiz olub. Ümumi istehsalın 88,6 faizi sənaye məhsullarının buraxılışı, 11,4 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılıb.

Bu ilin yanvar-sentyabr aylarında 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə qısamüddətli istifadədə olan malların istehsalı 8,4 faiz, istehsal vasitələrinin istehsalı 0,9 faiz artıb, aralıq istehlak məhsullarının istehsalı 0,8 faiz, enerji məhsullarının istehsalı 1,4 faiz, uzunmüddətli istifadədə olan istehlak mallarının istehsalı 5 faiz azalıb.

İstehsal edilmiş məhsulun böyük hissəsinin istehlakçılara göndərilməsi təmin edilib. Beləliklə, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla 2025-ci il oktyabrın 1-nə sənaye müəssisələrinin anbarlarında 849,4 milyon manatlıq hazır məhsul olub. Ehtiyatların 54,6 faizi Bakı, 12,6 faizi Sumqayıt, 4,7 faizi Gəncə, 0,3 faizi Şirvan şəhərlərinin, 1,4 faizi Naxçıvan Muxtar Respublikasının, qalan hissəsi isə digər şəhər və rayonların sənaye müəssisələrinin anbarlarında qalıb. Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 141,6 milyon manat məbləğində digər məhsullar da mövcud olub.

# 2026-cı ildə ÜDM-in həcmi 134 milyard manatı ötəcək

**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin bu ilin avqust ayında yaxın 4 il üçün açıqladığı Ortamüddətli Xərclər Çərçivəsi sənədinə əsasən, 2026-cı ilin sonuna ölkədə ümumi daxili məhsulun (ÜDM) həcmi 134,1 milyard manat, o cümlədən qeyri-neft qaz ÜDM-i 101,7 milyard manat təşkil edəcək. Nazirliyin proqnozuna görə, 2029-cu ildə isə ÜDM-in 161,8 milyard manata qədər, o cümlədən qeyri-neft-qaz ÜDM-in həcminin 129,5 milyard manata qədər artacağı gözlənilir.**

Ortamüddətli dövrdə ÜDM-in real artım tempinin orta illik 3,5 faiz, qeyri-neft-qaz ÜDM-in 4,9 faiz olacağı proqnozlaşdırılır. 2029-cu ildə ÜDM-in tərkibində qeyri-neft-qaz sektorunun payının artaraq 80 faizə çatacağı proqnozlaşdırılır.

Baza ssenarisində neftin bir barelinin orta illik ixrac qiyməti 2026-cı il üçün 65 dollar və 2027-2029-cu illər üçün də eyni qalacağı təxmin edilib. Bununla yanaşı, 2029-cu ildən etibarən "Abşeron" yatağının tam gücü ilə istismarı hesabına hasilatın artması və bunun da sektorun ümumi inkişafına müsbət töhfə verməsi gözlənilir. 2026-cı ildə əsas kapitala olan investisiyalarda 6,9 faiz, ortamüddətli dövrdə isə orta illik 3,9 faiz artım olacağı proqnozlaşdırılır. Neft-qaz sektoruna yönəldilən kapital qoyuluşlarında 2026-2027-ci illərdə artım proqnozlaşdırılır.




Qeyd edək ki, nazirliyin proqnozunda əsas kapitala investisiyaların proqnozlaşdırılması zamanı neft-qaz sektoru üzrə əsas təşkilatlardan alınmış investisiya proqnozları, dövlət büdcəsinin əsaslı xərcləri üzrə proqnozlar, o cümlədən işğaldan azad edilmiş ərazilərdə irimiqyaslı quruculuq işləri ilə əlaqədar investisiyalar, strategiya çərçivəsində qeyri-neft-qaz sektoruna cəlb olunacaq birbaşa xarici investisiyaların illik 10-15 faiz artması hədəfi, dövlət investisiyalarının iqtisadi səmərəliliyinin yüksəldilməsi, bank-maliyyə sektorunun maliyyə vasitəçiliyi funksiyasının gücləndirilməsi və infrastruktur layihələrində dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi nəzərə alınıb.

*Səhifəni hazırladı:*
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan lideri xalqa qələbə müjdəsini özü çatdırırdı

## *Prezident İlham Əliyev düşmənin acizliyinin hərbi cinayətlərə çevrildiyini də bəyan etmişdi*



**2020-ci il oktyabrın 17-si Azərbaycan tarixinin ən yaddaqalan günlərindən biri idi. Prezident İlham Əliyev həmin gün xalqa müraciətində Ermənistanın növbəti hərbi cinayətlərini – Gəncə və Mingəçeviri raket hücumlarına məruz qoymasını ifşa etməklə yanaşı, ordumuzun cəbhə bölgəsində qazandığı növbəti parlaq qələbələri də diqqətə çatdırdı.**

Dövlət başçısı müraciətində Ermənistanın adları çəkilən dinc şəhərləri raket atəşinə tutmasını işğalçı ölkə rəhbərliyinin növbəti hərbi cinayəti adlandırdı. 2020-ci ilin payızında Azərbaycan Ordusunun döyüş meydanında qazandığı uğurları həzm edə bilməyən Paşinyan rejimi mülki əhalini terror hədəfinə çevirmişdi. Gəncə və Mingəçevir kimi şəhərlərin "SKAD" tipli ballistik raketlərlə vurulması təkcə bir dövlətin hərbi zəifliyini deyil, həm də mənəvi-siyasi tənəzzülünü nümayiş etdirirdi.

Yüz illərdir ki, tolerantlıq və humanizm dəyərləri ilə seçilən Gəncənin bombalanması təkcə Azərbaycan xalqını deyil, bütün bəşəriyyəti dəhşətə gətirən faciəli hadisə idi. Terror nəticəsində mülki evlər dağıldı, körpələr, qadınlar, qocalar şəhid oldu, amma xalqın iradəsi sınmadı. Prezident İlham Əliyevin də vurğuladığı kimi, bu terror aktı Azərbaycan xalqını qorxutmadı, əksinə, onun qələbə əzmini daha da gücləndirdi.

Ermənistan bu addımı ilə beynəlxalq hüququn bütün normalarını pozdu. İşğalçı 1949-cu il Cenevrə konvensiyalarına əsasən, müharibə dövründə mülki əhalinin, dinc yaşayış məntəqələrinin hədəfə alınmasının qəti şəkildə qadağan edildiyinə belə məhəl qoymadı. Bir sözlə, qəsbkar ölkə bu beynəlxalq öhdəlikləri açıq şəkildə pozaraq, özünü terrorçu dövlət kimi bir daha ifşa etdi.

Prezident İlham Əliyevin həmin günkü müraciəti siyasi bəyanat olmaqla bərabər, xalqla birbaşa səmimi dialoq idi. Ölkə başçısı açıq, qətiyyətli və eyni zamanda, dərin emosional tonda danışaraq həm şəhidlərin ruhuna ehtiramını ifadə etdi, həm də xalqın ağrı-acısını paylaşdı. Bu, liderlə xalq arasında sarsılmaz bir bağlılığın göstəricisi idi.

Müraciətin tonunda həm qəzəb, həm mərdlik, həm də inam hiss olunurdu. Prezident düşmənin dinc əhaliyə qarşı törətdiyi vəhşiliyi sərt şəkildə pisləyərkən, eyni zamanda, xalqı təmkinli olmağa, dövlətə və orduya güvənməyə çağırırdı. "Biz intiqamı mülki şəxslərdən yox, döyüş meydanında alacağıq", – deyirdi. Bu fikir həm də Azərbaycan dövlətinin yüksək mənəvi və hüquqi standartlara sadiqliyini, ordumuzun isə humanist dəyərlər çərçivəsində döyüşdüyünü bir daha göstərirdi.

Azərbaycan lideri müraciətində Füzuli şəhəri və rayonun bir sıra kəndlərinin işğaldan azad olunduğunu elan etdi. Bu xəbər xalqımız üçün həm mənəvi, həm də strateji baxımdan mühüm əhəmiyyət daşıyırdı. Füzuli rayonu 27 il ərzində viran qoyulmuş, kəndlər talan olunmuş, bütün infrastruktur yerlə-yeksan edilmişdi. 2020-ci il oktyabrın 17-də isə bu torpaqlar yenidən azad nəfəs aldı, bu coğrafiyada Azərbaycan bayrağı yenidən dalğalandı.

Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı istiqamətində əməliyyatların uğurla davam etməsi üçün açar mövqeyə malik idi. Bu tarixi Qələbə isə ordumuzun həm taktiki çevikliyinin, həm də koordinasiyalı döyüş qabiliyyətinin göstəricisi oldu. Azərbaycan Silahlı Qüvvələri də peşəkarlıqla hərəkət edir, qarşıya qoyulan tapşırığı uğurla yerinə yetirir, Qarabağın azadlığına doğru addım-addım irəliləyirdi.

Prezidentin müraciəti bir daha göstərdi ki, Azərbaycan xalqı ilə rəhbərliyi arasında misilsiz bir etimad mühiti mövcuddur. Hər bir vətəndaş bilirdi ki, dövlət başçısı ön xətdə gedən əsgərlərin də, arxa cəbhədə çalışan insanların da səsini eşidir. Müraciətin hər cümləsində xalqla birlikdə anlayışı hiss olunurdu. Bu birliyin nəticəsi idi ki, savaşın ən ağır anlarında belə ölkə daxilində panika deyil, inam və həmrəylik hökm sürürdü.

Gəncənin bombalanmasından bir neçə saat sonra insanlar sosial şəbəkələrdə, küçələrdə "Qarabağ Azərbaycandır!" şüarı ilə bir daha birləşdilər. Bu, düşmənin məqsədinə zidd olaraq, xalqın milli iradəsini daha da möhkəmləndirdi. Prezident İlham Əliyev həmin anlarda yalnız siyasi lider deyil, həm də mənəvi rəhbər, xalqın səsini dünyaya çatdıran qətiyyətli bir sərkərdə idi.

Azərbaycan lideri müraciət zamanı həm də beynəlxalq ictimaiyyətin ikili standartlarını dolayı yolla ifşa etdi. Çünki Gəncədə çox sayda mülki insanın raket atəşi nəticəsində şəhid olması dünya mediasında kifayət qədər diqqət çəkmədi. Bununla da beynəlxalq sistemin ədalətsizliyi bir daha təsdiqini tapdı. Lakin Prezident İlham Əliyev həmişə olduğu kimi, soyuqqanlılıqla, diplomatik incəliklə bu vəziyyəti idarə etdi. O, qisası döyüş meydanında almaq prinsipini qorudu və beynəlxalq arenada Azərbaycanın haqlı mövqeyini əsaslandırdı. Bütün bunlar İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın savaşda olduğu kimi, informasiya müharibəsində də üstünlük qazandığını göstərirdi. Dünya ictimaiyyətinin diqqətinə Ermənistan terroru törədən, Azərbaycanı isə ədaləti bərpa edən tərəf kimi çatdırılırdı.

Dövlət başçısının xalqa müraciətində orduya verilən yüksək qiymət və təşəkkür sözləri hər bir azərbaycanlının qəlbində qürur hissi yaratdı. Dövlət başçısı Silahlı Qüvvələrimizin müzəffər ordu olduğunu, Azərbaycan əsgərinin Vətən uğrunda döyüşdüyünü və heç bir zaman mülki əhaliyə qarşı silah qaldırmadığını dəfələrlə qeyd etdi. Bu, həm mənəvi, həm də peşəkar üstünlüyün ifadəsi idi.

Füzuli əməliyyatının uğurla nəticələnməsi isə Azərbaycan Ordusunun XXI əsrin müasir döyüş strategiyalarını mənimsədiyini, milli müdafiə sisteminin yüksək səviyyədə qurulduğunu sübut etdi. Hərbi əməliyyatlarla yanaşı, diplomatik müstəvidə də qətiyyətli mövqe respublikamızın regional və beynəlxalq nüfuzunu artırırdı.

Dövlət başçısı ordumuzun Füzuli ilə bağlı apardığı əməliyyatın uğurla nəticələnməsindən bəhs edərkən, bu şəhər uğrunda ağır döyüşlər getdiyini, çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq göstərildiyini, eyni zamanda, vaxt keçəcək bu savaş haqqında əsərlər yazılacağını bildirdi: "Çünki bu 30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdur ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi".

Prezident İlham Əliyev Füzuli şəhəri barədə danışarkən, erməni faşizminin barbarlığını, dahi şairimizin adını daşıyan və 30 il əvvəl abadlığı, gözəlliyi ilə diqqət çəkən bu yurd yerinin xarabalığa çevrildiyini, yaşayış binalarından birinin belə saxlanılmadığını, sökülüb daşındığını da diqqətə çatdırdı. Ölkə rəhbəri dedi: "Əlbəttə, biz hamımız bilməliyik ki, şəhərdən bir şey qalmayıb, əsər-əlamət qalmayıb, bir dənə də salamat bina qalmayıb. Çünki otuz il ərzində o vəhşilərin əlində idi, yırtıcı heyvanların əlində idi, çaqqalların əlində idi. Bütün binalar sökülüb, dini abidələrimiz sökülüb, hər şey talan edilib, evlərin dam örtükləri, pəncərələri, əşyaları, hər şey. Sanki vəhşi bir qəbilə bu şəhəri zəbt etmişdir. Füzuli şəhərinin qalıqları erməni faşizminin təzahürüdür və erməni faşizminin şahididir".

Azərbaycan lideri xalqa müraciətində Füzuliyə qayıdacağımıza, bütün kəndləri yenidən quracağımıza, abadlaşdıracağımıza da əminliyini ifadə edərək vaxtilə Ulu öndərin rəhbərliyi ilə ordumuzun bu rayonun 22 kəndini, o cümlədən Horadiz qəsəbəsini tapdaq altından çıxardığını, qəsbkardan geri alındığını xatırlatdı: "İndi baxın, görün, necə gözəl məkandır. Horadiz qəsəbəsi çox abad, müasir şəhərə çevrilibdir. İşğaldan azad edilmiş kəndlərdə füzulililər yaşayır. Deyə bilərəm ki, bu günə qədər işğaldan azad edilmiş kəndlərdə Füzuli əhalisinin, təqribən, yarısı məskunlaşıbdır. Ancaq bu gün artıq füzulililərin yaşadıqları kəndlər azad edilib və oraya həyat qayıdacaq, onlar qayıdacaqlar, onlar orada yaşayacaqlar, öz əcdadlarının qəbirlərini ziyarət edəcəklər. Orada bərpa olunacaq məscidlərdə azan səsi eşidiləcək".

Bu məqamda hərbi ekspertlərin fikirlərinə əsaslanaraq xatırladaq ki, Azərbaycanın tarixi yaşayış məskəni olan Füzulinin işğaldan azad edilməsi ordumuzun ən uğurlu hərbi əməliyyatlarından biri idi. Bu şəhərin geri alınması strateji nöqteyi-nəzərdən Füzulinin təmas xəttində yerləşən bir neçə müdafiə xəttinin yarılmasını şərtləndirdi, Silahlı Qüvvələrimizə növbəti strateji üstünlüklər verdi.

Bəli, Vətən müharibəsində Füzuli istiqamətində ağır döyüşlər gedib, Azərbaycan Ordusu misilsiz qəhrəmanlıqlar nümayiş etdirib, böyük hərbi peşəkarlıq və rəşadət göstərib. Bundan əvvəl, Cəbrayıl şəhəri, Hadrut, Xocavənd və Cəbrayıl rayonları, o cümlədən Füzuli rayonunun bir çox kəndləri işğaldan azad edilib. Sonda isə Füzuli şəhəri uğrunda savaş uğurla başa çatıb, düşmən son mərhələdə öz silahını yerə qoyaraq qaçıb.

İlham Əliyevin sözügedən tarixi çıxışının mənəvi əhəmiyyətinə gəldikdə isə, qeyd edək ki, Azərbaycan liderinin oktyabrın 17-dəki müraciəti, eyni zamanda, mənəvi gücün, milli iradənin və liderlik prinsipinin sintezini özündə birləşdirirdi. Prezidentin səsi, danışıq tərzi, faktlara əsaslanan arqumentləri bu savaşın tarixi Zəfərlə bərabər, həm də mənəvi qələbə ilə nəticələnəcəyinə dərin əminlik yaradırdı. Və belə də oldu – bir aydan az sonra Azərbaycan 30 ilə yaxın davam edən işğala son qoydu, tarixi 10 Noyabr Bəyanatı ilə qələbəni rəsmiləşdirdi.

2020-ci il oktyabrın 17-si isə həm kədər, həm də qürur günü kimi yadda qaldı. Gəncədə günahsız insanların şəhid olması Azərbaycan xalqını sarsıtsa da, həmin gün Füzulinin azad olunması xəbərini eşidən milyonlarla soydaşımız göz yaşını sevincə çevirdi.

Beləliklə, Prezident İlham Əliyevin 17 oktyabr müraciəti bir xalqın mübariz ruhunun, liderin əzmkarlığının və dövlətin haqq yolundakı ədalət mücadiləsinin parlaq təcəssümüdür. Bu çıxış tarixə yalnız müharibə dövrünün bir epizodu kimi yox, həm də Azərbaycanın milli iradəsinin, əxlaqi üstünlüyünün və siyasi yetkinliyinin simvolu kimi düşdü.

***VB AYRAMOV***
***XQ***

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası

*17 oktyabr*



• Azərbaycan Prezidenti İlham Əliyev Füzuli şəhəri və rayonun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndlərinin işğalçılardan azad olunması ilə bağlı xalqa müraciət edib.

• Ermənistan silahlı qüvvələri gecə saat 01 radələrində Gəncə şəhərinin mərkəzi hissələrini növbəti dəfə raket atəşinə tutub. Baş Prokurorluğun məlumatına görə, bu xain hücum nəticəsində üçü azyaşlı olmaqla, 13 nəfər həlak olub, 48 nəfər xəsarət alıb. Həmçinin mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.



• Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın Gəncəyə növbəti raket hücumu ilə bağlı rəsmi "Instagram" səhifəsində paylaşım edib.

• Müdafiə Nazirliyinin məlumatına görə, Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyatlar nəticəsində düşmənin xeyli sayda canlı qüvvəsi, 7 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS qurğusu, 8 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları, döyüş sursatı ilə yüklənmiş 17 yük maşını və digər avtomobil texnikası məhv edilib. Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının 1-ci taboru xeyli itki verərək mövqelərini ataraq geri çəkilib. Həmçinin Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında ehtiyatdan çağırılmış 300 hərbi qulluqçusu fərarilik edib.

• Ordumuz cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi və hərbi texnikasını məhv edib.

• Düşmənin yanacaq-sürtkü materialları və döyüş sursatı anbarları Azərbaycan Ordusunun aviasiya zərbələri ilə darmadağın edilib.

• Ermənistan silahlı qüvvələrinə məxsus bir ədəd Su-25 təyyarəsi və taktiki PUA-sı bölmələrimizin dəqiq atəşi ilə vurulub.

• Ermənistan silahlı qüvvələrinə məxsus üç ədəd "Tor-M2KM" və bir "S-125" zenit-raket kompleksi, 1 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi Azərbaycan Ordusu bölmələrinin dəqiq zərbələri ilə sıradan çıxarılıb.



• Baş Prokurorluğun məlumatına görə, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən oktyabrın 17-si saat 12:00-dək 60 mülki şəxs həlak olub, 270 nəfər xəsarət alıb, 1704 ev, 90 çoxmənzilli yaşayış binası və 327 mülki obyekt yararsız vəziyyətə düşüb.

• Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş Cəbrayıl rayonundakı "Çaxırlı" və "Mahmudlu" sərhəd zastavaları üzərində Azərbaycanın Dövlət Bayrağı ucaldılıb.

• Baş Prokurorluğun məlumatına görə, hərbi hava hücumundan müdafiə qüvvələrimiz tərəfindən Ermənistan ordusunun gecə saat 01 radələrində Mingəçevirə atdığı raketlər zərərsizləşdirilib.

***Mustfi K AMAL***
***XQ***

*Günün təzadı*

# “Bizə diplom deyil, təcrübə lazımdır”

## *Bu gün işəgötürənlər gənc mütəxəssisləri belə qarşılayırlar*

**Universiteti bitirib əmək bazarına üz tutan hər gənc eyni sualı eşidir: “İş təcrübən varmı?” Bu, məzunların həyatında eyni ssenarilərlə təkrarlanan sınaqdır. İmtahan stresi, ümidlər və qayğılarla dolu illəri geridə qoyan gənc diplomunu əlinə alar-almaz paradoks yaşayır. Ona iş tapmaq üçün təcrübə, təcrübə qazanmaq üçün isə iş lazım olur.**



İşəgötürənlərin böyük əksəriyyəti artıq nəzəri biliklərlə kifayətlənmirlər. Onlar real situasiyalarda özünü sınamış, kollektivlə işləmə bacarığına, təşəbbüskarlığa və texnoloji adaptasiyaya malik gənclər axtarırlar. Bu da o deməkdir ki, universitet partasından birbaşa əmək bazarına keçid asan deyil. Akademik sistem çox vaxt real bazarın tələblərindən uzaq qalır, bilikli tələbə belə iş həyatına atılmaqda çətinlik çəkir.

Dünyanın bir çox ölkələrində bu problemi aradan qaldırmaq üçün bakalavr təhsilinin müddəti azaldılıb. Bir neçə gün öncə qardaş ölkə Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan Beştepe Konqres və Mədəniyyət Mərkəzində 2025-2026-cı tədris ilinin açılışı münasibətilə keçirilən mərasimdəki çıxışında bildirib ki, Avropa ölkələrində olduğu kimi, tələbələrin üç il ərzində məzun ola bilməsi üçün struktur islahatlar keçiriləcək. Bu da öz növbəsində tələbələrin daha tez əmək bazarına daxil olmasına, vaxt və resurslara qənaət edilməsinə şərait yaradacaq.

**Ötən il Azərbaycan Texniki Universitetinin kompüter mühəndisliyi ixtisasını bitirən Toğrul Hüseynov məzun olduqdan sonra işə qəbul prosesində çətinliklərlə üzləşib:**

– İş üçün müraciət etdiyim yerlərdə azı 2 illik təcrübə tələb olunurdu. Amma mən tələbə olanda dərslərimlə məşğul idim, eyni zamanda müxtəlif layihələrdə iştirak edirdim, bu, işəgötürənlərin tələb etdikləri kriteriyalara cavab vermirdi.

Əgər təhsil müddəti 4 il olmasaydı, biz qısa zamanda həm nəzəri bilikləri öyrənərdik, həm də işləmək üçün vaxtımız qalardı.

**Məzunların arzusu bilik və bacarıqlarını göstərmək imkanı qazanmaqdır. Bəs onlara şans verilmirsə?.. “Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası”nın sədri Sahib Məmmədov bu sualın cavabında bildirdi ki, problemin kökündə təhsil sistemindəki boşluqlar dayanır:**



– Tələbələrin təhsili əsasən nəzəri hissədən ibarətdir və bəzən əlavə, lüzumsuz fənlər o qədər çox olur ki, praktikaya yetərincə vaxt ayrılmır. Düzdür, son dövrlərdə bəzi universitetlər tələbələri müəssisələrə təcrübəyə göndərirlər, amma bunun bir çox hallarda formal xarakter daşıdığı məlumdur. Nəticədə nəzəri biliklərlə əmək bazarına çıxan gənclər praktik bacarıqları olmadığı üçün ya işə qəbul edilmir, ya da müəyyən müddət pulsuz işləyərək təcrübə toplamalı olur. Buna görə də təhsilin praktik hissəsinin gücləndirilməsi vacibdir. Əgər işəgötürən əmin olsa ki, tələbə ali məktəbi bitirib və kifayət qədər praktik təcrübəyə malikdir, belə problemlər ortaya çıxmaz. Yəni yalnız nəzəri biliklərə əsaslanan yanaşma əmək bazarında problemi artırır.

Məsələn, texniki kolleclərdə ixtisaslı fəhlələr köhnə avadanlıqlar üzərində təcrübə keçirlər, hətta bu avadanlıqların bəzisi 70-ci illərdən qalıb. Belə şəraitdə təcrübə keçmiş tələbə müasir texnologiyaları işlədə bilmir və nəticədə əmək bazarında ixtisaslı işçi çatışmazlığı yaranır. Bu səbəbdən xarici ölkələrdən də ixtisaslı işçilər dəvət olunur. Məsələn, müasir işıqlandırma sistemlərinin qurulması və ya montaj işləri üçün yerli ixtisaslı işçi tapmaq çətindir. Təhsilindən asılı olmayaraq, işə qəbul olunanda bacarığını nümayiş etdirmək vacibdir. Bu isə ya imtahan, ya da digər sınaq vasitələri ilə müəyyən edilir.

**Təhsil eksperti Elşən Qafarov təhsil səviyyəsinin yüksəldilməsi üçün beynəlxalq standartlara uyğunlaşmağın vacibliyindən danışdı:**

– Ölkəmizdə məktəbəqədər ümumi təhsil, peşə təhsili, orta ixtisas və ali təhsil pillələri var. Amma beynəlxalq sistemdə orta ixtisas ayrıca pillə deyil, ali təhsilin bir hissəsi sayılır. Ona görə də bizim orta ixtisas kollecləri hələ də ayrı-ayrı müəssisələr kimi fəaliyyət göstərir. Bu da sistemin beynəlxalq standartlara uyğunlaşmasına imkan vermir.

Birinci növbədə orta ixtisas müəssisələri ləğv olunmalı və ali təhsil səviyyəsinə birləşdirilməlidir. Ali təhsil dörd səviyyədən ibarət olmalıdır: birinci və ikinci kurslar orta ixtisas səviyyəsini, üçüncü və dördüncü kurslar isə bakalavriatı əhatə etməlidir. Digər vacib məsələ peşə standartlarının olmamasıdır. Hər bir ixtisas üzrə ali təhsil müddətində hazırlanacaq kadrların hansı bacarıqlara sahib olduğunu müəyyənləşdirən standartlar yoxdur. Belə olan halda nə ali, nə də peşə təhsilində real irəliləyiş əldə etmək mümkün deyil.

Peşə standartları və qiymətləndirmə sistemi təhsil səviyyəsinə uyğun tətbiq edilməlidir. Bu o deməkdir ki, tələbənin bilik və bacarıqları əvvəlcədən müəyyənləşdirilməli və qiymətləndirilməlidir. Beləliklə, hər bir tələbə təhsil aldığı səviyyəyə uyğun hazırlıqdan keçmiş olur. Yalnız bunlar həll olunandan sonra bakalavriat təhsilinin müddətinin azaldılması və digər islahatlar effektiv nəticə verə bilər. Hazırda isə təhsil müəssisələri daha çox beynəlxalq reytinqlərdə iştirakla qiymətləndirilir, amma xüsusi kadrlar hazırlamaq kimi əsas vəzifələr yetərincə yerinə yetirilmir.

**Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinin 5-ci kurs tələbəsi Aytac Kərimova tibb sahəsində təhsil müddətinin qısaldılmasını istəmir:**

– Məncə, tibb sahəsində təhsil müddətini qısaltmaq mümkün deyil. Hər il, hətta hər semestr tələbənin peşəkar hazırlığı üçün vacib mərhələdir. Əgər təhsil müddəti azaldılsa, tələbələr lazım olan klinik bacarıqları tam mənimsəyə bilməyəcəklər. Bu isə həm onların peşəkar inkişafına mane olar, həm də xəstələrin sağlamlığını risk altına qoyar. Biz tədris zamanı yalnız nəzəri biliklər öyrənmirik, hər gün praktiki iş görürük, xəstələri müşahidə edirik və müalicə prosesinə cəlb olunuruq. Uzunmüddətli təhsil sistemi gələcək karyeramız üçün əvəzsizdir və hər bir mərhələnin öz əhəmiyyəti var.

**Ali tibb təhsilində kadr hazırlığının müddəti ikiqat uzundur. Bir çox ixtisaslarda isə təhsil müddəti qısaldılır. Təhsil eksperti Elçin Süleymanov bu məsələdəki fərqliliyi belə izah etdi:**



– Bəzi ölkələr, xüsusilə ictimai elmlər sahəsində bakalavr proqramlarının üç il müddətinə qısaldılması planlaşdırır. Bu isə tələbələrin iş həyatına bir il daha tez atılmasına imkan verir. Təbii ki, ixtisasdan ixtisasa müddət dəyişir. Məsələn, mühəndislik və kompüter elmlərində bakalavr təhsili dörd, bəzi ixtisaslarda beş və ya altı ildir. Daha sonra rezidentura mərhələsi gəlir ki, bu da on ilədək davam edə bilər.

Əgər proqram üç ildə tamamlanarsa, tələbə əlavə vaxt, resurs və xərc ödəmədən təhsilini bitirə bilər. Eyni zamanda, bəzi dərslər onlayn keçirilərsə, auditoriyalardan da səmərəli istifadə olunar. Məsələn, İngiltərədə magistr proqramları bir il, yəni üç semestr davam edir, üçüncü semestr isə praktik iş və ya təcrübəyə həsr olunur.

Əvvəllər hər semestrdə 4, ümumilikdə 15 dərs və yay semestri də daxil olmaqla, 2 ilə tamamlanırdı. İndi isə hər semestrdə 5 dərs tədris olunur və sonda yekun iş təqdim edilir. Yay semestri də proqramın tərkib hissəsidir. Beləliklə, yayı da nəzərə alaraq proqramı 3 semestrə qədər sıxlaşdırırlar. Bu dəyişiklik tələbənin yaşayış xərcləri, kirayə, təhsil haqqı, əgər xaricdə oxuyursa, aviabilet və digər məsrəflər azaldığı üçün iqtisadi baxımdan da əlverişlidir. Məsələn, MBA proqramlarında bəzən bu cür sürətlənmiş modellər tətbiq olunur və təhsil prosesi bir il ərzində, bir neçə modul üzrə həyata keçirilir. Dəqiq elmlər və tibb sahələri üçün bu yanaşma bəlkə də uyğun olmaz, lakin ictimai və sosial elmlər üçün alqışlanacaq addımdır.

**Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşı Elmin Nuri bildirdi ki, tədris müddətini qısaldarkən proqram tələb olunan bilik və bacarıqları təmin etməlidir:**



– Diqqətimizi müddətə deyil, proqramın mahiyyətinə yönlətməliyik. Təhsil müddətini üç ilə endirmə o demək deyil ki, tələbə üç il ərzində bütün təhsilini auditoriyada başa vuracaq. Xaricdə tətbiq olunan “3+1” və “3+2” layihələri buna nümunədir. Bu sistemdə tələbə üç il universitet auditoriyasında təhsil alır, qalan bir və ya iki il isə istehsalatda, praktikada və əmək bazarında təcrübə qazanmaq üçün ayrılır. Məqsəd tələbənin real iş mühitinə inteqrasiyasını təmin etməkdir.

Məsələn, kompüter mühəndisliyi ixtisasında təhsil alan tələbə “3+1” modeli üzrə üç il universitetdə oxuyur, amma sonrakı ildə birbaşa iş mühitində praktiki təcrübə qazanır, layihələrdə iştirak edir və əmək bazarına daxil olur. Eyni şəkildə, “3+2” modelində tələbə universitetdə üç il oxuyur, qalan iki il isə istehsalat və praktiki təcrübə üçün ayrılır.

Beləliklə, proqram düzgün qurulduqda, tələbələr üçün həm nəzəri bilikləri, həm də praktik təcrübəni balanslı şəkildə təmin edən bir sistem yaranır. Ali təhsil müddətinin optimallaşdırılması gənclərin karyera imkanlarını artırmaqla yanaşı, ölkənin inkişafına da xidmət edir. Təhsil yalnız nəzəri bilik vermək deyil, həm də praktik bacarıqlar formalaşdırmaqdır və bu balans qorunduqda həm tələbəyə, həm də cəmiyyətə uğur gətirər.

***Fidan ƏLİYEVA***
***XQ***

*Biz deməsək...*

**Ulu öndər Heydər Əliyev daim xatırladırdı ki, xalq gərək öz kökünü, tarixini yaxşı bilsin. Azərbaycan xalqı şanlı tarix yaradıb, yurdunu qoruyub, kimliyini yaşadıb. Lakin bəzən bu tarix məktəb dərsliklərində lazimi səviyyədə əks olunmur. Qəhrəmanlar, dövlət xadimləri, tarixi hadisələr haqqında bilgilər köhnəlmiş, lüzumsuz elmi məlumatlar toplusunu xatırladır.**

# Dərslik yeni nəslin bilik nizamnaməsidir

## *Tarixi doğru yazmaq, dürüst öyrətmək isə milli yaddaşı kamilləşdirir*

Bir çox hallarda eyni mövzu ayrı-ayrı dərsliklərdə fərqli verilir. Məsələn, əvvəllər Qafqaz Albaniyasının Aquen kilsə məclisinin 488-ci ildə keçirildiyi göstərilirdi. Lakin sonradan müxtəlif illərdə nəşr olunan tarix kitablarında hadisənin ili, hətta Alban hökmdarı III Vaçaqanın hakimiyyət dövrü də fərqli qeyd olunub. Bir yanlışlıq da sovet tarixşünaslığının təsirinin bəzi dərsliklərin strukturunda, dilində və hadisələrin izahında hələ də qalmasıdır. O dövrdə əsas məqsəd tarixi xalqın yox, imperiyanın marağına uyğun yazmaq olmuşdu. Azərbaycan torpaqlarının bölünməsi, müstəqillik hərəkatları və ya din-tarix münasibətləri kimi məsələlər ideoloji süzgəcdən keçirilərək təqdim olunub.

Dövlət müstəqilliyimiz tələb edirdi ki, dərsliklərdə hadisələr düzgün, dəqiq təqdim olunsun. Çünki tarix yanlış faktları deyil, düzgün məlumatları özündə yaşadır. Təəssüf ki, bəzi hallarda tarixə qiymətdə buraxılan səhvlər bütöv bir nəslin hadisələri yanlış anlamasına gətirib çıxarır. Bu, xüsusilə qədim dövrlərin tarixində, Qafqaz Albaniyası, Atropatena, erkən orta əsr dövlətləri ilə bağlı mövzularda daha çox rast gəlinir. Yeni nəsil tarixin dərinliyində milli kimliyini görə bilmir.

**150 saylı orta məktəbin tarix müəllimi Elmir Nəsirov qeyd edir ki, bugünkü dərsliklərdə bir çox məlumatlar nəinki elmi baxımdan ziddiyyətlidir, həm də bir-birini təkzib edir. Fərqli siniflərdə eyni hadisənin iki müxtəlif izahına rast gəlirik:**




– Məsələn, VI sinif dərsliyində Manna ilə Assuriya arasında imzalanan Sirdakka müqaviləsi barədə qeyd olunur ki, Manna Assuriyaya ərzaq yardımı göstərib, lakin X sinif dərsliyində həmin hadisə xərac göndərilməsi kimi təqdim olunur. Bundan əlavə, 2018-ci ildə “Şərq-Qərb” nəşriyyatında çap olunmuş, ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün “Azərbaycan tarixi” dərsliyində də uyğunsuzluqlar var.

Kitabın 182-ci səhifəsində Yeni Azərbaycan Partiyasının yaranması barədə yazılır:

“Azərbaycanın tanınmış ziyalılarından 91 nəfər 1992-ci ilin oktyabrın 16-da “Səs” qəzetində “Heydər bəyi biz çağırmalıyıq!” adlı müraciətlə çıxış etdi”. Qəzetdə bu müraciətin əsl adı “Azərbaycan Sizin sözünüzü gözləyir” olmuşdur. Yəni bir söz, ifadə fərqi, əslində, bir tarixi məqamı dəyişir.

Bundan əlavə, Ziya Bünyadovun tədqiqatlarında alban hökmdarı Cavanşirin hakimiyyət illəri ilə bağlı ziddiyyətli nüanslar yer alır. Bir vaxtlar dərsliklərdə Cavanşirin hakimiyyətinin 638-ci ildən başladığı göstərilirdi. Sonradan bu tarix 640, daha sonra 642-ci ilə dəyişdirildi. Eyni hal onun ölüm tarixi ilə bağlı da müşahidə olunur: əvvəl 670, sonra 680, sonra da 681-ci il qeyd olunur.

Elmi tədqiqatlar nəticəsində bəzi düzəlişlər qaçılmazdır, amma məsələ odur ki, bu dəyişikliklər izahsız təqdim olunur.

Şagirdin bir il əvvəl oxuduğu məlumat növbəti sinifdə dəyişir, lakin bu fərqin səbəbi, mənbəyi və elmi əsaslandırması izah edilmir. Nəticədə, uşaq tarixə şübhə ilə yanaşmağa başlayır.

**X sinif “Azərbaycan tarixi” dərsliyinin müəlliflərindən biri olan Kamran Əsədov bildirir ki, Azərbaycanda tarix dərsliklərinin məzmununda uzun illərdən bəri mövcud ideoloji qalıqlar, faktoloji uyğunsuzluqlar və elmi təhlilin səthi təqdimatı ölkənin elm və təhsil sisteminin keyfiyyətinə birbaşa təsir göstərir:**

– Bu, təkcə metodik və ya redaktə problemi deyil, milli ideoloji, elmi və tarixi yaddaşın formalaşmasına təsir edən strateji məsələdir. Dərsliklərdə hələ də sovet dövründən qalma ideoloji çalarların, tarix hadisələrinin birtərəfli izahlarının və yeni arxiv materiallarının məhdud istifadəsinin müşahidə olunması təhsilin müasir elmi reallıqlarla ayaqlaşmasında ciddi boşluq yaradır. Azərbaycan Respublikasının “Təhsil haqqında” Qanununun 5-ci maddəsində qeyd edilir ki, təhsil məzmunu “milli və ümumbəşəri dəyərlər əsasında qurulmalı, müstəqil düşüncə və vətəndaş məsuliyyəti formalaşdırmalıdır”. Bu prinsiplərin tam icrası üçün dərsliklərin ideoloji deyil, elmi-faktoloji əsaslı olması vacibdir.

Statistik göstəricilərə əsasən, hazırda orta və ali təhsil müəssisələrində istifadə edilən tarix dərsliklərinin təxminən 60 faizi 2010-cu illərdə tərtib edilmiş versiyalardır. Onların əksəriyyəti 15–20 il əvvəl yazılmış materiallara əsaslanır. Elm və Təhsil Nazirliyi son illərdə müəyyən yeniləmələr aparsa da, dərsliklərin elmi bazası köklü şəkildə dəyişməyib. Bunun nəticəsində bir çox hadisələr, xüsusilə XIX–XX əsrlərdə baş verən siyasi proseslər, milli azadlıq hərəkatları, Cənubi Qafqazda etnik münasibətlər, Səfəvilər dövrü və müstəqillik mərhələləri ya natamam, ya da sovet tarixşünaslığının təsiri ilə formalaşmış narrativlər əsasında təqdim olunur.

Sovet ideologiyasının qalıqları xüsusilə VII-XI sinif dərsliklərində hiss olunur. Məsələn, bəzi bölmələrdə “Sovet hakimiyyətinin bərqərar olması” anlayışı hələ də “xalqın iradəsinin ifadəsi” kimi təqdim olunur, halbuki elmi faktlar bunun silahlı müdaxilə və siyasi təzyiq nəticəsində baş verdiyini sübut edir. Bu cür ideoloji qalıqlar təkcə tarixi təhrif etmir, həm də gənc nəsildə yanlış siyasi və sosial düşüncə formalaşdırır.

Bu vəziyyətin yaranmasının bir səbəbi də universitetlərdə elmi-tədqiqat fəaliyyətinin zəif olmasıdır. Ali məktəblər dərsliklərin və tədris proqramlarının yenilənməsində təşəbbüskar olmalıdır, lakin bir çox hallarda bu, formal xarakter daşıyır. Tədris yükünün çoxluğu, tədqiqat mədəniyyətinin zəif təşviqi və akademik məsuliyyətin məhdudluğu nəticəsində yeni elmi faktlar dərsliklərə daxil edilmir. Buna baxmayaraq, Elm və Təhsil Nazirliyi son illərdə bu istiqamətdə mühüm islahatlara başlayıb. Dərslik siyasəti yenilənir, ekspert rəyləri cəlb olunur, “Dərsliklərin qiymətləndirilməsi sistemi” tətbiq edilir və elmi institutların iştirakı artırılır. Bu addımlar dərsliklərin elmi dəqiqliyinin və məzmun keyfiyyətinin yüksəlməsi baxımından mühüm mərhələdir.

AMEA-nın Tarix İnstitutu tərəfindən son illərdə nəşr olunan “Azərbaycan tarixi – 7 cilddə”, “Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası” və “Zəngəzur – tarixi həqiqətlər” kimi fundamental əsərlər dərsliklərin elmi məzmunu üçün əsas baza rolunu oynayır.

**VIII sinif şagirdi Məsim Məsimov deyir ki, bir neçə ildir ki, Azərbaycan tarixi fənnini öyrənirəm. Bəzən eyni hadisə barədə fərqli məlumatlar oxuyuram. Axı tarix bir dəfə yaşanır:**

– Dərsdə bəzən müəllimlər əvvəlki illərdə danışdıqları mövzulara qayıdır, deyirlər ki, “bu, yeni məlumatdır”, amma mən anlamıram necə olur ki, bir dövlətin eyni hadisəsi birdən-birə başqa cür olur? Bəs, hansı məlumatı yadda saxlayaq, imtahanda hansı cavabı yazmalıyıq? Düzgün, dəqiqləşdirilmiş və izah edilmiş tarix lazımdır ki, onu əzbərləməyək, anlayaq və yadda saxlayaq. Yuxarıda deyilənlər bir daha təsdiq edir ki, tarix dərsliklərinin yenilənməsi günün tələbi, milli düşüncənin yenilənməsidir. Bu prosesdə tarixçi alimlər, pedaqoqlar, dilçilər, metodistlər, hətta psixoloqlar da iştirak etməlidirlər. Unutmaq olmaz ki, şagirdə tarixi hadisəni düzgün öyrətmək o hadisənin mənəvi yükünü, milli kimlikdəki yerini anlatmaqdır.

***Ləman TƏHMƏZ***
***XQ***

# AMEA 80 illik yubileyə hazırlaşır



**Azərbaycan Milli Elmlər Akademiyanın Rəyasət Heyətində keçirilən müşavirədə Prezident İlham Əliyevin AMEA-nın 80 illik yubileyinin qeyd edilməsi haqqında sərəncamının icrası ilə bağlı ali elm ocağında görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub.**

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli yubiley ilə bağlı görülmüş işlər barədə məlumat verib. Diqqətə çatdırılıb ki, Qarabağ Universitetində, AMEA-nın Naxçıvan Bölməsində, eləcə də Bakı Dövlət Universitetində Akademiyanın yubileyi qeyd olunub. Vəcihə Səmədova adına sərgi salonunda Akademiya əməkdaşlarının rəsm əsərlərindən ibarət sərgi təşkil olunub. Bu günlərdə isə Yeni Azərbaycan Partiyası ilə birgə yubiley mərasimi keçirilib, qurumun bir sıra əməkdaşı partiyaya üzv qəbul edilib.

Bildirilib ki, AMEA-nın tarixində ilk dəfə ölkəmizdən kənarda da – qardaş Türkiyənin Ankara şəhərində, QİƏT-ə üzv ölkələrin Elmlər Akademiyaları prezidentlərinin İstanbul toplantısında yubiley məclisi keçirilib. Beynəlxalq Elmlər Akademiyaları Assosiasiyasının Minskdə keçirilən yığıncağında AMEA-nın yubileyi qeyd edilib.

Yubiley çərçivəsində "Elm" nəşriyyatında "Azərbaycan Milli Elmlər Akademiyası: Heydər Əliyevdən İlham Əliyevə", "Azərbaycan Milli Elmlər Akademiyası XX əsrdə tarixi zərurətdən yarandı" kitab və monoqrafiyalar hazırlanıb. Milli elmimizin 80 illiyi münasibətilə 4 döş nişanı" təsis olunub.

Müşavirədə AMEA-nın akademik-katibi Arif Həşimov, ETN İdarəetmə Sistemləri İnstitutunun direktoru, akademik Əli Abbasov, Rəyasət Heyəti aparatının şöbə müdirləri – filologiya elmləri doktoru Sərxan Xavəri, biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva, filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov, riyaziyyat üzrə fəlsəfə doktoru Fariz İmranov və Samir Hüseynov yubileyə hazırlıqla bağlı görülən işlər barədə məlumat veriblər.

Sonda akademik İsa Həbibbəyli noyabr ayında Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinə həsr olunmuş yekun yubiley məclisinin yüksək səviyyədə qeyd edilməsi ilə bağlı müvafiq tövsiyə və tapşırıqlarını çatdırıb.

*Qabil ƏLİYEV*
*XQ*

# Polis Akademiyası yeni dərs ilində





**Daxili İşlər Nazirliyinin Polis Akademiyası bu gün ölkənin ən nüfuzlu ali təhsil ocaqlarından birinə çevrilib. Bunu 2025/2026-cı tədris ili üçün keçirilən qəbul prosesi bir daha təsdiqləyib. Xüsusi təyinatlı bu ali təhsil müəssisəsində qəbul planı üzrə nəzərdə tutulmuş yerlər tam dolub.**

DİN-in Mətbuat Xidmətindən bildirilib ki, orta məktəblərdə keçirilən görüşlər, təqdimatlar və maarifləndirici tədbirlər nəticəsində gənclər Polis Akademiyasını təkcə nüfuzlu ali təhsil müəssisəsi kimi deyil, həm də təhlükəsizliyin, əmin-aman gələcəyin və Vətənə xidmətin ünvanı kimi görürlər.

Respublikanın demək olar ki, bütün ümumtəhsil müəssisələrini, o cümlədən ən ucqar kəndlərdə yerləşən tam orta məktəbləri əhatə edən təşviqat tədbirləri nəticəsində daxili işlər orqanlarının təhsil sisteminə maraq ildən-ilə artmaqdadır.

2024/2025-ci tədris ilində qəbul üçün 2250 nəfər müraciət etdiyi halda, bu tədris ilində həmin rəqəm 2938 nəfərə yüksəlib. Onlardan 550 nəfər hüquqşünaslıq, 25 nəfər isə informasiya təhlükəsizliyi ixtisası üzrə qəbul olunub.

Ən yüksək bal hüquqşünaslıq ixtisasında 675,3, informasiya təhlükəsizliyi ixtisasında isə 675,7 olub. Minimum keçid balları da ötən illərlə müqayisədə yüksələrək, müvafiq olaraq 462,4 və 568 bal təşkil edib. Ümumilikdə 72 nəfər 600 baldan çox nəticə göstərib.

Polis Akademiyasına qəbul yalnız test imtahanı ilə məhdudlaşmır. Namizədlər əvvəlcə fiziki hazırlıq sınaqları, psixoloji və bilik testləri, daha sonra isə Seçmə Komissiyadan keçirlər.

Kursantların sayının artması Akademiyanın maddi-texniki bazasının da genişləndirilməsini zəruri edib. Akademiyada təhsil korpusları, yataqxanalar, tədris laboratoriyaları tikilib, geyim və qidalanma təminatı yenilənib, infrastruktur tam şəkildə müasirləşdirilərək gənclərin hərtərəfli hazırlığı üçün əlverişli şərait yaradılıb.

*XQ*

# Azərbaycan və Özbəkistanın Avropada "İpək yolu" aksiyası



**Azərbaycan Turizm Bürosu və Özbəkistanın Milli Təbliğat Mərkəzi İpək Yolu irsinin tanıdılması məqsədilə Avropada silsilə tədbirlərin təşkilinə start verib.**

Dövlət Turizm Agentliyinin məlumatına görə, məqsəd Avropa turizm sektorunda tərəfdaşlarla əlaqələri daha da möhkəmləndirmək, hər iki ölkənin mədəni, tarixi və təbii turizm imkanlarını tanıtmaq və onları dünyanın mühüm səyahət marşrutlarından biri olan İpək Yolu boyunca yerləşən cəlbedici destinasiyalar olaraq təqdim etməkdir.

Frankfurt və Vyanada başlayan silsilə tədbirlərə "Azərbaycan Hava Yolları" QSC və Özbəkistan Hava Yolları da daxil olmaqla, ümumilikdə, 16 tərəfdaş qurum cəlb edilib. Aksiyalarda Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Leyla Qasımova, Azərbaycan Turizm Bürosunun İdarə Heyətinin sədri Florian Zenqstşmid, Özbəkistanın Avstriyadakı səfiri Bakhtiyor İbragimov, Özbəkistan Turizm Komitəsi və Milli Təbliğat Mərkəzinin nümayəndələri iştirak ediblər.

Təbliğat marafonu oktyabrın 24-dək Zürix, Budapeşt, Praqa və Barselona daxil olmaqla, Avropanın 6 şəhərində keçiriləcək, hər iki ölkənin turizm imkanları təqdim ediləcək, görüşlər təşkil olunacaq.

*XQ*

# Xalq artisti Ramiz Quliyev son mənzilə yola salınıb



**Oktyabrın 16-da Beynəlxalq Muğam Mərkəzində görkəmli tarzən, pedaqoq, Dövlət mükafatı laureatı, Xalq artisti, professor Ramiz Quliyevlə vida mərasimi keçirilib.**



Mərhumun cənazəsi Beynəlxalq Muğam Mərkəzinin səhnəsində postament üzərinə qoyulub. Postamentin ətrafına Azərbaycan Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva, dövlət qurumları və müxtəlif kollektivlər adından əklil düzülüb.

Vida mərasimində mədəniyyət naziri Adil Kərimli Ramiz Quliyevin zəngin həyat və yaradıcılıq yolundan danışıb. Nazir qeyd edib ki, onun yaratdığı irs Azərbaycan mədəniyyətində elə bir xəzinədir ki, zaman onu silə bilməz. Bu irs gələcək nəsillər üçün də örnək olacaq.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli dərin kədərini ifadə edərək deyib: "Ramiz Quliyevlə ömür boyu yaxın dost olmuşuq. Dünyanın bir çox ölkələrində çıxışlarımız olub. O, Azərbaycan musiqisini layiqincə təmsil edən, xalqın qəlbində özünə yer qazanmış nadir sənətkarlardan biri idi".

Azərbaycan Milli Konservatoriyasının rektoru Kamilə Dadaşzadə Ramiz Quliyevin musiqi mədəniyyətimizi həm Azərbaycanda, həm də beynəlxalq səviyyədə layiqincə təmsil etdiyini deyib. Xalq artisti Mənsum İbrahimov bildirib ki, Ramiz Quliyev Azərbaycan musiqi sənətində nadir istedada malik böyük sənətkar idi. Onun ifaçılığı, yaradıcılığı və musiqiyə yanaşması gələcək nəsillərə örnək olacaq. Xalq artisti Vamiq Məmmədəliyev Ramiz Quliyevin musiqi irsimizin yaşadılmasında çox böyük işlər gördüyünü deyib.

Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru, Əməkdar artist, beynəlxalq müsabiqələr laureatı Əyyub Quliyev atasının sənətinə hər zaman böyük diqqətlə yanaşan Azərbaycan Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Ramiz Quliyevin cənazəsi Beynəlxalq Muğam Mərkəzinin binasından qaldırılaraq II Fəxri xiyabana gətirilib. Burada mərhumun ruhuna dualar oxunub. Görkəmli sənətkarın cənazəsi torpağa tapşırılıb. Məzarı üzərinə əklillər, gül dəstələri düzülüb.

Ramiz Quliyevin sənət irsi və xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

**Allah rəhmət eləsin!**

*XQ*

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti fərdi mühafizə vasitələrinin satın alınması məqsədilə

**Açıq Tender Elan Edir**

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin fərdi mühafizə vasitələrinin satın alınması üçün açıq tenderdə iştirakçılar dilara.racabova@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 30 oktyabr 2025-ci il saat 15:00-dır. Prosedur üzrə əlaqələndirici şəxs – Dilarə Rəcəbova, mütəxəssis, dilara.racabova@azal.az .

Əlaqə telefonları: (+99412) 497-26-00; daxili 1450.

**"LUKOIL-Azərbaycan" QSC-nin tender elanı**

**Hörmətli xanımlar və cənablar!**

Biz bununla Sizi işlərin (xidmət, təchizat) yerinə yetirilməsinə dair tenderdə iştirak etməyə dəvət edirik: "LUKOIL-Azərbaycan" QSC-nin obyektlərində işləyən personal üçün firmaya aid və xüsusi geyim forması kataloquna uyğun olaraq QSC-nin obyektlərinin şəxsi heyəti üçün xüsusi geyimlərin sifarişi üzrə 2 mərhələli açıq tenderdə iştirak etməyə dəvət edirik.

Keçirilən tender barədə ümumi məlumat:

YDM və Neft bazasının operatorları, xadimələr üçün xüsusi geyim formasının alınması: isti qış gödəkçəsi, yay gödəkçəsi, yay və qış üçün kombinezon, trikotaj polo köynəyi kişi üçün, yay və qış kepkası, yağış plaşı və xalat. Tender iştirakçılarının texniki imkanları, kontraktın şərtlərinin yerinə yetirilməsini təsdiq edən lazımi sənədləri olmalıdır (xüsusi geyim formalarının nümunələri, onların sertifikatları təqdim edilməlidir).

Xüsusi geyim forması 27575-87, 12.4.031-84, 12.4.101-93, 12.4.131-83 saylı DÜİST-nin tələblərinə, texniki şərtlərə, həmçinin "СТО-Лукойл" 1.6.15.1-2019 korporativ standartına cavab verməli, yararlı, antistatik və istifadəyə uyğun olmalıdır.

Sifarışçi: "LUKOIL-Azərbaycan" QSC

Ünvan: Bakı şəhəri. Səbail rayonu, Z.Tağıyev küçəsi 13.

Əlaqə telefonları: (012) 497-41-99 / dax. 4246.

E-mail: rasul.aliyev@eu.lukoil.com

Əlaqələndirici şəxs: Rəsul Əliyev.

Sənədlərin tam toplusu, tenderdə iştirak etmək üçün zəruri sənədlərlə birgə təqdim etdiyiniz ərizənin, verilmiş tələblərə uyğunluq ekspertizasından sonra, Sizin ünvana göndəriləcək.

Tenderdə iştirak etmək üçün ərizələrin təqdimi və tender sənədlərinin alınması müddəti 31 oktyabr 2025-ci il saat 18:00-dək. Ərizə ilə birlikdə mütləq şəkildə kvalifikasiya anketi təqdim olunmalıdır.

Tender təklifləri 14 noyabr 2025–ci il saat 18:00-dək yuxarıda qeyd olunan ünvana təqdim edilməlidir.

Tender 17 noyabr 2025–ci il saat 11:00-da yuxarıda qeyd olunmuş ünvanda keçiriləcək. (1-ci mərhələ)

Tender 20 noyabr 2025–ci il saat 11:00-da yuxarıda qeyd olunmuş ünvanda keçiriləcək. (2-ci mərhələ)

Qeydə alınmış namizədlərin, tender təklifləri olan zərflərin açılmasında iştirakı mütləqdir.

Müqavilə üzrə hesablaşma nağdsız ödəniş yolu ilə, icraçının bank hesabına ödənilir.

Müqavilə şərtlərini yerinə yetirmək üçün tender iştirakçılarının texniki imkani,zəruri sənədlər toplusu olmalıdır.

Tender təkliflərinin qüvvədə olma müddəti 90 təqvim günündən az olmamalıdır.

Tender təklifləri Azərbaycan və ya rus dillərində təqdim olunmalıdır.

Tenderin qalibi ilə, tender başa çatdıqdan sonra, 20 təqvim günü ərzində müqavilə bağlanacaqdır.

Tenderin qalibi, şifarişçinin ərizəsinə əsasən malları növbəti ünvana çatdırmalıdır: Bakı şəh., Sabunçu, 8-ci km, r-nu, Bakıxanov qəs. (18 saylı YDM)

Tenderdə iştirak üçün "ərizə" forması, habelə tender haqqında tam məlumatları yuxarıda qeyd olunan telefon və elektron poçtu vasitəsi ilə almaq olar.

*Tender Komitəsi*

**"ЛУКОЙЛ-Азербайджан" ЗАО обьявление о проведении тендера**

**Уважаемые Дамы и Господа!**

Настоящим приглашаем вас принять участие в открытом тендере по заказу специальной одежды для персонала объектов ЗАО "ЛУКОЙЛ-Азербайджан согласно каталогу фирменной и специальной одежды для персонала АЗК организаций Группы "ЛУКОЙЛ" (Приложение №1)

Общая информация о проводимом тендере.

Заказчик: ЗАО "ЛУКОЙЛ-Азербайджан", расположенный по адресу; Сабаильский район, улица.З.Тагиева 13, контактное лицо: Алиев Расул, контактные телефоны (012) 497- 41 -99 / dax. 4246.

E-mail: rasul.aliyev@eu.lukoil.com.

Дата начала и окончания работ: 3 (три) года с даты подписания договора.

Полный комплект тендерной документации направляется в Ваш адрес после экспертизы полученной заявки на участие в тендере с приложением необходимых документов на предмет соответствия предъявляемым требованиям. Вместе с заявкой претенденты обязательно должны предоставить квалификационные анкеты.

Срок подачи заявки на участие в тендере и приобретение тендерной документации – «31» Октября 2025 г. по адресу, указанному выше.

Срок предоставления тендерных предложений до 14 ноября 2025 город. по адресу, указанному выше.

Дата проведения тендера 17 ноября 2025 г. в 11.00 по адресу, указанному выше (первый этап).

Дата проведения тендера 20 ноября 2025 г. в 11.00 по адресу, указанному выше (второй этап).

Участие представителей зарегистрированных претендентов во втором этапе тендера обязательна.

Расчеты по договору будут проводиться по безналичному расчету путем перечисления на счет исполнителя.

Участники тендера должны иметь технические возможности проведения работ, набор необходимых документов для выполнения условий контракта.

Срок действия тендерных предложений должен составлять не менее 90 календарных дней, начиная с даты проведения тендера.

Тендерные предложения необходимо представить на азербайджанском и русском языках.

С победителем тендера будет заключен договор в течение 20 календарных дней с момента окончания тендерных торгов.

Победитель тендера должен поставлять товар, согласно заявке заказчика, по адресу: город. Баку, Сабунчинский р-н, 8-й км, пос. Бакиханова (АЗС №18)

Форму "Заявки на участие в тендере", а также иную информацию можно получить по указанным в приглашении телефонам и адресу электронной почты.

*Тендерный комитет*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 223 (30917) 17 oktyabr 2025-ci il, cümə

## İDMAN

### Şabranda yeni Cüdo Təlim Mərkəzi



**Şabranda Cüdo Təlim Mərkəzinin açılışında gənclər və idman naziri Fərid Qayıbov, Şabran Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov, Azərbaycan Cüdo Federasiyasının icraçı vitse-prezidenti Rəşad Rəsullu iştirak ediblər.**

Cüdoçuların fiziki hazırlığını yüksəltmək üçün mərkəzdə lazımi şərait yaradılıb, müasir idman qurğuları quraşdırılıb. Tatami 200 kvadratmetr sahəni əhatə edir. Salonda eyni vaxtda 200-dən çox idmançı cüdo ilə məşğul olacaq.

Qeyd edək ki, federasiyanın dəstəyi ilə son 3 ildə Gəncə və Sumqayıt şəhərlərində, Qusar, Ağstafa, Zaqatala, Goranboy, Ağdaş, Kürdəmir, Astara, Cəlilabad, Tərtər, Qax, İmişli və Sabirabad rayonlarında, Zəngilanın Ağalı və Zaqatalanın Mosul kəndlərində, Bakının Zirə qəsəbəsində cüdo zalları açılıb. Masallı, Cəlilabad, Qobustan və Siyəzən rayonlarında da tezliklə cüdo ilə məşğul olmaq imkanı yaradılacaq. ACF Bakı və regionlardakı 158 idman zalına ötən 3 ildə 11704 tatami verib, 2 min 430 gənc idmançıya pulsuz məşq etmək imkanı yaradılıb.

### "Abşeron Lions" Avropa Kubokunda




**"Abşeron Lions" basketbol komandası dünən FIBA Avropa Kubokunun qrup mərhələsində mübarizəyə başlayıb. Erhan Tokerin baş məşqçisi olduğu kollektiv paytaxtda Estoniyanın "Kalev" klubunu qəbul edib. Bakı İdman Sarayında keçirilən görüş 85-93 hesabı ilə başa çatıb.**

Qeyd edək ki, oktyabrın 15-də Azərbaycanın digər təmsilçisi "Neftçi" Avropa Kubokuna məğlubiyyətlə başlayıb. Paytaxt basketbolçuları I qrupda Polşanın "Trefl" klubu ilə qarşılaşıb. Soport şəhərində keçirilən oyun meydan sahiblərinin qələbəsi ilə yekunlaşıb – 92:63.

### Amputant futbolunun qrup oyunları



**Bakıda keçiriləcək amputant futbolu üzrə Millətlər Liqasının C qrupunun oyunlarının təqvimi açıqlanıb.**

AFFA-nın mətbuat xidmətindən verilən məlumata görə, 3 gün davam edəcək turnirdə 5 komanda – Azərbaycan, Belçika, İsrail, Ukrayna və Niderland millilləri mübarizə aparacaqlar. Komandamız ilk oyun günü Belçika, sabah İsrail, oktyabrın 19-da isə Niderland və Ukrayna millilləri ilə mübarizə aparacaqdır.

Qeyd edək ki, turnirin bütün oyunları "Bayıl Arena"da keçiriləcək.

***Qabil YUSİFOĞLU***
***XQ***

*Tarixin etirafı*

# İspan gəncləri Kolumbu ittiham edirlər




**Madridin Hərbi Dəniz Qüvvələri Muzeyində gözlənilməz hadisə baş verib. İtalyan səyyah və dənizçi Xristofor Kolumbun təsvir olunduğu tabloya qırmızı boya tökülüb. Hadisə barədə "El País" qəzeti məlumat yayıb.**

Məlumata görə, bu addımı "Futuro vegetal" adlı ekoloji təşkilatın fəalları atıblar. Onlar rəssam Xose Qarnelonun "Xristofor Kolumbun ilk bayramı" adlı əsərinin üzərinə bioloji parçalana bilən boya püskürdərək "Bayram etməyə heç nə yoxdur!" şüarını səsləndiriblər.

Fəallar bu hərəkətlərini "tarixi ədalətə çağırış" kimi izah ediblər. Onların sözlərinə görə, Kolumbun Amerikaya "kəşfi" yerli xalqlar üçün faciəli nəticələrə gətirib çıxarıb. Bu səbəbdən, onların fikrincə, bu gün bayram deyil, tarixi ədalətsizliyi etiraf etmə günü kimi qəbul edilməlidir. Muzey administrasiyası isə bildirib ki, hadisədən sonra təhlükəsizlik əməkdaşları fəalları saxlayıblar. Onlara qarşı mədəni irsə zərər vurmaq ittihamı irəli sürülüb və hazırda istintaq aparılır.

İspaniyada hər il 12 oktyabr milli bayram – Kolumb Günü kimi qeyd olunur. Bu tarix 1492-ci ildə Xristofor Kolumbun ilk dəfə Amerika qitəsinə ayaq basdığı günlə üst-üstə düşür. Lakin son illərdə bu günlə bağlı cəmiyyətdə ciddi mübahisələr yaşanır. Bəziləri bu tarixi "dünya sivilizasiyasının yeni dövrünün başlanğıcı" kimi qiymətləndirir, digərləri isə "yerli xalqların fəth və köləliyinin başlanğıcı" adlandırır.

Tarixçilər vurğulayırlar ki, Kolumb Amerikaya "kəşf" etməyə gəlməmişdi – o zaman qitədə artıq inkişaf etmiş mədəniyyətlər və xalqlar mövcud idi. Kolumbun səyahətləri Qərbi Avropanın yeni torpaqlara nüfuz etməsinə və genişmiqyaslı müstəmləkəçiliyin başlanğıcına səbəb olub.

1492–1502-ci illər arasında Kolumb Amerikaya dörd dəfə səfər edib. Onun ekspedisiyaları nəticəsində ABŞ, Kanada və Meksika kimi dövlətlərin formalaşmasına zəmin yaranıb. Lakin yerli xalqlar üçün bu proses müsbət nəticələrlə yekunlaşmayıb. Buna görə də bu gün Avropa və Amerikada Kolumbun şəxsiyyətinə münasibət birmənalı deyil. Bəziləri onu "dünyanı birləşdirən qəhrəman", digərləri isə "müstəmləkəçiliyin simvolu" kimi dəyərləndirirlər.

Madriddə baş verən son hadisə bu müzakirələri yenidən gündəmə gətirib. Ekoloji fəalların sözlərinə görə, "tarixi yenidən nəzərdən keçirmək və gələcək nəsillərə onun əsl simasını göstərmək vaxtıdır". Hadisə cəmiyyətdə də belə bir sual doğurub: Qeyd edilən tarix – kimin qələbəsi, kimin məğlubiyyətidir?

***S.ELAY***
***XQ***

# Ekoloji çağırışlar elm güzgüsündə



**Bakıda Elm və Təhsil Nazirliyi, Elm və Təhsil üzrə Dövlət Agentliyi və Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən "Enerji, qida, ətraf mühit və iqlim təhlükəsizliyi sahəsində çağırışlar" mövzusunda beynəlxalq konfrans dünən öz işini davam etdirib.**

ABŞ-ın Nebraska Universitetinin professoru Tahir Tahirovun və Ouburn Universitetinin professoru Rəşad Kərimovun moderatorluğu ilə keçirilən iclaslarda Emory Universitetinin Emerson Elmi Hesablamalar Mərkəzinin direktoru, professor Camal Musayevin "Katalizdə mikro-mühitin və qeyri-kovalent qarşılıqlı təsirlərin rolları haqqında: Günəş enerjisinin kimyəvi enerjiyə çevrilməsi", Almaniyanın Osnabrük Tətbiqi Elmlər Universitetinin professoru Ali Nazın "Yaşıl inqilab" və "Genom inqilabı": kənd təsərrüfatının davamlı inkişafı üçün həll yolları" adlı məruzələri, eləcə də Türkiyənin Bilkent Universitetinin dosenti Dr. Yunus Emre Türkmenin, Qətər Krallığının Translasiya Araşdırmaları İnstitutunun professoru Aamir Ahmadın, Türkiyənin Egey Universitetinin professoru Əziz Eftekharinin və 9 İyul Universitetinin professoru Levent Çavaşın, ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun laboratoriya müdiri, biologiya elmləri doktoru Yaşar Feyziyevin məruzələri dinlənilib.

Təqdimatlardan sonra geniş müzakirə aparılıb, suallar cavablandırılıb.

***Ə.QABİL***
***XQ***

# Nizami yurdunda türkmən çal-çağırı





**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ölkəmizdə keçirilən Türkmənistan Mədəniyyəti Günləri Gəncə şəhərində geniş konsert proqramı ilə başa çatıb. Gəncə Dövlət Filarmoniyasında təşkil olunmuş konsertdə gəncəlilərə türkmən musiqisinin inciləri təqdim edilib.**

Qardaş ölkə incəsənət kollektivlərinin musiqi və rəqs nömrələri alqışlarla qarşılanıb. Azərbaycanın Xalq artistləri Gülyaz və Gülyanaq Məmmədovalar türkmən həmkarları ilə bir səhnəni bölüşüb, iki xalqın dostluğunu tərənnüm edən mahnılar səsləndiriblər. Konsert proqramı Nizami yurdunun – qədim Gəncə elinin musiqisevərlərinə unudulmaz anlar yaşadıb.

***XQ***

*✓ 2021-ci il avqustun 20-də Əhmədxanova Samirə Məmməd qızının adına verilmiş şəhid ailəsi üzvünün 005970 nömrəli vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

*✓ Xaçmaz rayon sakini Kərimov Cavanşir Mirzəbəy oğlu tərəfindən etibarnamə ilə (Əliyev Rövşən Hicran oğlu tərəfindən verilən) idarə olunan taxta qayığın AA033972 nömrəli texniki talonu (pasportu) itdiyi üçün etibarsız sayılır.*

*✓ 2006-cı il mayın 27-də Abşeron rayonunun Mehdiabad bələdiyyəsi tərəfindən Paşayev Ziyad Süleyman oğlunun adına verilmiş fərdi yaşayış evinin tikintisi üçün 167 nömrəlik torpağın 600 kvadrat metrliksahəsinin sənədi itdiyi üçün etibarsız sayılır.*

*HAVA*

## Yağmurlu bir cümə

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Səhər yarımadanın ayrı-ayrı yerlərində qısamüddətli leysan xarakterli olacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturunun gecə 13-16, gündüz 18-21 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 767 millimetr civə sütunundan 770 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimal edilir. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 12-16, gündüz 18-22, dağlarda gecə 2-5, gündüz 5-9 dərəcə isti olacağı bildirilir.

***Q.ƏLİYEV***
***XQ***

**ALLAH RƏHMƏT ELƏSİN!**

"Xalq qəzeti"nin kollektivi redaksiyanın əməkdaşı Mirbağır Yaqubzadəyə əzizi

**KAMRANIN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3508
SİFARİŞ 1952
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00